RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 27 (10047) 12 fevral 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Prezidentin nəzarəti altında

## "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planı hazırlanacaq

**Fevralın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirə keçirilib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı müşavirədə çıxış edib.**



2-3

## Şavkat Mirziyoyev İlham Əliyevi təbrik edib



### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

Dəyərli qardaşım!

Əziz qardaşım, Sizi Əbu-Dabi şəhərində beynəlxalq "Zayed İnsan Qardaşlığı Mükafatı" ilə təltif olunmağınız münasibətilə səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Sizin bu yüksək və nüfuzlu mükafata layiq görülməyinizi, ilk növbədə Cənubi Qafqaz regionunda davamlı sülhün və sabitliyin təmin edilməsi istiqamətində yorulmaz səylərinizin, uzaqgörən və müdrik xarici siyasətinizə dərin hörmətin əyani təsdiqi kimi dəyərləndiririk.

Həqiqətən də 2025-ci il avqustun 8-də Vaşinqton şəhərində Sizin və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanın Birgə Bəyannaməni imzalamağınız sülhə nail olunması yolunda tarixi əhəmiyyət kəsb edən böyük hadisə oldu.

Uzun illər davam etmiş münaqişənin siyasi-diplomatik vasitələrlə həllinə yönəlmiş qətiyyətli qərarınız, həmçinin Azərbaycan və Ermənistan arasında bərabərhüquqlu münasibətlərin bərpası, regional təhlükəsizliyin möhkəm mexanizmlərinin formalaşdırılması, iqtisadi və nəqliyyat əlaqələrinin inkişafı istiqamətindəki əməli səyləriniz yüksək təqdirə layiqdir.

Hörmətli İlham Heydər oğlu, Siz xalqın və dövlətin mənafeyi naminə sülhə yönəlmiş dialoqları necə aparmaq, ən çətin məsələləri belə dərindən düşünülmüş və cəsarətli qərarlar vasitəsilə necə səmərəli həll etmək nümunəsini bütün dünyaya aydın şəkildə nümayiş etdirdiniz.

Bu ali beynəlxalq mükafat münasibətilə Sizi bir daha səmimi-qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, ailə səadəti və rifah, ali dövləti fəaliyyətinizdə yeni-yeni nailiyyətlər, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və daimi tərəqqi arzulayıram.

*Səmimi ehtiramla,*

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

## *Cey.Di.VENS:* "Prezident Əliyev həqiqətən böyük təşəkkürə layiqdir"



ABŞ-Azərbaycan münasibətlərinin ən yüksək səviyyəyə çatması, dinamik inkişaf xətti üzrə irəliləməsi və yeni hədəflərə doğru istiqamətlənməsi təkcə ölkəmiz üçün deyil, bütövlükdə Cənubi Qafqazda sabitliyin möhkəmlənməsi baxımından vacib əhəmiyyət daşıyır. Bu reallıq isə Prezident İlham Əliyevin humanist dəyərlərə əsaslanan, sülhü təşviq edən və ədaləti prioritet sayan siyasətinin nəticəsidir. Prezident İlham Əliyevin liderliyi ilə yürüdülən bu düzgün siyasi xətt beynəlxalq aləmdə də yüksək rəğbətlə qarşılanır.

Fevralın 10-da Prezident İlham Əliyev və ABŞ-nin vitse-prezidenti Cey.Di.Vens mətbuata bəyanatlarla çıxış edərkən Ağ Evin təmsilçisinin səsləndirdiyi fikirlər bunun bariz göstəricisi oldu: "Hazırda sülh sazişi baxımından düşünürəm ki, Prezident Əliyev həqiqətən böyük təşəkkürə layiqdir... ...Düşünürəm ki, gələcəkdə bir vaxtlar yalnız mübarizə və münaqişə olan yerdə əmin-amanlıq yaranacaq. Bu, Prezident Əliyevin liderliyinin və rəhbərliyinin bariz nümunəsidir".

ABŞ rəsmisinin bu sözləri Azərbaycan Prezidentinin sülh prosesində oynadığı rola verilən açıq və yüksək qiymət kimi diqqət çəkdi.

Ümumiyyətlə, ölkəmizdə rəsmi səfərdə olan vitse-prezident Cey.Di.Vens Prezident İlham Əliyevin şəxsi liderlik keyfiyyətlərini dəfələrlə vurğuladı: "Enişdən əvvəl işçilərimə deyirdim ki, Prezident Tramp kimi Prezident Əliyev də dünyada türklər və israillilər ilə həqiqətən yaxşı münasibətlərə malikdir... ...Ölkə başçısı həqiqətən cəlbedici şəxsdir. Mən təsdiqləyə bilərəm ki, o, çox cəlbedicidir".

6

## 42 kilometrlik TRIPP 4200 kilometrlik Orta dəhlizin əsas halqasına çevrilir



Orta dəhliz ən münasib alternativdir, üstəlik də, təhlükəsizlik və səmərəlilik baxımından əlverişlidir. O da məlumdur ki, Orta dəhlizə nəzarət uğrunda qlobal güclər arasında ciddi rəqabət gedir. Ermənistanla Azərbaycanın Zəngəzur dəhlizinin (TRIPP) açılması barədə razılığa gəlməsinin gecikməsi də bu layihəyə qarşı çıxan güclərin Ermənistana təzyiq göstəməsi ilə bağlı olub.

9

## Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı quruculuq işləri davam edir



İşğaldan azad olunmuş ərazilərin bərpası Azərbaycan dövlətinin uzunmüddətli inkişaf strategiyasının ayrılmaz hissəsidir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" uğurla icra edilir.

Proqramın ümumi icra faizi təqribən 79 faizdir. İşğaldan azad olunmuş ərazilərə Böyük qayıdışın davamlılığının təmin edilməsi məqsədilə Prezident İlham Əliyev 2025-ci il 30 may tarixində imzaladığı sərəncamla "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı" layihəsinin hazırlanmasını tapşırıb.

Hər gün Böyük qayıdışın uğurlu nəticələrinin şahidi oluruq. Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq və bərpa işləri zaman keçdikcə daha geniş vüsət alır, işğaldan azad edilmiş torpaqlarda həyat yenidən canlanır. Bu proses həm də insanların doğma yurdlarına qayıdışı ilə öz real nəticəsini göstərir.

Qarabağ və Şərqi Zəngəzurda bərpa və quruculuq prosesi planlı şəkildə həyata keçirilir. Yenidən qurulması üçün bütün şəhərlərin baş planları təsdiq olunub.

7

## İlk regional inkişaf dövlət proqramının təsdiq olunmasından 22 il keçir



2020-ci ildə Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı böyük qələbə ilə görülən işlərin miqyası daha da genişləndi. Düşmən tapdağından azad edilmiş ərazilərimizdə bərpa və tikinti-quruculuq işləri geniş vüsət aldı. İşlər elə bir start götürdü ki, 2023-cü ildə, yəni qələbədən cəmi üç il keçmiş artıq Zəngilanın Ağalı kəndi, Tərtərin Talış kəndi, Laçın, Füzuli özünün illərlə doğma yurd üçün həsrət çəkən yüzlərlə sakinini qoynuna aldı. Həmin vaxtdan başlanan köç karvanları indi artıq aydan-aya deyil, gündən-günə çoxalır.

Sonuncu proqramın təkcə bir ilində ölkənin regionlarında həyata keçirilmiş layihələrin bir hissəsini sadalamaqla görülmüş işlərin miqyasını təsəvvürə gətirə bilərik. Belə ki, yalnız 2022-ci ildə Ağdam Sənaye Parkında 12 rezident qeydiyyatdan keçdi. 2023-cü il yanvarın 1-dək Sumqayıt Kimya Sənaye Parkında qeydiyyatdan keçmiş rezidentlərin sayı 32-yə çatdı. Mingəçevir Sənaye Parkında "Mingəçevir Tekstil" MMC-nin iplik istehsalı üzrə iki müəssisəsi fəaliyyətini davam etdirdi, istehsal olunan məhsulların satışı həyata keçirildi.

10

# Prezidentin nəzarəti altında

## "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planı hazırlanacaq

**Fevralın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirə keçirilib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı müşavirədə çıxış edib.**



### Prezident İlham Əliyevin çıxışı

- Biz bugünkü müşavirədə rəqəmsal inkişafla bağlı olan məsələləri müzakirə edəcəyik, buna ehtiyac var. Bu məsələ bizim gələcək inkişafımızı böyük dərəcədə şərtləndirəcək. Dünyada gedən meyillər, trendlər bəllidir. Bu gün süni intellektin tətbiqi, data mərkəzlərinin yaradılması, rəqəmsallaşma ilə bağlı islahatlar faktiki olaraq ölkələrin gələcək inkişafını müəyyən edir. Azərbaycanda bu istiqamətdə müəyyən işlər görülüb, bu barədə bu gün danışılacaq. Ən önəmlisi gələcək fəaliyyətimizdə bu məsələni əsas prioritetlər siyahısına daxil etməyimizdir.

Bizim neft-qaz, bağlantılar sahələrində böyük təcrübəmiz var - beynəlxalq şirkətlərlə olan əlaqələr, böyük təcrübəmiz və bir çox ölkələrlə bu nəhəng layihələri icra etməyimiz. Çünki bunlar həm bilik, bacarıq, texniki keyfiyyətlər, eyni zamanda geniş beynəlxalq əlaqələr tələb edən məsələlərdir. Azərbaycan öz qonşuları ilə müxtəlif vaxtlarda müxtəlif istiqamətlər üzrə bir çox önəmli infrastruktur layihələrini icra etmişdir. Yəni bu sahədə həm təcrübəmiz var, həm də artıq yaradılmış platformalar var. Nəqliyyat, energetika dəhlizləri gələcəkdə fiber-optik dəhlizlərinə də çevrilməlidir. Bu istiqamətdə müəyyən işlər görülüb. Neft-qaz kəmərləri tikilən zaman, o cümlədən bu məsələ də öz həllini tapıb. Ancaq bu, təbii ki, bugünkü tələblərə cavab vermir. Ona görə rəqəmsallaşma, süni intellekt, data mərkəzlərinin yaradılması istiqamətində də bizim təşəbbüslərimiz ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafını təmin etməlidir. Bizim bir çox üstünlüklərimiz var. Onlardan biri bizim coğrafi vəziyyətimizdir. Bu, bizdən asılı olmayan üstünlükdür. Ancaq hər bir ölkənin coğrafi vəziyyəti onun xeyrinə, yaxud da ki, ziyanına işləyə bilər. Biz coğrafi vəziyyətimizi ölkəmizin inkişafına bağlamışıq və buna nail olmuşuq. Ona görə Asiya ilə Avropa arasında yerləşməyimiz, "Şimal-Cənub" dəhlizi üzərində yerləşməyimiz və yaradılmış mövcud infrastruktur bu üstünlüyü bizə təmin edir.

Qeyd etdiyim kimi, transmilli böyük şirkətlərlə iş təcrübəmiz - bu da böyük üstünlükdür. Müsbət investisiya iqlimi. Azərbaycan iqtisadiyyatına son 20 il ərzində 350 milyard dollardan çox sərmayə qoyulub. Xarici sərmayələr qorunub - həm qanunlar tərəfindən, eyni zamanda gündəlik həyatda da görürük. Həm yerli, həm xarici sərmayələrin qorunması hər bir ölkənin inkişafını müəyyən edib, o cümlədən Azərbaycanın. Deyə bilərəm ki, burada da nadir təcrübəmiz var. 30 ildən çox davam edən bizim neft-qaz layihələrimiz necə imzalanıbsa, bu gün elə də icra edilir. Bu təcrübə, əlbəttə ki, rəqəmsal dünyada aparıcı rol oynayan şirkətlərlə münasibətlərdə də özünü göstərməlidir.

Digər üstünlüyümüz ondan ibarətdir ki, son illər ərzində aparılan işlər nəticəsində biz öz enerji generasiya gücümüzü böyük dərəcədə artıra bilmişik. Son 20 il ərzində generasiya gücümüz təxminən iki dəfəyə yaxın artıb və bu gün 10 min meqavata bərabərdir. Yeni elektrik stansiyaları, - istər qaz, istər hidro, istər Günəş, külək, - bu gün Azərbaycan reallıqlarını müəyyən edib. Hazırda bizim ən azı 2 min meqavat istifadə edilməyən generasiya gücümüz var ki, rəqəmsallaşma, süni intellekt, data mərkəzlərinin yaradılması üçün bu, başlıca şərtdir.

Onu da bildirməliyəm ki, yerləşdiyimiz bölgədə, geniş bölgədə bu imkanlara malik olan ölkələr ən azı çox deyil və bu gün Azərbaycan özünü bütün əsas enerji mənbələri ilə tam təmin edir, hətta onları dünya bazarlarına da çıxarır. Nəzərə alsaq ki, bizim bərpaolunan enerji növlərinin yaradılması istiqamətində planlarımız göz önündədir, - bu barədə dəfələrlə danışılıb, - gələcəkdə bizim generasiya gücümüz imzalanmış kontraktlar əsasında daha da artacaq. Ona görə biz bu üstünlükdən səmərəli şəkildə istifadə etməliyik. Təbii ki, ölkə daxilində elektrik enerjisinə artan tələbat nəzərə alınmalıdır. Xüsusilə bizim sənaye inkişafı ilə bağlı böyük planlarımız var. Həm əhali artır, həm sənaye istehsalı xüsusilə qeyri-neft sektorunda artır və bu ilin yanvar ayında qeyri-neft sənayemiz təqribən 8 faiz artmışdır. Ona görə bizim enerji güclərimiz ölkənin inkişafını dəstəkləməlidir.

Eyni zamanda bildiyiniz kimi, xarici tərəfdaşlarla "yaşıl enerji" kabellərinin çəkilişi ilə bağlı müvafiq sənədlər imzalanıb və biz elektrik enerjisinin bir qismini ixrac edəcəyik. Ancaq data mərkəzlərinin yaradılması da dediyim kimi, böyük enerji güclərini tələb edir.

Fiber-optik bağlantılarla əlaqədar qeyd etdiyim kimi, enerji infrastrukturunun yanında bu kabellər də çəkilib. Hazırda bizi Xəzər dənizinin Şərq sahilləri ilə birləşdirəcək fiber-optik kabelin çəkilişi layihəsi icra edilir, ümid edirəm ki, bu il başa çatacaq. Beləliklə, Şərqə doğru bağlantılar təmin ediləcək, Qərbə doğru isə yeni bağlantılar üzərində işləməliyik. Təbii ki, bugünkü müşavirədə müzakirə ediləcək məsələlərin həlli üçün bu da başlıca məsələlərdən biridir.

Digər üstünlüyümüz isə ondan ibarətdir ki, biz bu sahədə dünyanın aparıcı şirkətləri ilə artıq təmaslar qurmuşuq. Bir neçə aparıcı şirkətlə danışıqlar aparılıb, ölkəmizin imkanları onlara təqdim edilib. Eyni zamanda dünyanın böyük və deyə bilərəm ki, ən böyük maliyyə resurslarını idarə edən qlobal fondlarla bizim sıx əlaqələrimiz var. Azərbaycan Dövlət Neft Fondu uzun illərdir bu təsisatlarla əməkdaşlıq edir və o təsisatlar vasitəsilə Azərbaycanın valyuta ehtiyatlarının bir hissəsi idarə olunur. Biz artıq bu təsisatlara vəsait yatırırıq və onlarla bu yaxınlarda aparılmış danışıqlarda, eyni zamanda bu qurumlardan Azərbaycana investisiyaların cəlb edilməsi məsələləri də qaldırılmışdır və müsbət cavab alınmışdır. Yəni indi konkret layihələr üzərində işləyirik və rəqəmsallaşma, süni intellekt sahələrində aparıcı şirkətlərin səhmlərinin bir hissəsi də dediyim ən böyük Amerika fondlarının sərəncamındadır. Bu, bizim böyük üstünlüyümüzdür. O cümlədən dünən bu binada Amerika Hökuməti ilə Azərbaycan Hökuməti arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası da bu üstünlüyü bizə təmin edir. Bu xartiya tarixi bir sənəddir. Bu, artıq mətbuatda da dərc edilib, hər kəs görə bilər nədən ibarətdir, o cümlədən data mərkəzləri, rəqəmsallaşma, süni intellekt və bu sahədəki Amerika şirkətləri ilə sıx əlaqələrimiz. Yəni bu da bizim üstünlüyümüzdür.

Eyni zamanda bizim Avropa İttifaqına üzv 10 ölkə ilə strateji tərəfdaşlıq sənədləri var. Təbii ki, Avropa şirkətləri bu sahədə Amerika şirkətləri ilə rəqabət apara bilməzlər, onlardan bəlkə ən azı bir nəsil geridədirlər. Ancaq orada da müəyyən işlər görülür və o ölkələrin şirkətləri ilə də səmərəli əməkdaşlıq təmin edilməlidir.

Keçən il isə Çin Xalq Respublikası ilə hərtərəfli Strateji Tərəfdaşlıq sənədi imzalamışıq. Yəni biz bu gün dünyada nadir ölkələrdənik ki, dünyanın aparıcı güc mərkəzləri ilə artıq imzalanmış strateji tərəfdaşlıq formatında çalışırıq. Yəni bu, bizim üstünlüyümüzdür. Dünyada bu qədər üstünlüyü olan ikinci ölkə tapıla bilər, çox axtarsan. Ona görə bundan istifadə etməmək tamamilə qəbuledilməzdir. Bütün bunları nəzərə alaraq, artıq bir müddət bu istiqamətdə işlərin vahid koordinasiyası ilə bağlı məsələlər müzakirə edilir, mənim göstərişimlə bu məsələlər ətrafında fikir mübadiləsi aparılır, bu gün isə mənim sədrliyimlə. Nəzərə alsaq ki, bu məsələ qeyd etdiyim kimi, prioritet təşkil edir, mənim sədrliyimlə bugünkü müşavirədə biz görüləcək işlərlə bağlı konkret fəaliyyət planının hazırlanmasına başlamalıyıq. Tezliklə onu başa çatdırmalıyıq və beləliklə, bu sahəyə daha güclü təkan verməliyik.

Bu gün təqdimatda əsas məsələlər göstəriləcək. Ondan əvvəl bəzi fikir və tapşırıqlarımı diqqətinizə çatdırmaq istərdim. Birinci növbədə, bu sahədə dövlət qurumları arasında çox sıx koordinasiya aparılmalıdır. Burada dövlət qurumları arasında sıx təmaslar olmalıdır, pərakəndəliyə yol verilməməlidir və qısa müddət ərzində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi dövlət qurumları ilə birlikdə tədbirlər planı hazırlamalıdır və mənə təqdim edilməlidir.

Bu məsələdə işlərin daha səmərəli təşkili üçün hesab edirəm ki, hər bir dövlət qurumunda, ilk növbədə nazirliklərdə rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik üzrə bir müavin ayrılsın, ya yeni ştat vahidi yaradılsın, ya da bu sahə mövcud müavinlərin birinə tapşırılsın ki, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin əməkdaşları, rəhbərliyi bilsinlər ki, onların təmasda olacaqları şəxslər kimdir və hər bir dövlət qurumunda bu sahə prioritet sayılmalıdır. Bu, bir.

Son illər ərzində müxtəlif dövlət qurumları - nazirliklər və digər dövlət qurumları tərəfindən müxtəlif platforma və tətbiqlər işlənib hazırlanmışdır. Bu işin artıq koordinasiya şəklində aparılması üçün hesab edirəm ki, buna da ehtiyac olmayacaq və yaradılmış platforma və tətbiqlər tədricən ləğv edilməlidir, hansı müddət ərzində, onu indi mənə təkliflər təqdim ediləndə təklif edərsiniz. Dövlət xidmətləri "mygov" üzərindən həyata keçirilməlidir - yəni vahid mərkəzdən. Hər kəs bunu bilməlidir - həm dövlət qurumları, həm vətəndaşlar. Bu, vətəndaşlar üçün də çox böyük üstünlük təmin edəcək. Vətəndaşa lazım olan bütün xidmətlər bir ünvandan göstərilməlidir. İndi buna nə qədər vaxt lazımdır, əlbəttə ki, bunu siz mənə bildirərsiniz. Eyni zamanda bu gün mövcud olan platformaların üstünlükləri, əldə edilmiş təcrübə və bu platformaların işlənməsində iştirak etmiş şəxslər, kadrlar da ümumi işə cəlb edilməlidir. Yəni mən əldə edilmiş nəticələri qiymətləndirirəm, amma eyni zamanda bu gün vaxt gəlib çatıb ki, bu, vahid mərkəzdə birləşsin.

Kadr hazırlığına gəldikdə, bu, əsas vəzifələrdən biridir. Son vaxtlar bu istiqamətdə müəyyən işlər görülür. Biz öz təhsil sistemimizdə bu sahəyə daha böyük diqqət göstərməliyik. Həm Azərbaycanda fəaliyyət göstərən ali məktəblərdə, eyni zamanda dövlət xətti ilə xaricə göndərilən tələbələr bu ixtisas üzrə peşəkarlığı artırmalıdırlar. Ona görə nəzərə alsaq ki, bu, uzunmüddətli proses olacaq və bu proses ancaq və ancaq genişlənəcək, gələcəkdə bu sahədə kadrlara böyük ehtiyac olacaq. Təbii ki, orta məktəblərdə şagirdlərə ilkin biliklərin aşılanması üçün tədris proqramına da müəyyən dəyişikliklər edilməlidir.

Süni intellektin tətbiqi dövlət qurumlarında geniş vüsət almalıdır. Bu gün bu sahədə aparıcı ölkələrdə bu belədir. Hətta mənə verilən məlumata görə, bu sahədə inkişaf etmiş bəzi ölkələrdə dövlət məmurlarının gündəlik fəaliyyətinə də süni intellekt agentləri, - belə adlandırılır, - kömək göstərir. Çünki burada hər hansı bir qərarın düzgün olub-olmaması ilə bağlı süni intellekt, təbii ki, yardımçı ola bilər. Ona görə bu sistemə də baxmaq lazımdır və rəhbər orqanlarında təmsil olunan şəxslər süni intellektdən geniş istifadə etməlidirlər.

Özəl sektora gəldikdə, burada eyni yanaşmanı təmin etmək üçün dəstək mexanizmləri işlənməlidir. Biz özəl sektora bu sahədə hansı formada daha böyük diqqət göstərilməsini təşviq edə bilərik, bu barədə də təkliflər veriləcək.

Kibertəhlükəsizlik üzrə əsas hədəflər müəyyən edilməlidir. Bu sahə də kritik sahələrdən biridir. Biz keçən il çox mütəşəkkil və aqressiv kiberhücuma məruz qalmışıq. Biz onun mənbəyini də bilirik və lazımi tədbirlər də görülmüşdür ki, özümüzü bu ciddi problemlərdən qoruya bilək. Ona görə bu sahəyə ciddi diqqət göstərilməlidir. Bizdə artıq fəaliyyət göstərən Kibertəhlükəsizlik Mərkəzi var, onun işi daim diqqət mərkəzində olmalıdır.

Təbii ki, artıq qeyd etdiyim kimi, bu sahədə dünyanın aparıcı şirkətləri ilə təmaslar daha sıx olmalıdır. Hesab edirəm ki, bugünkü müşavirə və bu məsələnin Prezidentin nəzarəti altında olması bizim bir çox tərəfdaşlarımıza da ciddi mesaj olacaq ki, Azərbaycan bu sahəni özü üçün prioritet sayır. Bizdə olan imkanlar nədən ibarətdir? Mənim sadaladığım üstünlüklər xarici tərəfdaşlarımıza da çatdırılmalıdır. Sadalamadığım üstünlüklər indi siz tərəfdən də çatdırılmalıdır ki, biz bu sahəyə güclü təkan verək.

Qeyd etdiyim kimi, fəaliyyət planı hazırlanmalıdır və mənə təqdim edilməlidir. Bu gün müzakirə edilən və ediləcək, o cümlədən təqdimatda göstəriləcək məsələlər fəaliyyət planına salınmalıdır.

İndi isə təqdimat üçün söz verilir rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevə.




❖ ❖ ❖

### Nazir Rəşad Nəbiyevin çıxışı

- Möhtərəm cənab Prezident.
Hörmətli Mehriban xanım.
Hörmətli həmkarlar.

Cənab Prezident, əvvəlcə Sizə rəqəmsal inkişaf və nəqliyyat sahəsinə göstərdiyiniz davamlı diqqət və qayğıya görə minnətdarlığımı bildirmək istəyirəm. Göstərdiyiniz bu diqqət və qayğı nəticəsində son illərdə bu sahələrdə yaradılan əlavə dəyər davamlı olaraq artmaqdadır. Ötən il ölkəmizdə nəqliyyat sahəsində artım 5 faiz, İKT sahəsində təxminən 8,5 faiz olmuşdur. Sizin də haqlı olaraq vurğuladığınız kimi, artıq dünyada rəqəmsal iqtisadiyyat ənənəvi iqtisadiyyatı üstələməkdədir. Süni intellektin yaxın 2030-cu ilə qədər yaradacağı əlavə dəyərin təxminən 16 trilyon ABŞ dolları həcmində olmasını gözləyirik.

Möhtərəm cənab Prezident, artıq Sizin burada da səsləndirdiyiniz kimi və öncədən də verdiyiniz tapşırığa uyğun olaraq, dünya praktikası, ölkəmizin hazırkı vəziyyəti və qarşısında duran yeni çağırışlar nəzərə alınmaqla texnoloji inkişafımızı irəlilədəcək ilkin fəaliyyət planı hazırlanmışdır. Bu fəaliyyət planı dörd sütun üzərində qurulmuşdur: birincisi, rəqəmsallaşma və rəqəmsal transformasiyanın sürətləndirilməsi. İkincisi, süni intellekt və süni intellekt həllərlə bağlı dövlət müəssisələrində və eyni zamanda özəl şirkətlərdə bunun geniş tətbiqi. Üçüncü məsələ, innovasiya ekosistemi. Əgər rəqəmsallaşmanı düzgün ediriksə, süni intellekt həllərimiz varsa, biz innovativ ekosistemi elə bir şəraitdə yaratmalıyıq ki, özəl şirkətlər bunun ətrafında əlavə dəyər yarada bilsinlər. Sonda da bütün bunları yaratdıqdan və virtual mühitə keçdikdən sonra bizim əsas çağırışımız kibertəhlükəsizliklə bağlı olacaqdır. Bunlar fəaliyyət planının əsas fokus hissəsini mümkün edəcək 4 amil üzərində qurulmuşdur. İlkin olaraq insan kapitalı, ikincisi, mövcud infrastrukturun yenilənməsi və genişləndirilməsi, üçüncüsü, qanunvericiliyimizin müasir tələblərə uyğunlaşdırılması və dördüncüsü isə, idarəetmə proseslərinin çevik olmasıdır.

Cənab Prezident, deməli, biz bu prosesi mərhələli şəkildə görürük. Rəqəmsallaşma özü mərhələli bir prosesdir və bu gün biz dünyanın keçdiyi yolu, demək olar ki, mərhələli şəkildə keçməkdəyik. Bu, ilkin məlumatların elektronlaşdırılmasıdır. Başqa sözlə, məlumatların kağız daşıyıcılardan elektron daşıyıcılara keçirilməsidir. İkinci mərhələ xidmət və proseslərin rəqəmsallaşdırılmasıdır. Artıq burada da bir çox proseslər həm dövlət şirkətləri və eyni zamanda özəl şirkətlər tərəfindən kifayət qədər irəliləmişdir. Gedəcəyimiz son nöqtə, "ağıllı" və proyektiv xidmətlərin formalaşdırılmasıdır ki, bu da rəqəmsal transformasiyanı özündə ehtiva edir. Bütün bu istiqamətlər üzrə məhz Sizin diqqət və qayğınız nəticəsində son illərdə əsas diqqətimiz tənzimləmə çərçivəsinin qurulması və fəaliyyətimizin koordinasiyalı şəkildə aparılmasına yönəlmişdir. Bu istiqamətdə qəbul edilmiş rəqəmsal inkişaf konsepsiyası xüsusi önəm daşıyır. Bununla yanaşı, rəqəmsal inkişaf konsepsiyası qəbul edildikdən sonra təxminən 200-dən çox normativ-hüquqi aktda düzəlişlər edilmişdir və yeniləri qəbul olunmuşdur. Bununla yanaşı, infrastrukturun genişlənməsi artıq tam şəkildə təmin edilmişdir. "Onlayn Azərbaycan" layihəsi uğurla başa çatdırılmışdır. Layihə başlananda ölkədə internetin orta sürəti təxminən 12 meqabit/saniyə idisə, bu gün 90 meqabit/saniyədir. Dövlətə məxsus şirkətlərdə bu rəqəm 150 meqabit/saniyədir. İlin sonuna qədər biz bu rəqəmi 200 meqabit/saniyəyə çatdırmağı planlaşdırırıq və bu gün Azərbaycanın elə bir ucqar nöqtəsi yoxdur ki, orada genişzolaqlı internet təqdim edilməsin.

*Ardı 3-cü səh.*

# Prezidentin nəzarəti altında

## "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planı hazırlanacaq



*Əvvəli 2-ci səh.*

Ölkənin data mərkəzi, yəni "dövlət cloudu" (red. - "hökumət buludu") tam şəkildə qurulub. Ehtiyat və əsas olmaqla Bakı və Yevlax şəhərlərində biz prosesə başladıqda təxminən 50 dövlət müəssisəsi burada öz rəqəmsal ehtiyatlarını yerləşdirirdisə, artıq bu gün bu rəqəm 270-ə çatdırılmışdır. "SİMA" Biometrik İmzanın təqdim edilməsi ilə 4 milyon istifadəçi, nadir istifadəçi artıq son üç il ərzində bu imzadan istifadə edir. "SİMA"nın təqdim edilməsi dövlət xidmətləri ilə yanaşı, özəl şirkətlərin, xüsusilə də bankların işini bir xeyli asanlaşdırmışdır. Misal olaraq qeyd edim ki, bu gün bizim vətəndaşlarımız bankda hər hansı bir depozit hesabın açılması və yaxud da artırılmasını - istənilən bank əməliyyatlarını banka getmədən aplikasiyalar üzərindən tam şəkildə həyata keçirə bilirlər.

"Mygov"la bağlı Siz artıq vurğuladığınız dəstəyə görə təşəkkür edirik. "Mygov" platforması artıq yeni fəlsəfə ilə bizim istifadəçilərin xidmətinə təqdim edilmişdir. Yalnız ötən il biz təxminən 1,3 milyon yeni nadir istifadəçini "mygov"a gətirə bilmişik. Ötən ilin sonunda bu rəqəm 2,2 milyon təşkil edirdisə, bu ilin yanvar ayının sonuna bu rəqəm artıq təxminən 2,5 milyondur. İstifadəçi dedikdə biz ən azı ay ərzində bir dəfə "mygov" platformasından istifadə edən vətəndaşlarımızı nəzərdə tuturuq. İlin sonuna qədər bu rəqəmin təxminən beş milyona çatmasını planlaşdırırıq. Bunu nə mümkün etmişdir sualının cavabı, möhtərəm cənab Prezident, rəqəmsallaşmanın bir sənəd və bir qurum mərkəzli yanaşmadan həyat hadisələri yanaşmasına çevrilməsidir. Bir misal üzərində bunu diqqətinizə məruzə etmək istərdim. Biz həyat hadisələrini müəyyən etmişik. Hazırda təxminən 12 həyat hadisəsi üzərindən dövlətin vətəndaşla təmaslarını qurmaqdayıq. Bir məqamı vurğulamaq istərdim ki, əgər vətəndaşın övladı doğulurdusa, əvvəlcə o, tibb müəssisəsinə yaxınlaşır, hətta orada proseslər rəqəmsallaşmışdısa belə ondan arayışı alır, sonradan Ədliyyə Nazirliyinə o arayışı fiziki şəkildə təqdim edirdi. Ədliyyə Nazirliyi doğum şəhadətnaməsini ona verirdi. Doğum şəhadətnaməsini götürdükdən sonra, - o da rəqəmsallaşmışdı, - vətəndaş fiziki şəkildə Dövlət Sosial Müdafiə Fonduna müraciət edirdi, ona müavinət təqdim edilirdi və bununla yanaşı, o, sənədini Daxili İşlər Nazirliyinə təqdim edərək şəxsiyyət vəsiqəsi alırdı. Bu günlər nə baş verir? Bu gün baş verən proses ondan ibarətdir ki, vətəndaşın övladı doğulduqda klinika artıq bu barədə məlumatı sistemə daxil edən kimi sistem məlumatları birbaşa Ədliyyə Nazirliyinə ötürür. Ədliyyə Nazirliyi həmin sistem vasitəsilə vətəndaşı məlumatlandırır ki, siz övladınıza ad verməyi elektron şəkildə təmin edə bilərsiniz. Hətta soyad seçimi imkanları da verir. Təbii ki, əgər o soyad bizim soyadlar siyahısında varsa. Beləliklə də bu məlumat avtomatik şəkildə, artıq proaktiv şəkildə Dövlət Sosial Müdafiə Fonduna ötürülür. Müavinət vətəndaşın müraciəti olmadan müəyyən edilir, təyin edilir və onun kartına köçürülür. Beləliklə, növbəti mərhələdə şəxsiyyət vəsiqəsinin alınması da təmin edilir. Cənab Prezident, biz həmçinin digər həyat hadisələrinə münasibətdə bəzilərini artıq tamamlamışıq, bəzilərində işlər davam edir və Sizin verdiyiniz tapşırığa uyğun olaraq mən əminəm ki, koordinasiyalı şəkildə həmkar nazirliklərlə bu prosesi daha da irəlilədə biləcəyik.

Bütün bunlarla bərabər bizim qarşımızda bəlli çağırışlar var. Siz artıq onları qeyd etdiniz, bəzi dövlət qurumlarında sənədlərin hələ də kağız formatında olması, qurumdaxili fəaliyyət hesab olunması, ümumiyyətlə, rəqəmsallaşmanın bəzi hallarda prioritetləşdirilməməsi, məlumatların pərakəndə və fərdi standartlarla saxlanılması gələcəkdə bizim üçün çox vacib olan verilənlər hövzəsinin, yəni "data lake"in yaradılmasını əngəlləyən məsələlərdəndir ki, "data lake"in və verilənlər bazasının olması bizim süni intellektdən nə qədər səmərəli istifadə edib-etməyəcəyimizi müəyyənləşdirən əsas amillərdən biridir.

Digər məsələ, artıq onu da vurğuladınız. Mən bunların üzərində dayanmaq istəməzdim. Xidmətlər bir pəncərə üzərindən olmasa, yəni "mygov" olmasa, praktik şəkildə, fərdi şəkildə olan aplikasiyalar vasitəsilə biz vətəndaşla əməli münasibətlərimizi qura bilməyəcəyik.

Digər məqamları artıq Siz vurğuladığınız üçün mən onların üzərində dayanmaq istəmirəm. Müavinlərin müəyyən edilməsi çox vacib amillərdən biridir. Sadəcə, nümunə olaraq deyim ki, biz təlimlər təşkil edərkən bəzən ayrı-ayrı müavinlər iştirak edir və bunun davamlılığını biz təmin edə bilmirik. Amma bir müavinin olduğu halda biz həm süni intellekt, həm rəqəmsal inkişaf, eyni zamanda kibertəhlükəsizliklə bağlı onu dünyada gedən tendensiyalarla məlumatlandıra, biliklərlə təmin edə biləcəyik.

Möhtərəm cənab Prezident, süni intellektlə bağlı Siz artıq vurğuladığınız kimi, xarici tərəfdaşlarla təmaslarımız bizə onu deməyə əsas verir ki, ölkəmizin rəqabətli üstünlükləri var. Onlar hansılardır? Birincisi, ilk növbədə makroiqtisadi və siyasi sabitlik. Bu, data mərkəzlərinin inşası üçün aparıcı məqamlardan biridir. Digər məqam artıq Sizin bu sahəyə xüsusi diqqətiniz nəticəsində yaradılmış enerji potensialımızdır ki, bu gün süni intellektin inkişafı birbaşa enerjinin olub-olmaması ilə əlaqəlidir. Bizim daha bir üstünlüyümüz Sizin xarici siyasətiniz nəticəsində həm region dövlətləri, həm dünyanın bu sahədə aparıcı dövlətləri ilə siyasi münasibətlərimizin ən yaxşı, ən yüksək səviyyədə olmasıdır və bunun bariz nümunəsi qeyd etdiyiniz kimi, Amerika Birləşmiş Ştatlarının şirkətlərinin ölkəmizə maraq göstərməsi və bizim İsrail dövləti ilə bu yaxınlarda imzaladığımız Anlaşma Memorandumudur ki, artıq bu sənəddən irəli gələrək biz müqavilə üzərində işləməyə başlamışıq.

Digər məqam qərarvermədə dövlətimizin çevik olmasıdır. Bizim Amerikaya səfərimizdə təmaslarımız zamanı gəldiyimiz qənaət ondan ibarətdir ki, orada hər hansı bir data mərkəzinin inşası təxminən iki, üç il arasında çəkir. Amma dövlətimizdə olan çeviklik bizə imkan verəcək ki, çox qısa bir müddətdə bu data mərkəzlərini inşa edək. Bu da data mərkəzlərinin inşası üçün aparıcı amillərdən biridir və bütün bunların hamısı ilə bərabər ən başlıca amil datanın mövcudluğudur. Bu datanın mövcudluğu bizim rəqəmsallaşmanı və rəqəmsal transformasiyanı nə qədər tez keçməyimizdən bilavasitə asılı olacaq. Bununla bağlı artıq diqqətiniz və qərarınız var. Mən əminəm ki, biz bu prosesi də kifayət qədər qısa müddətdə keçə biləcəyik. Burada artıq onlar bizdən daha nələri gözləyirlər sualının cavabı bizim qanunvericilik bazamızın müasir çağırışlara uyğunlaşdırılmasıdır. Bu xüsusda mən xüsusilə "Sandbox" rejimini qeyd etmək istərdim. Bu nədir? Hər hansı bir sahədə, tutaq ki, səhiyyə, təhsil və yaxud da "fintex", maliyyə sahələrində biz dövlətin tənzimlənməsi ilə kiçik hallar üzərindən bu və ya digər həllərin, yəni aparıcı dövlətlərin həllərinin test edilməsi, sonradan ya ölkəmizdə, ya da dünyanın digər ölkələrində bunun miqyaslanması anlamına gəlir. Bütün dünya dövlətləri bundan istifadə edirlər. Bu da öz əksini fəaliyyət planında tapıb.

Burada da çağırışlar təxminən bizim rəqəmsal transformasiyada olan çağırışlarla eynidir. İnsan kapitalı. İnsan kapitalına gəldikdə, bizim miqrasiya qanunvericiliyimizin yumşaldılması və orada həm "freelancer"lərin və eyni zamanda rəqəmsal səyyahların statusunun tanınması çox önəmlidir.

Digər məsələlərin üzərində dayanıb vaxtınızı almaq istəmirəm. Onlar təxminən yenə infrastrukturla bağlı məsələlərdir. Yenə qərarvermə ilə bağlı məsələlərdir ki, artıq verdiyiniz tapşırığa uyğun olaraq, əminəm ki, biz bu prosesi də kifayət qədər səmərəli keçəcəyik.

Nəhayət, innovasiya ekosistemi artıq məruzə etdiyim kimi, fokuslanandan sonra bizim əsas məqsədimiz bütün bu həllərin bu sahədə yaranan əlavə dəyərin maksimum səviyyəyə çatdırılmasıdır. Bu sahədə artıq 2022-ci ildə Sizin və Mehriban xanımın birbaşa müdaxiləniz və nəzarətinizlə 2022-ci ildə IT sahəsində çalışan şirkətlərə xüsusi rejimin tanınması ilə bağlı qanunvericilik norması qəbul edilmişdir və bunun nəticəsi olaraq bu gün texnopark rezidenti olan şirkətlərin sayı təxminən 165-ə çatmışdır. Onlardan 10-u xarici şirkətdir və bu sahədə onlar tərəfindən yaradılan gəlir təxminən bir milyard manat çərçivəsindədir və biz hesab edirik ki, bu, bizim ölkəmizin potensialını əks etdirmir. Bizim üçün əsas göstərici bu sahədəki ixrac rəqəmimizdir. Təəssüflər olsun ki, bu sahədə bizim ixracımız təxminən 100 milyon dollar ətrafındadır. Hesab edirik ki, Fəaliyyət Planında əksini tapmış tədbirlər həyata keçirilərsə, biz həmin 100 milyonu bir milyard və ondan da yuxarı rəqəmlərə gətirib çatdıra bilərik.

Üzərində çox dayanmadan görülmüş işlər siyahısında artıq Siz vurğuladığınız kimi, istər universitetlərimizin potensialının artırılması, istərsə də xaricdə təhsil dövlət proqramı bu ekosistemin inkişafına bilavasitə təkan verən amillər sırasındadır. Son illərdə xüsusilə dəqiq elmlər və informasiya texnologiyaları sahəsinə diqqət yetirməyimiz çox yaxın gələcəkdə ekosistemə yeni işçi qüvvəsinin daxil olmasını təmin edəcəkdir. Paralel olaraq həm nazirlik və eyni zamanda digər həmkar nazirliklər, o cümlədən Elm və Təhsil Nazirliyi tərəfindən də qısamüddətli kursların təşkili təmin edilmişdir ki, Azərbaycan gəncləri - təxminən 16 minə yaxın insan bu kurslardan keçmişdir. Təlimlərin verdiyi biliklər bəlli bir nöqtəyə qədərdir. Bundan sonra biz diqqəti "Hire and Train" (red. - "İşə götür və Öyrət") Proqramı üzərində cəmləmişik, bu da xarici şirkətlərin Azərbaycana cəlb edilməsi, onlara bəlli bir podrat müqavilələrin təmin edilməsidir ki, artıq biz onların ikisi ilə işləyirik - "Anderson" və "EPAM" şirkətləri. Bunlar Amerika Birləşmiş Ştatlarının şirkətləridir. Biz "mygov"u vətəndaş və dövlət-vətəndaş münasibətlərində necə görürüksə, eyni yanaşmanı da dövlət və biznesə münasibətdə sərgiləməkdəyik. Artıq bunun qanunvericilik bazası var və "mygov biznes" yaxın aylarda bizim biznesin istifadəsi üçün təqdim ediləcək. Həmin layihəni biz "EPAM" şirkəti ilə bir yerdə həyata keçiririk və burada onların qarşısında qoyduğumuz tələb ondan ibarətdir ki, bizim onlara şərti olaraq verdiyimiz 100 dollar müqabilində onlar yerli podratı xarici 100 dollara uyğunlaşdıraraq Azərbaycana gətirirlər. Bizim əməkdaşlarımız burada işlədikləri layihələrlə yanaşı, eyni zamanda xaricdə olan layihələrdə də işləyib təcrübə qazanırlar. Buradan çıxışımızı biz necə görürük? Əgər burada çalışan təxminən 1000 nəfər və yaxud 2000 nəfər adamdan 5-i, 10-u gedib startap yaratsa və o startap uğurlu olsa, istənilən bir sahədə bu, faktiki olaraq, bizim sonda hədəflədiyimiz, həmin o 100 milyonun bir milyarda və yaxud bir neçə milyarda çatdırılması istiqamətində atılmış əsas addımlardan biri olacaq.

Möhtərəm cənab Prezident, burada bizim diqqət yetirəcəyimiz kifayət qədər məsələlər var. Mən, sadəcə, bir neçəsini artıq Sizin diqqətinizə çatdırmaq istərdim. Bizim bu gün startapların maliyyələşməsini təmin edən maliyyə mexanizmlərimiz yoxdur. Bu, istər vençur olsun, kradfandinq olsun və sair. Bununla bağlı artıq qanun layihəsi var və fəaliyyət planında da nəzərdə tutulur ki, bu qanun layihəsi yaxın bir neçə ay ərzində qəbul edilsin. Qəbul edilərsə, faktiki olaraq bu günləri bizim bazarın potensialını əks etdirməyən cəmi 12 milyon manatlıq üç fond var. Yəni 12 milyon manat sərmayə yatıran mələk investorlardır. 12 milyon digər müxtəlif səviyyədə olan startaplara da yatırılacaq investisiyalardır ki, bu, bazarın inkişafı üçün yetərli deyil. Əgər belə bir mexanizm olarsa, mən əminəm ki, həm yerli investorlar və eyni zamanda xaricdən fondları cəlb etməklə biz bazarın inkişafına kifayət qədər təkan vermiş olarıq.

İnsan kapitalı ilə bağlı artıq məruzə etdim. Həm o səyyahlarla, həm də "freelancer"lərlə bağlı burada kifayət qədər yumşalmaya və dünya praktikasında mövcud olan alətlərin tətbiqinə ehtiyac vardı. Əminəm ki, bunu da həmkarlarla müzakirə edib Sizə məruzə etdikdən sonra irəliyə doğru kifayət qədər addım atıla bilər. Burada startapların ilkin gəlirləri çox önəmlidir. Burada vacib məsələ startapın yaratdığı məhsulun bu və ya digər dövlətin özü tərəfindən nə qədər alınıb-alınmamasıdır. Burada da bəlli bir mexanizmlər var ki, tədbirlər planında öz əksini tapmışdır.

Möhtərəm cənab Prezident, kibertəhlükəsizliyin vacibliyi ilə bağlı artıq Siz bildirdiniz. Son illər tərəfinizdən informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik Strategiyası qəbul edilmişdir və bizim bütün işlər bu strategiyaya uyğun həyata keçirilməkdədir. Ötən illəri İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının işi yenidən təşkil edilmişdir və mən Sizi əmin etmək istəyirəm ki, bu komissiya çərçivəsində kibertəhlükəsizliklə bağlı ölkəmizin qarşısında duran bütün çağırışlar yaxın vaxtlarda çoxplanlı şəkildə həyata keçiriləcək. Burada iki məqamı diqqətinizə məruzə etmək istərdim ki, sahəvi SOC-ların, - buna Kibertəhlükəsizlik Əməliyyat Mərkəzi deyirlər, - yaradılması çox vacibdir. Biz bunun qanunvericilik bazasını yaratmalıyıq və eyni zamanda CERT-lərin yaradılması vacibdir. Onların da yaradılması ilə bağlı tədbirlər planında bəlli müddəalar vardır.

❖ ❖ ❖

Sonra müşavirə müzakirələrlə davam etdi.

# Azərbaycanın xarici siyasətində müsəlman ölkələri ilə əlaqələrin inkişafı prioritet istiqamətlərdən biridir

## Prezident İlham Əliyev Ərəb Parlamentinin prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 11-də Ərəb Parlamentinin prezidenti Məhəmməd Əhməd Əl-Yammahinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycanın ərəb dünyasını təmsil edən ölkələrlə siyasi, iqtisadi və digər sahələri əhatə edən sıx əlaqələrinin olduğunu deyərək, münasibətlərin genişləndirilməsində özünün ərəb ölkələrinə, ərəb dövlətlərinin liderlərinin isə Azərbaycana səfərlərinin rolunu qeyd etdi.

Dövlətimizin başçısı ölkəmizin İslam həmrəyliyinin gücləndirilməsinə verdiyi töhfələrə toxundu, bu xüsusda Bakıda keçirilən İslam Həmrəyliyi Oyunlarının əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanla Ərəb Dövlətləri Liqası arasında yüksək səviyyədə əlaqələrin qurulduğunu dedi, Məhəmməd Əhməd Əl-Yammahinin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin səmərəli olacağına əminliyini bildirdi.

Qonaq ilk növbədə dövlətimizin başçısına qəbula görə minnətdarlığını ifadə etdi.

Ərəb Parlamentinin prezidenti Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində əldə edilmiş nailiyyətlər münasibətilə təbriklərini çatdıraraq, regionda və dünyada sülhün bərqərar edilməsində Prezident İlham Əliyevin xüsusi rolunu qeyd etdi və dünyanın dövlətimizin başçısı kimi liderlərə ehtiyacı olduğunu bildirdi.

Prezident İlham Əliyev xoş sözlərə və təbriklərə görə minnətdarlığını ifadə etdi, sülhün əldə olunmasının bütövlükdə regionun inkişafı üçün mühüm əhəmiyyət daşıdığını dedi, sülh gündəliyinin irəli aparılmasında ABŞ Prezidentinin xüsusi roluna toxundu.

Qonaq ərəb dünyasının gündəliyində duran məsələlərdə, o cümlədən Fələstin məsələsində göstərdiyi qətiyyətli dəstəyə görə dövlətimizin başçısına ərəb xalqı adından dərin təşəkkürünü bildirdi.

Azərbaycanın həmişə Ərəb Dövlətləri Liqasının yekdil mövqeyinə uyğun olaraq Fələstin məsələsinin "iki dövlət" prinsipi əsasında həllini dəstəklədiyini vurğulayan Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Trampın və Misir Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Şarm-əl-Şeyxdə keçirilmiş Yaxın Şərq Sülh Sammitində iştirakını, həmçinin Azərbaycanın Sülh Şurasına dəvət edildiyini məmnunluqla xatırladı, ölkəmizin sülh prosesinə töhfə vermək əzmində olduğunu qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycanın xarici siyasətində müsəlman, o cümlədən ərəb ölkələri ilə əlaqələrin inkişafının prioritet istiqamətlərdən biri olduğunu dedi.

Söhbət əsnasında Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan bərpa və quruculuq işlərinə toxunuldu. Prezident İlham Əliyev 30 ilə yaxın davam edən işğal dövründə Ermənistan tərəfindən maddi mədəniyyət abidələrimizin, o cümlədən islam dininə aid abidələrin, məscidlərin dağıdıldığını bildirdi, hazırda onların bərpa olunduğunu qeyd etdi.

Görüşdə Azərbaycanla Ərəb Dövlətləri Liqasının qanunverici orqanı olan Ərəb Parlamenti arasında əməkdaşlığın perspektivlərinə və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıldı.

# İran İslam Respublikasının Prezidenti zati-aliləri cənab Məsud Pezeşkiana

Hörmətli cənab Prezident!

İran İslam Respublikasının milli bayramı - İslam İnqilabının Qələbəsi Günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ortaq dini-mədəni köklər və mehriban qonşuluq telləri ilə bir-birinə bağlı olan xalqlarımız və ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi bizim üçün xüsusi əhəmiyyət daşıyır. Son dövrdə Azərbaycan-İran münasibətlərinin dinamikasının artması məmnunluq doğurur.

Sizin keçən il Azərbaycana həm rəsmi, həm də işgüzar səfərləriniz dövlətlərarası münasibətlərimizin tarixində yeni səhifə açaraq qarşılıqlı faydalı əməkdaşlığımızın inkişafına təkan vermişdir.

Hazırda ikitərəfli gündəliyimizdə duran məsələlərin əhatə dairəsi genişlənir və yeni məzmunla zənginləşir. Müxtəlif səviyyələrdə səfərlərin intensiv xarakteri, imzalanan sənədlər, həyata keçirilən birgə layihələr, o cümlədən Dövlət Komissiyasının səmərəli fəaliyyəti qarşılıqlı maraq doğuran əməkdaşlığımızın dərinləşməsi üçün əlverişli imkanlar yaradır.

İnanıram ki, regionumuzun təhlükəsizliyi və rifahı naminə Azərbaycan-İran əlaqələri və əməkdaşlığı dost və qardaş xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da birgə səylərimizlə möhkəmlənməyə davam edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost və qardaş İran xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 fevral 2026-cı il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri, hörmətli cənab Prezident!

Sizin və Ermənistanın Baş nazirinin mühüm əhəmiyyətə malik nüfuzlu "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməyinizdən məmnun oldum.

Mən uzun müddət həm Cenevrədə, həm də ölkənizə səfərlərim zamanı Sizin Azərbaycan xalqının xoşbəxt, firavan, təhlükəsiz gələcəyini konkret və beynəlxalq səviyyədə tanınmış dəyərlərlə təmin etmək istiqamətində göstərdiyiniz səyləri izləmişəm.

Bir neçə il əvvəl təşəbbüs göstərərək təsis etdiyim və həmin vaxtdan etibarən rəhbəri olduğum İsveçrə-Azərbaycan Ticarət və Sənaye Palatası Azərbaycan Respublikasının iqtisadi inkişafına, Ermənistanla sülhün əldə olunmasına töhfə vermək, İsveçrə şirkətlərini azad edilmiş ərazilərin bərpası ilə bağlı genişmiqyaslı fəaliyyətlərə cəlb etmək, həmçinin müxtəlif xalqları və millətləri bir-birinə yaxınlaşdıran layihələri təşviq etməklə Cənubi Qafqaz regionunun rifahı naminə yorulmadan səy göstərir.

Ölkənizdə geniş təcrübəyə malik olan və onu İsveçrədə daha yaxından tanıtmağa çalışan palatamızın bölgədə formalaşan yeni sülh mühitinə uyğun, dayanıqlı və konkret iqtisadi təşəbbüslərin dəstəklənməsi istiqamətində əvvəlkindən daha qətiyyətlə fəaliyyət göstərdiyinə əmin ola bilərsiniz.

Cənab Prezident, sülhə nail olan Zati-alinizə səmimi təbriklərimi çatdırır, Azərbaycanı və bütün Cənubi Qafqazı dünyanın ən sabit və inkişaf edən bölgəsinə çevirmək yolunda möhtəşəm fəaliyyətinizdə Sizə uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Klaud HEQİ,***
***İsveçrə-Azərbaycan Ticarət və Sənaye Palatasının prezidenti***

Zati-aliləri, hörmətli cənab Prezident!

Sizin liderliyiniz və yorulmaz səyləriniz Cənubi Qafqaz regionunda sülhə, sabitliyə və barışığa mühüm töhfələr vermişdir.

Buna görə də Siz və Ermənistanın Baş naziri nüfuzlu "Zayed İnsan Qardaşlığı Mükafatı" ilə təltif olunmusunuz.

Mən münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq həllini dəstəkləmək üçün əlindən gələni edən bir şəxs kimi, sülh yolunda mühüm səylərinizin və nailiyyətlərinizin yüksək qiymətləndirilməsinə görə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Bu təltifin hər iki ölkənin xalqları üçün regionda mehriban qonşuluq münasibətlərinin qurulması və davamlı inkişaf baxımından bir təşviq olmasını arzulayıram.

*Hörmətlə,*

***Rene van der LİNDEN,***
***Niderland Krallığı Senatının sabiq sədri***

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli və "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 23 fevral tarixli 1256 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq,"Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 239-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə "Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, №2 (II kitab), maddə 259 (Cild I); 2024, №2, maddələr 151, 157, №7, maddələr 806, 812, 814, 815, №8, maddələr 937, 948, №12 (I kitab), maddə1294, (II kitab), maddələr 1359, 1378, 1384; 2025, №2, maddə 127, №3, maddə 231, №4 (I kitab), maddələr 325, 338, №5, maddə 463, №6, maddələr 541, 561, №7, maddə 649, №8, maddələr 746, 754, №9, maddə 820, № 11, maddə 1018; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 yanvar tarixli 588 nömrəli və 28 yanvar tarixli 593 nömrəli fərmanları) 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5.48-ci bənddə "(bələdiyyə orqanlarına)" sözləri", bələdiyyə orqanlarına" sözləri ilə əvəz edilsin;

1.2. 5.50-ci bənd aşağıdakı redaksiyada verilsin:

"5.50. həmin Məcəllənin 432.4-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə fiziki şəxslərə, habelə bələdiyyələrə, bələdiyyə orqanlarına və dini qurumlar istisna olmaqla digər qeyri-kommersiya qurumlarına münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, banklara və digər ödəniş xidməti təchizatçılarına münasibətdə Azərbaycan Respublikasının Mərkəzi Bankı, digər kommersiya hüquqi şəxslərinə və publik hüquqi şəxslərə münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi baxır;";

1.3. aşağıdakı məzmunda 5.50-2-ci bənd əlavə edilsin:

"5.50-2. həmin Məcəllənin 432-1.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə qeyri-hökumət təşkilatlarına münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, banklara və digər ödəniş xidməti təchizatçılarına münasibətdə Azərbaycan Respublikasının Mərkəzi Bankı baxır;";

1.4. 5.68-ci bəndə "Məcəllənin" sözündən sonra "432-1.1-ci, 432-1.2-ci və" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, №2, maddə 200 (CildI); 2024, №2, maddə157, № 6 (I kitab), maddə 649, № 7, maddələr 806, 812, 814, №8, maddə 948, №12 (I kitab), maddələr 1294, 1295, (II kitab), maddə 1378; 2025, №2, maddə 127, №4 (I kitab), maddə 325, №5, maddə 463, №8, maddə 746, № 9, maddə 820; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 28 yanvar tarixli 593 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.1-ci bəndə "432.1" rəqəmlərindən sonra "və 432.4" sözləri əlavə olunsun və həmin bənddə "(bələdiyyə orqanlarına)" sözləri ", bələdiyyə orqanlarına" sözləri ilə, "432.4 (qeyri-hökumət təşkilatlarına, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinə" sözləri "432-1.1, 432-1.2, 432-1.3 (qeyri-hökumət təşkilatlarına" sözləri ilə əvəz edilsin;

2.2. 15.0-cı bəndə "432.4" rəqəmlərindən sonra "və 432-1.3" sözləri, "banklara" sözündən sonra "və digər ödəniş xidməti təchizatçılarına" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 fevral 2026-cı il*

# Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Cey. Di. Vens Şəhidlər xiyabanını ziyarət edib

**Azərbaycanda səfərdə olan Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Cey. Di. Vens və xanımı Uşa Vens fevralın 11-də Şəhidlər xiyabanını ziyarət ediblər.**



AZƏRTAC xəbər verir ki, vitse-prezident Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla anıb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

# Azərbaycan ilə ərəb ölkələri arasındakı münasibətlər müzakirə olunub

**Fevralın 11-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Ərəb Parlamentinin prezidenti Məhəmməd Əhməd Əl-Yammahinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycanın ərəb ölkələri və ümumilikdə Ərəb Liqası və Ərəb Parlamenti ilə münasibətləri, Yaxın Şərqdə və bölgəmizdə regional təhlükəsizlik vəziyyəti, İsrail-Fələstin münaqişəsi, habelə Azərbaycanla Ermənistan arasında sülh prosesi müzakirə olunub.

Görüş zamanı ölkəmizin xarici siyasətində müsəlman, o cümlədən ərəb ölkələri ilə əlaqələrin inkişafının prioritet istiqamətlərdən biri olduğu vurğulanıb. Azərbaycanın hər zaman bölgədə sabitliyin, təhlükəsizliyin və sülhün təmin olunması istiqamətində çalışdığı, münaqişələrin və müharibələrin qarşısının alınması istiqamətində səylərin artırılmasının vacibliyi qeyd olunub.

Qəzza bölgəsindəki mövcud vəziyyətin aradan qaldırılması istiqamətində səylərin əhəmiyyətinə dair həmrəylik ifadə olunub. Fələstin məsələsi kontekstində ölkəmiz tərəfindən "iki dövlət" prinsipinin rəhbər tutularaq, beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun həll variantının dəstəkləndiyi bir daha diqqətə çatdırılıb. Bununla yanaşı, ölkəmizin son illərdə həyata keçirdiyi vasitəçilik səylərinin əhəmiyyəti vurğulanıb.

Nazir Ceyhun Bayramov keçmiş münaqişə, Azərbaycan-Ermənistan sülh prosesi, postmünaqişə dövründə işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və yenidənqurma işləri barədə ətraflı məlumat verib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Ərəb dünyası Azərbaycanla münasibətlərin inkişafına böyük əhəmiyyət verir





**Milli Məclisin Sədri Sahibə Qafarova fevralın 11-də ölkəmizdə rəsmi səfərdə olan Ərəb Parlamentinin prezidenti Məhəmməd Əhməd Əl-Yammahi ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Ərəb Parlamentinin prezidentinin ölkəmizə ilk rəsmi səfəri yüksək qiymətləndirilib, bu səfərin iki qurum arasında münasibətlərin daha da inkişafına, əməkdaşlıq imkanlarının genişlənməsinə və əlaqələrin dərinləşməsinə mühüm töhfə verəcəyinə dair əminlik ifadə olunub. Sahibə Qafarova qonaqla müxtəlif beynəlxalq tədbirlər çərçivəsində keçirilmiş görüşləri, o cümlədən ötən ilin noyabrında Qahirədə baş tutmuş ikitərəfli görüşü və bu ilin yanvarında Əbu-Dabidə Aralıq Dənizi Parlament Assambleyasının Qadın Parlament Forumunun 2-ci sessiyasında birgə iştiraklarını məmnunluqla xatırladıb.

Söhbətdə Azərbaycan ilə ərəb ölkələri arasında münasibətlərin ortaq tarix, dini-mənəvi dəyərlər və qarşılıqlı hörmət prinsipləri əsasında uğurla inkişaf etdiyi qeyd olunub. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin bu ölkələrlə münasibətlərin inkişafına böyük diqqət yetirdiyi vurğulanaraq, bu gün həmin siyasətin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi bildirilib. İkitərəfli çərçivədə ərəb ölkələri ilə qarşılıqlı səfərlərin intensiv xarakter daşıdığı, mütəmadi təmasların, aparılan danışıqların və əldə olunan nəticələrin əlaqələrin inkişafına mühüm töhfə verdiyi xüsusi vurğulanıb.

Görüşdə Azərbaycanın islam dininin təbliği, islam həmrəyliyinin möhkəmləndirilməsi və islamofobiyaya qarşı mübarizə istiqamətində ciddi səylər göstərdiyi qeyd olunaraq, bu sahədə ölkəmiz tərəfindən irəli sürülmüş mühüm təşəbbüslər vurğulanıb. Birgə təmsil olunduğumuz İslam Əməkdaşlıq Təşkilatında qarşılıqlı dəstək və həmrəyliyin nümayiş etdirildiyini deyən Milli Məclisin Sədri bu platformada əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyinə əminliyini bildirib. Eyni zamanda Azərbaycan ilə Ərəb Dövlətləri Liqası arasında iyirmi ildir olan səmərəli əməkdaşlıq münasibətlərinə toxunularaq, Prezident İlham Əliyevin 2022-ci ildə Liqanın Zirvə görüşündə xüsusi qonaq qismində iştirak etdiyi diqqətə çatdırılıb.

Ərəb ölkələri ilə münasibətlərin dərinləşdirilməsinə və əlaqələrin parlament xətti ilə inkişaf etdirilməsinə xüsusi diqqət yetirildiyini deyən spiker Sahibə Qafarova qeyd edib ki, Milli Məclisdə ərəb ölkələri parlamentlərinin əksəriyyəti ilə işçi qruplar fəaliyyət göstərir və qarşılıqlı səfərlər, görüşlər həyata keçirilir, əməkdaşlığa dair anlaşma memorandumları imzalanır, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək və həmrəylik nümayiş etdirilir.

Söhbət zamanı Prezident İlham Əliyevin təşəbbüsü ilə təsis olunmuş və hazırda Azərbaycanın sədrliyi ilə fəaliyyət göstərən Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi (QHPŞ) ilə Ərəb Parlamenti arasında əlaqələrin son illərdə dinamik şəkildə inkişafından məmnunluq ifadə olunub. Parlamentin spikeri 2023-cü ilin fevralında Qahirəyə səfəri çərçivəsində Ərəb Parlamentinin mənzil-qərargahını ziyarət etdiyini xatırladıb, həmin səfər zamanı imzalanmış əməkdaşlığa dair Anlaşma Memorandumunun əhəmiyyətini vurğulayıb. Həmçinin həmin il Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Ərəb Parlamenti yanında müşahidəçi statusu əldə etməsinin əməkdaşlığa yeni imkanlar yaratdığı qeyd edilib.

Göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən Ərəb Parlamentinin Prezidenti Məhəmməd Əhməd Əl-Yammahi Azərbaycana rəsmi səfərindən məmnunluğunu ifadə edib. Prezident İlham Əliyevlə keçirdiyi görüş barədə təəssüratlarını bölüşən qonaq dövlətimizin başçısının Cənubi Qafqazda sülh və əmin-amanlığın bərqərar olunması istiqamətində apardığı yorulmaz fəaliyyətini yüksək qiymətləndirib. Ərəb dünyasının Azərbaycanla münasibətlərə böyük əhəmiyyət verdiyini vurğulayan Məhəmməd Əhməd Əl-Yammahi ticarət, enerji və logistika kimi strateji sahələrdə tərəfdaşlığın dərinləşdirilməsində maraqlı olduqlarını qeyd edib. Ərəb Parlamentinin prezidenti eyni zamanda ərəb dünyasının gündəliyində duran məsələlərdə, xüsusilə Fələstin probleminə münasibətdə göstərdiyi qətiyyətli dəstəyə görə Azərbaycana təşəkkürünü bildirib.

Parlamentlərimiz arasındakı münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu deyən qonaq rəhbərlik etdiyi qurumun Milli Məclis, eləcə də Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə yaratdığı əməkdaşlığın və dialoqun parlamentlərarası əlaqələrin genişləndirilməsi üçün möhkəm zəmin olduğunu vurğulayıb. O, Milli Məclis Sədrinin Parlament Şəbəkəsinin işinin səmərəli təşkilindəki rolunu yüksək qiymətləndirib və parlamentləri bir araya gətirən bu mühüm platformanın qlobal məsələlərin müzakirəsi baxımından önəmini qeyd edib. Məhəmməd Əhməd Əl-Yammahi həmçinin Milli Məclisin Sədrini Ərəb Parlamentinin plenar sessiyasında iştirak və çıxış etməyə dəvət edib.

Görüşdə qonağa Azərbaycan Respublikasının keçdiyi tarixi yol, həmçinin Milli Məclis haqqında məlumat verilib. Parlamentin spikeri Azərbaycan parlamentinin strukturu və fəaliyyəti barədə məlumat verərək siyasi partiyaların və qadınların parlamentdə təmsilçiliyindən, eləcə də parlamentə son seçkilərin keçirilməsindən bəhs edib və parlamentin hazırkı çağırışının Azərbaycanın bütün suveren ərazisində keçirilən seçkilərdən sonra formalaşdığını diqqətə çatdırıb.

Görüşdən sonra qonaq Milli Məclisin Xatirə kitabını imzalayıb.

Məhəmməd Əhməd Əl-Yammahinin başçılıq etdiyi nümayəndə heyəti parlamentin plenar iclas zalı və Milli Məclisin foyesində yaradılmış 44 günlük Vətən müharibəsinə həsr edilmiş "Zəfər guşəsi" ilə tanış olub.

*"Azərbaycan"*

# Ərəb Parlamentinin prezidenti Fəxri xiyabanı və Zəfər parkını ziyarət edib





**Ölkəmizdə rəsmi səfərdə olan Ərəb Parlamentinin prezidenti Məhəmməd Əhməd Əl-Yammahinin başçılıq etdiyi nümayəndə heyəti fevralın 11-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub, tər çiçəklər düzüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində nümayəndə heyəti Bakıda Zəfər parkını ziyarət edərək abidə önünə əklil qoyub. Qonaqlara Azərbaycan xalqının Vətən müharibəsində qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə məlumat verilib.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclisin Sədr müavini Musa Qasımlı və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# Bakı və Əbu-Dabi arasında Anlaşma Memorandumu imzalanıb

**Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) paytaxtı Əbu-Dabinin Bələdiyyələr və Nəqliyyat Departamentinin sədri Məhəmməd Əli Əl-Şorafanın rəhbərliyi ilə nümayəndə heyəti Bakıda səfərdədir.**



Fevralın 11-də nümayəndə heyəti Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovla görüşüb. Görüşdə Eldar Əzizov qeyd edib ki, bu gün ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin yüksək səviyyədə olması hər iki dövlətin rəhbərlərinin fəaliyyətinin nəticəsidir. Eldar Əzizov fevral ayının 4-də Prezident İlham Əliyevin BƏƏ-yə işgüzar səfəri zamanı ona "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdim olunmasını ölkə başçısının uğurlu siyasətinə verilən yüksək qiymət olduğunu bildirib. Bütün bunlar öz növbəsində paytaxt Bakı və Əbu-Dabi şəhərləri arasında səmərəli əməkdaşlıq qurmağa zəmin yaradır.

Bakı haqqında məlumat verən Eldar Əzizov bildirdi ki, cənab İlham Əliyevin siyasəti nəticəsində bu gün Bakı şəhəri keyfiyyətcə yeni səviyyəyə yüksəlib və bu proses uğurla davam edir.

Azərbaycan və BƏƏ arasında uzun illərdən bəri davam edən dostluq münasibətlərinə toxunan Məhəmməd Əli Əl-Şorafa qeyd edib ki, ölkəsində Azərbaycanla əlaqələrə xüsusi önəm verilir: "Bu mənim şəhərinizə ilk səfərimdir və gördüklərimi nəzərə alaraq sonuncu olmadığına əminəm". Bakı şəhərinin sürətli inkişafını, şəhər idarəçiliyinin effektivliyini xüsusilə qeyd edən qonaq iki paytaxt şəhərin biri-birindən çox şeyi öyrənəcəklərinə ümidvar olduğunu bildirib.

Sonra Bakı şəhəri və Əbu-Dabi şəhəri arasında qardaşlaşma münasibətlərinin yaradılması haqqında Anlaşma Memorandumu imzalanıb. Eldar Əzizov qonağa şanlı zəfərimizə həsr olunan və artıq 11 dildə çap edilən "Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru" kitabının ərəb dilində nəşrini təqdim edib.

*"Azərbaycan"*

## Qusar şəhər Uşaq İncəsənət Məktəbinə Azərbaycanın Xalq artisti Elza İbrahimovanın adının verilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 41** **Bakı şəhəri, 9 fevral 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycanın Xalq artisti Elza İbrahimovanın xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Qusar şəhər Uşaq İncəsənət Məktəbinə Azərbaycanın Xalq artisti Elza İbrahimovanın adı verilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Qusar Rayon İcra Hakimiyyəti bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Ağdaş rayonu Kotanarx kənd tam orta ümumtəhsil məktəbinə Azərbaycanın Xalq şairi Fikrət Qocanın adının verilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 42** **Bakı şəhəri, 9 fevral 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycanın Xalq şairi Fikrət Qocanın xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Ağdaş rayonu Kotanarx kənd tam orta ümumtəhsil məktəbinə Azərbaycanın Xalq şairi Fikrət Qocanın adı verilsin.

2. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Ağdaş Rayon İcra Hakimiyyəti bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 oktyabr tarixli 319 nömrəli Qərarı ilə təsdiq edilmiş "Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydaları"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 43** **Bakı şəhəri, 9 fevral 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 252-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 oktyabr tarixli 319 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1233 (Cild I); 2024, № 1, maddə 111, № 2, maddə 197; 2025, № 9, maddələr 858, 876) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 3.7-1-ci bənd əlavə edilsin:

"3.7-1. Hüquqların dövlət qeydiyyatına alınması üçün təqdim edilən sənədlərlə torpağın kateqoriyası (məqsədli təyinatı) dövlət torpaq kadastrında saxlanılan məlumatlara uyğun gəlmədikdə qeydiyyat orqanının vəzifəli şəxsləri tərəfindən 15 (on beş) iş günü müddətində yerquruluşu sənədlərinin təhlili yolu ilə araşdırma aparılır. Araşdırmanın nəticəsinə əsasən təqdim edilən sənədlərdə göstərilən məlumatların doğruluğu təsdiq edildikdə, əmlak üzərində hüquqlar dövlət qeydiyyatına alınır və dövlət torpaq kadastrında müvafiq düzəlişlər edilir.".

2. 6.1-ci bənddə "15.1.1-15.1.6-cı" sözləri "15.1.1-15.1.7-ci" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycanın xarici siyasətinin uğurları

**Həyata keçirdiyi düşünülmüş və uzaqgörən inkişaf strategiyası ilə Azərbaycanı regionun aparıcı gücünə, dünyanın nüfuzlu dövlətlərindən birinə çevirən Prezident İlham Əliyev eyni zamanda Cənubi Qafqazda sülh və sabitliyin əsas memarı kimi çıxış edir.**

Onun ədalətə, beynəlxalq hüquqa və qarşılıqlı hörmət prinsiplərinə söykənən siyasəti artıq qlobal miqyasda qəbul olunur və yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, bu siyasi kurs dünyanın aparıcı gücü olan Amerika Birləşmiş Ştatları tərəfindən də açıq şəkildə dəstəklənir.

Dövlət başçısının məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycan tarixinin hər yeni mərhələsi daha parlaq uğurlarla zənginləşir, milli salnaməmizə mühüm hadisələr yazılır. Fevralın 10-da Bakıda imzalanan "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası" bu baxımdan xüsusi əhəmiyyət kəsb edən tarixi hadisə kimi yadda qaldı. Bu sənəd yalnız iki ölkə arasında münasibətlərin yeni mərhələyə yüksəlməsi deyil, həm də regionun gələcək taleyinə təsir göstərə biləcək mühüm siyasi hadisədir.



## Cey.Di.VENS: "Prezident Əliyev həqiqətən böyük təşəkkürə layiqdir"

### Liderlik nümunəsi

ABŞ-Azərbaycan münasibətlərinin ən yüksək səviyyəyə çatması, dinamik inkişaf xətti üzrə irəliləməsi və yeni hədəflərə doğru istiqamətlənməsi təkcə ölkəmiz üçün deyil, bütövlükdə Cənubi Qafqazda sabitliyin möhkəmlənməsi baxımından vacib əhəmiyyət daşıyır. Bu reallıq isə Prezident İlham Əliyevin humanist dəyərlərə əsaslanan, sülhü təşviq edən və ədaləti prioritet sayan siyasətinin nəticəsidir. Prezident İlham Əliyevin liderliyi ilə yürüdülən bu düzgün siyasi xətt beynəlxalq aləmdə də yüksək rəğbətlə qarşılanır.

Fevralın 10-da Prezident İlham Əliyev və ABŞ-nin vitse-prezidenti Cey.Di.Vens mətbuata bəyanatlarla çıxış edərkən Ağ Evin təmsilçisinin səsləndirdiyi fikirlər bunun bariz göstəricisi oldu: "Hazırda sülh sazişi baxımından düşünürəm ki, Prezident Əliyev həqiqətən böyük təşəkkürə layiqdir... ...Düşünürəm ki, gələcəkdə bir vaxtlar yalnız mübarizə və münaqişə olan yerdə əmin-amanlıq yaranacaq. Bu, Prezident Əliyevin liderliyinin və rəhbərliyinin bariz nümunəsidir".

ABŞ rəsmisinin bu sözləri Azərbaycan Prezidentinin sülh prosesində oynadığı rola verilən açıq və yüksək qiymət kimi diqqət çəkdi.

Ümumiyyətlə, ölkəmizdə rəsmi səfərdə olan vitse-prezident Cey.Di.Vens Prezident İlham Əliyevin şəxsi liderlik keyfiyyətlərini dəfələrlə vurğuladı: "Enişdən əvvəl işçilərimə deyirdim ki, Prezident Tramp kimi Prezident Əliyev də dünyada türklər və israillilər ilə həqiqətən yaxşı münasibətlərə malikdir...

...Ölkə başçısı həqiqətən cəlbedici şəxsdir. Mən təsdiqləyə bilərəm ki, o, çox cəlbedicidir".

Təkcə Cey.Di.Vens deyil, nüfuzlu dünya liderlərinin əksəriyyəti Prezident İlham Əliyev haqqında hər zaman yüksək fikirlər səsləndirirlər. ABŞ kimi nəhəng ölkəyə rəhbərlik edən Donald Trampın şəxsən Prezident İlham Əliyevə olan səmimi dostluq münasibəti və onun barəsində yüksək fikirdə olması da bu mənada xüsusilə diqqətçəkəndir.

Ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycan-Ermənistan sülh sazişinin mətni paraflanarkən ABŞ Prezidenti Donald Trampın ölkəmizin rəhbərinə xitabən səsləndirdiyi, "Siz güclü və ağıllı insansınız" fikirləri də bunun təsdiqidir.

Donald Trampın Prezident İlham Əliyevə nümayiş etdirdiyi xüsusi rəğbət və səmimi münasibət Azərbaycan liderinin beynəlxalq nüfuzunun göstəricisidir. Ümumiyyətlə, Vaşinqtona səfər zamanı yüksəksəviyyəli qarşılanma, səmimi dialoqlar, keçirilən görüşlər və Ağ Evin rəmzi açarının təqdim olunması dövlətimizin başçısına olan qlobal ehtiramın təzahürü idi.

### Sülh naminə

ABŞ Prezidentinin Bakının sülh təşəbbüslərini dəstəkləməsi, regionda normallaşma prosesinə verdiyi töhfə də mühüm məqamdır. Keçən il iyulun 19-da Xankəndidə keçirilən III Şuşa Qlobal Media Forumunda Prezident İlham Əliyev Donald Trampın beynəlxalq təhlükəsizlik məsələlərinə xüsusi önəm verməsi ilə yanaşı, Cənubi Qafqazdakı vəziyyəti də diqqətdə saxladığını vurğulamışdı. ABŞ liderinin həmin çıxışı özünün "Truth" sosial şəbəkə hesabında paylaşması isə bu münasibətlərin səmimiliyini və qarşılıqlı hörməti bir daha təsdiqlədi.

Prezident İlham Əliyevin Donald Trampın rəsmi dəvəti ilə Vaşinqtona səfəri həm ikitərəfli əlaqələrin dərinləşdirilməsi, həm də regionda dayanıqlı sülhün təmin olunması baxımından mühüm siyasi hadisə kimi qiymətləndirildi.

Bu gün Cənubi Qafqazda silahların susması, qarşıdurmanın aradan qalxması, əməkdaşlıq imkanlarının yaranması məhz Azərbaycan liderinin qətiyyətli və prinsipial siyasətinin nəticəsidir. Keçən il sentyabrın 23-də Nyu Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində keçirilən rəsmi qəbul zamanı Donald Tramp Prezident İlham Əliyev barədə dedi: "Mən Sizinlə həqiqətən fəxr edirəm. Siz çox gözəl insansınız".

Dünyanın aparıcı dövlətinə rəhbərlik edən bir şəxsin bu cür səmimi və yüksək fikirlər səsləndirməsi, şübhəsiz ki, həm İlham Əliyev şəxsiyyətinə olan ehtiramın, həm də onun qlobal sülh naminə atdığı addımların beynəlxalq miqyasda qəbulunun göstəricisidir.

Bakıda Prezident İlham Əliyevin ABŞ-nin vitse-prezidenti Cey.Di.Vens ilə geniş tərkibdə görüşündə Ağ Ev təmsilçisinin, "Prezidentimiz Sizə öz salamlarını, xoş arzularını çatdırır və tərəfdaşlığınız üçün Sizə minnətdardır. Azərbaycan və Ermənistan arasında Prezident Trampın vasitəçilik etdiyi sülh razılaşması düşünürəm ki, onun vasitəçiliyi ilə olan yeddinci və ya səkkizinci sülh razılaşmasıdır.

… Bilirəm ki, o, aranızdakı tərəfdaşlığa və dostluğa, rəhbər heyətlər və administrasiyalarımız arasında münasibətlərə görə çox minnətdardır", - deməsi də bunu təsdiqləyir.

Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətli inkişaf yolu keçərək milli maraqlarını qətiyyətlə təmin edən, müstəqil və balanslaşdırılmış siyasət yürüdən nüfuzlu dövlətə çevrilib. Bu gün ölkəmiz beynəlxalq enerji və nəqliyyat xəritəsində mühüm mərkəz kimi çıxış edir, Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən strateji dəhlizlərin əsas təşəbbüskarlarından biri kimi tanınır.

Azərbaycanın səyləri ilə regionda formalaşan yeni reallıqlar, suverenliyin tam bərpası və beynəlxalq hüququn təmin olunması faktı dünya ictimaiyyəti tərəfindən qəbul edilir. Bununla yanaşı, Prezident İlham Əliyevin sözü ilə imzasının eyni dərəcədə etibarlı olan siyasi lider kimi tanınması ölkəmizin rəhbərinə qlobal ehtiramı artırır. Bütün bu faktlar bir daha göstərir ki, Prezident İlham Əliyev təkcə regionun deyil, daha geniş coğrafiyanın siyasi proseslərinə təsir edən, qlobal miqyasda söz sahibi olan liderdir. Onun liderlik portreti güclü dövlətçilik iradəsi, strateji baxış və sülhə sadiqlik üzərində formalaşıb.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# Vensin Azərbaycana səfəri iki ölkə arasındakı münasibətlərə müsbət impuls verəcək

Ötən ilin bu günlərində Münxen Təhlükəsizlik Konfransında "Avropa özünün yaratdığı böhranla üz-üzədir" deyən ABŞ vitse-prezidenti Ceyms Devid Vens bu günlərdə regionumuza səfər etdi. Səfər planına əsasən, Ermənistanda 9-10 fevral, Azərbaycanda 10-11 fevral tarixlərində rəsmi səfərdə olan Vensin hansı məsələlərlə bağlı iş aparacağını ABŞ Prezidenti Donald Tramp özünün "Truth" sosial şəbəkəsində qısaca bildirmişdi.



Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycanla hərbi və təhlükəsizlik sahəsində əməkdaşlığın müzakirəsi, bu sahədə ABŞ-dən satın alınacaq məhsullar, qarşılıqlı faydalı ticarət barədə müzakirələrin aparılması nəzərdə tutulur: "Vensin gəlişi öncəsi Prezident İlham Əliyev ABŞ Ticarət Palatasının nümayəndələri ilə görüşüb. Qeyd edim ki, ABŞ ilə Azərbaycan arasında strateji tərəfdaşlıq 3 istiqaməti əhatə edəcək: enerji, ticarət və tranzitin də daxil olduğu regional bağlantılar; süni intelekt və rəqəmsal infrasturukturun da daxil olduğu iqtisadi sərmayə; müdafiə sahəsində satış, terrorizmə qarşı mübarizədə əməkdaşlığın da daxil olduğu təhlükəsizlik sahəsində əməkdaşlıq".

Deputat qeyd edib ki, yaradılan Strateji İşçi Qrupu regional bağlantılar infrastrukturunun və enerji sahəsində sərmayələrin genişləndirilməsi, eləcə də regional iqtisadi-ticari əməkdaşlığın irəlilədilməsi, həmçinin süni intellektin inkişafı kimi məsələlərdə əməkdaşlığın inkişafı üzrə çalışır. Bu isə ABŞ texnologiyasının və sərmayəsinin ölkəmizə gəlməsi deməkdir.

P.Vəliyeva vurğulayıb ki, TRIPP yolunun işlək hala gətirilməsi üçün növbəti addımlar üzrə müzakirənin aparılması səfər proqramının tərkib hissəsidir: "Yanvarın 14-də Ağ Evdə, Ermənistan XİN rəhbəri Ararat Mirzoyan və ABŞ Dövlət katibi Marko Rubio arasında imzalanmış TRIPP İcra Çərçivəsi (TIF) adlı sənəddə bir çox məqama aydınlıq gətirilmişdi. Belə ki, bu sənəd bir daha Vaşinqton razılaşmalarına istinadən Naxçıvanın Azərbaycanın əsas hissəsi ilə maneəsiz keçidinin təmin edilməsini açıq və dəqiq şəkildə ifadə etmişdi. TRIPP Şərq-Qərb istiqamətində əsas nəqliyyat yoluna çevrilmək potensialına malikdir. Marşrutun investisiyalar, ticarət məkanına çevrilməsi hədəflənir. ABŞ coğrafi cəhətdən regionumuza uzaq olsa da, müasir dövrün ticarət və bağlantılar anlayışı bu stereotipi qırır. Bu gün artıq virtual bağlantılar da gündəmdədir. TRIPP çərçivə sənədində qeyd olunduğu kimi, Zəngəzur dəhlizi vasitəsilə xam materiallar, kritik minerallar, Yer kürəsində nadir tapılan metallar Amerika bazarlarına çıxarılacaq. Bu, beynəlxalq layihədir, təkcə Azərbaycanın və ya Ermənistanın gündəliyi deyil, marşrutdan Çindən Avropayadək, hətta ABŞ-dək uzanan bütün coğrafiyada olan ölkələr faydalanacaqlar".

ABŞ administrasiyasının bölgədə yaranmış sülhü alqışladığını deyən deputat əlavə edib ki, tərəfdaşlıqların inkişafına təkan vermək məqsədilə vitse-prezident Ceyms Devid Vensi öz elçisi kimi Vaşinqton Sülh Sammitindən sonra ilk dəfə olaraq regiona göndərir. ABŞ liderinin Prezident İlham Əliyevə xüsusi ehtiramı var və onun apardığı uğurlu siyasətə böyük heyrətamizliklə yanaşır, onu ağıllı lider adlandırır. "Donald Trampın cənab Prezident İlham Əliyevi Yaxın Şərq Sülh Sammitinə şəxsən dəvət etməsi, Azərbaycanın Sülh Şurasına təsisçi ölkə kimi seçilməsi bir daha göstərir ki, Prezident Donald Tramp Azərbaycan xalqına, onun liderinə xüsusi rəğbət bəsləyir və onu yaxın tərəfdaşı kimi qəbul edir. Bu isə ABŞ ilə strateji tərəfdaşlığın daha da inkişafında özünü göstərir", - deyə P.Vəliyeva bildirib.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# "ABŞ vitse-prezidentinin Azərbaycana və Ermənistana səfəri regionun inkişafına müsbət təsir göstərəcək"

**"ABŞ vitse-prezidentinin Azərbaycan və Ermənistana səfəri və imzalanan sənədlər regionun inkişafına müsbət təsir göstərəcək. Bu, ABŞ-nin Cənubi Qafqaza qayıdışını və burada öz maraqlarını aktiv şəkildə inkişaf etdirmək niyyətini açıq şəkildə nümayiş etdirir".**



Bu sözləri AZƏRTAC-a müsahibəsində gürcü politoloq Levan Mamaladze söyləyib.

Onun sözlərinə görə, Gürcüstan Cənubi Qafqazda ABŞ-nin fəallaşmasını, sülhün əldə olunmasını və sülh prosesinin artıq iqtisadi nəticələrə keçməsini birmənalı olaraq müsbət qiymətləndirir.

Politoloqun fikrincə, dünya dəyişir. Prezident Donald Trampın hakimiyyətə gəlişindən sonra qlobal miqyasda ciddi dəyişikliklər baş verir. İllərdir həllini tapmayan məsələlər indi ABŞ-nin Ermənistan və Azərbaycanla imzaladığı sənədlərlə hüquqi müstəviyə keçirilir. Biz bunu yalnız alqışlaya bilərik.

"Biz hamımız şahid olduq ki, ABŞ-nin təşəbbüsü ilə Azərbaycan və Ermənistan arasında sülh sazişinin əldə olunması prosesində irəliyə doğru addım atıldı. Azərbaycan və Ermənistan Zəngəzur dəhlizinin Cənubi Qafqazın rifahı naminə istifadə olunacağına dair ortaq mövqeyə gəliblər və bu məsələ ilə bağlı suverenlik, ərazi iddiaları kimi suallar gündəmdən çıxıb. Bu təminatları da Vaşinqton öz üzərinə götürüb", - deyə L.Mamaladze vurğulayıb.

# Azərbaycan ABŞ ilə kosmik sənayedə də əməkdaşlıq edəcək

## Bu, iki ölkə arasında imzalanmış xartiyada öz əksini tapıb

**XXI əsr elm, texnologiya və kosmos əsridir. İndi dövlətlərin gücü təkcə təbii sərvətlərlə deyil, həm də yüksək texnologiyalara yiyələnmə səviyyəsi ilə ölçülür. Kosmik sənaye isə bu sahədə ən strateji istiqamətlərdəndir. Peyk texnologiyaları rabitə, televiziya yayımı, internet, meteorologiya, naviqasiya, yerin məsafədən müşahidəsi və milli təhlükəsizlik kimi mühüm sahələrdə həlledici rol oynayır. Məhz bu baxımdan Azərbaycanın kosmik sənayeyə daxil olması ölkənin texnoloji inkişaf tarixində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər.**

Azərbaycanda kosmik sənayenin əsası 2010-cu ildə "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin (ASC) yaradılması ilə qoyuldu. Bu addım dövlət səviyyəsində kosmik fəaliyyətin sistemli və strateji şəkildə həyata keçirilməsinə imkan verdi. "Azərkosmos"un yaradılması ölkənin uzunmüddətli inkişaf strategiyasında informasiya-kommunikasiya texnologiyalarına və innovasiyaya verilən önəmin göstəricisi idi. Bu istiqmətdə qısa müddət ərzində həyata keçirilən layihələr göstərdi ki, məqsəd texnoloji uğurlarla birgə regional və qlobal bazarda mövqe tutmaqdır.

Məhz bu strateji yanaşmanın real nəticəsi kimi Azərbaycan qısa müddət ərzində kosmik sənaye sahəsində birinci böyük uğurunu əldə etdi. Dövlətin məqsədyönlü siyasəti və beynəlxalq tərəfdaşlıq çərçivəsində həyata keçirilən hazırlıq işləri ölkənin milli peyk layihəsinin reallaşmasına zəmin yaratdı. 2013-cü ildə Azərbaycanın ilk telekommunikasiya peyki "Azerspace-1" Fransanın inzibati idarəçiliyində olan Fransız Qvianasındakı Kuru kosmodromundan - Qviana Kosmik Mərkəzindən üzərində üçrəngli Azərbaycan bayrağı olan "Ariane-5" daşıyıcı raketi ilə orbitə buraxıldı. Faydalı yük üzrə 36 fəal transponderlə təchiz olunan və təqribən 3,2 ton çəkisi olan "Azərspace-1" peyki 46 dərəcə Şərq uzunluq dairəsində geostasionar orbitdə yerləşdirildi. Peykin əhatə dairəsi təkcə Azərbaycanla məhdudlaşmadı. Avropa, Mərkəzi Asiya və Afrika regionlarına qədər uzanan xidmət zonası ölkəyə beynəlxalq bazarda fəaliyyət göstərmək imkanı verdi ki, bu da kosmik sənayenin iqtisadi gəlir gətirən sahəyə çevrilməsinə zəmin yaratdı və Azərbaycan Cənubi Qafqazda peykə sahib ilk dövlət oldu.

2014-cü ildə "Azersky" adlı yerin məsafədən müşahidə peykinin istismara verilməsi Azərbaycanın kosmik imkanlarını daha da genişləndirdi. Bu peyk vasitəsilə yüksəkdəqiqlikli təsvirlər əldə etmək mümkün oldu. Kənd təsərrüfatının monitorinqi, şəhərsalma planlaşdırılması, ekoloji nəzarət, fövqəladə halların qiymətləndirilməsi və sərhəd təhlükəsizliyi kimi sahələrdə bu məlumatlar hər zaman mühüm əhəmiyyət daşıyıb. 2018-ci ildə orbitə buraxılan "Azerspace-2" Azərbaycanın telekommunikasiya imkanlarını daha da genişləndirdi və xidmət keyfiyyətini artırdı. Yeni peyk sayəsində kommersiya imkanları artdı, beynəlxalq tərəfdaşlıq əlaqələri gücləndi və ölkənin qlobal peyk bazarındakı mövqeyi möhkəmləndi.



Kosmik sənayenin dinamik inkişafı şəraitində Azərbaycan həm regional, həm də beynəlxalq müstəvidə öz mövqeyini davamlı gücləndirir. Qeyd edək ki, "Azərkosmos"un beynəlxalq təşəbbüslər fonunda fəaliyyəti ilk növbədə peyk xidmətlərinin ixracı ilə xarakterizə olunur. "Azerspace-1" və "Azerspace-2" Azərbaycanın kosmik sənayesinin kommersiya potensialını artırmaqla yanaşı, ölkənin beynəlxalq imicinə də müsbət təsir göstərir. Qurum dünyanın aparıcı kosmik şirkətləri və təşkilatları ilə əməkdaşlıq əlaqələri yaradıb. Peyklərin istehsalı və orbitə çıxarılması prosesində "Airbus Defence and Space" və "Arianespace" kimi nüfuzlu beynəlxalq şirkətlərlə əməkdaşlıq əlaqələri qurulub. Bu əməkdaşlıq texnologiya transferi, mütəxəssis hazırlığı və qabaqcıl təcrübənin mənimsənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

"Azərkosmos" beynəlxalq kosmik və telekommunikasiya təşkilatlarında da təmsil olunur, qlobal forum və sərgilərdə iştirak edir. Bu platformalar vasitəsilə yeni tərəfdaşlıqlar qurulur, regional layihələr müzakirə olunur və Azərbaycanın kosmik potensialı beynəlxalq ictimaiyyətə təqdim edilir. Xüsusilə Afrika və Asiya ölkələri ilə qurulan əlaqələr peyk xidmətlərinin ixrac coğrafiyasını genişləndirib. Bir neçə gün əvvəl "Azərkosmos"la Çad Respublikasının Elektron Kommunikasiya və Poçt üzrə Tənzimləyici Qurumu (ARCEP) arasında rəqəmsal transformasiya, innovasiya mərkəzləri və rəqəmsal məhsulların ixracı sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması deyilənlərin təsdiqdir.

Memoranduma əsasən, tərəflər kosmik ekosistemin kompleks inkişafı istiqamətində əməkdaşlığı genişləndirməyi nəzərdə tuturlar. Bu əməkdaşlıq strateji konsaltinq, radiotezlik spektrinin idarə edilməsi, coğrafi informasiya sistemləri (GIS), məsafədən zondlama texnologiyaları, peyk rabitəsi, peyklərin və yerüstü idarəetmə sistemlərinin istismarı, eləcə də kosmik fəaliyyət və peyk xidmətləri sahəsində normativ-hüquqi tənzimləmə məsələlərini əhatə edir.

Bu mənada Azərbaycanın kosmik sənaye sahəsində beynəlxalq tərəfdaşlıqlarının önəmi, eləcə də yüksək texnologiyaların inkişafı istiqamətində ABŞ ilə qurulan strateji əməkdaşlığı diqqətəlayiq nümunə kimi qiymətləndirmək olar. Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında təsdiqlənən Strateji Tərəfdaşlıq haqqında Xartiyada kosmik sənaye sahəsində əməkdaşlığın qeyd olunması həmin istiqamətin ikitərəfli münasibətlərdə prioritet mövqeyə malik olduğunu göstərir.

ABŞ-nin kosmik sənaye sahəsində qabaqcıl təcrübəsi və güclü özəl sektor ekosistemi nəzərə alınarsa, bu əməkdaşlıq insan kapitalının inkişafı baxımından əhəmiyyətli perspektivlər açır. Strateji Tərəfdaşlıq çərçivəsində kosmik sənaye üzrə əməkdaşlıq Azərbaycanın beynəlxalq kosmik bazarda mövqeyini gücləndirə və yeni investisiya imkanları yarada bilər. Birgə layihələr və texnologiya transferi ölkədə kosmik ekosistemin dərinləşməsinə, innovasiya mühitinin güclənməsinə və rəqabət qabiliyyətinin artmasına təkan verər.

Göründüyü kimi, Azərbaycanın kosmik sənayesi qısa müddət ərzində mühüm inkişaf yolu keçib. "Azərkosmos"un yaradılması, ardıcıl peyk layihələrinin həyata keçirilməsi və beynəlxalq bazara inteqrasiya ölkənin texnoloji potensialını nümayiş etdirir. Bu sahə təbii ki, yalnız prestij layihəsi deyil, həm də iqtisadi, strateji və elmi inkişafın mühüm dayağıdır. Kosmosa atılan hər bir addım əslində gələcəyə atılan addımdır. Azərbaycanın kosmik sənayesi də ölkənin innovativ, rəqabətqabiliyyətli və müasir dövlət kimi formalaşmasında mühüm rol oynamaqdadır.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

# ABŞ-nin vitse-prezidentinin Azərbaycana səfəri dünya mediasının diqqətindədir

ABŞ-nin vitse-prezidenti Cey. Di. Vensin Azərbaycana səfəri dünya mediasının diqqətindədir.

AZƏRTAC-ın məlumatına görə, səfər zamanı iki ölkə arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası, Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ vitse-prezidenti Cey. Di. Venslə mətbuata birgə bəyanatı zamanı səsləndirilən fikirlər dünya mediasında geniş yer alıb. ABŞ-nin **"Associated Press", "News Nation", "Fox New", ABC, CNN, "The Washington Post", PBS, "Forbes Breaking News", "C-Span"** kimi media orqanları səfəri geniş şəkildə işıqlandırıb və ya mətbuata birgə bəyanatı canlı yayımlayıblar.

**"The Washington Post"** yazır ki, səfər zamanı Vens sovet dövründən qalma dəmir yolunun tərk edilmiş hissəsini Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutuna (TRIPP) çevirəcək yeni tranzit dəhlizi planlarını açıqlayıb. Qeyd olunur ki, bu marşrut Ermənistan vasitəsilə Azərbaycanı Naxçıvan anklavı və Türkiyə ilə birləşdirəcək.

"Artıq altı aydır ki, biz sülh şəraitində yaşayırıq. Biz sülh içində yaşamağı öyrənirik. Prezident Trampa Qafqazda sülhə verdiyi töhfəyə görə çox minnətdarıq", - deyə **PBS** Azərbaycan Prezidenti İlham Əliyevin mətbuata birgə bəyanatdakı çıxışına istinadla qeyd edir.

**"Nyu York Post"** yazır ki, mətbuata bəyanat zamanı vitse-prezident Cey. Di. Vens Əfqanıstandakı ABŞ qüvvələri ilə birlikdə Azərbaycanın rolunu vurğulayıb, ABŞ-nin dəniz təhlükəsizliyinə yeni dəstəyini elan edib və Prezident Trampın iştirakı ilə Azərbaycan və Ermənistan arasında imzalanmış mühüm razılaşmadan sonra tərəfdaşlığın regional sülhün və iqtisadi əməkdaşlığın gücləndirilməsinə kömək edəcəyini bildirib.

**"Herald USA"** bildirir ki, iki ölkə arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası müdafiə, təhlükəsizlik, ticarət, investisiya kimi sahələrdə əməkdaşlıq çərçivəsi formalaşdırır.

Bununla yanaşı, **"Reuters"**də dərc olunmuş "ABŞ və Azərbaycan Vensin səfəri çərçivəsində strateji tərəfdaşlıq müqaviləsi imzalayıblar" sərlövhəli yazıda qeyd olunur ki, Azərbaycan Prezidenti İlham Əliyev mətbuata birgə bəyanat zamanı ABŞ və Azərbaycan arasında münasibətlərin bu gün tamamilə yeni mərhələyə qədəm qoyduğunu deyib. Yazıya əsasən, Vens bildirib ki, ABŞ Azərbaycana ərazi sularını qorumaq üçün gəmilər göndərəcək. Vurğulanır ki, xartiya ilk dəfə avqust ayında Vaşinqtonda Prezident İlham Əliyevlə Prezident Donald Tramp arasında danışıqlarda təqdim olunub.




Fransanın **AFP** agentliyi yazır ki, ABŞ ilə Azərbaycan arasında Strateji Tərəfdaşlıq Xartiyasının imzalanmasından öncə Vens Azərbaycan Prezidenti İlham Əliyevlə görüşüb. Qeyd olunur ki, görüşdə Vens müqavilənin bu tərəfdaşlığı rəsmiləşdirəcəyini və ABŞ-Azərbaycan münasibətlərinin qalıcı olacağını çox aydın şəkildə göstərəcəyini bildirib.

"Biz təhlükəsizlik və antiterror əməliyyatları məsələləri üzərində işimizi davam etdirəcəyik", - deyə yazıda Prezident İlham Əliyevin çıxışına istinad edilərək qeyd olunub.

Səfər Türkiyənin **"Anadolu Agentliyi", "Hürriyet", "CNN Turk", "TRT Avaz", "Son dakika", "Dünya", "Haber Türk"** media orqanlarında və bir sıra saytlarında geniş işıqlandırılıb. "Hürriyet"də dərc olunmuş "İmzalar atıldı. Azərbaycanla ABŞ arasında vacib anlaşma" başlıqlı yazıda bildirilir: "Birgə bəyanat zamanı Prezident İlham Əliyev deyib ki, dünyanın ən qüdrətli ölkəsi - Amerika Birləşmiş Ştatları ilə strateji tərəfdaş olmaq böyük şərəfdir".

Rusiyanın **TASS, "Komsomolskaya Pravda", RBK, "Interfax", "Russian Today", "lenta.ru"** və digər informasiya agentlikləri ABŞ ilə Azərbaycanın Strateji Tərəfdaşlıq haqqında saziş imzalamasına geniş yer veriblər.

"Azərbaycan və ABŞ Strateji Tərəfdaşlıq Xartiyası çərçivəsində ərazi bütövlüyünün qarşılıqlı tanınması barədə razılığa gəliblər", - deyə **"RIA Novosti"** yeni imzalanmış sənədə istinadən yazır.

Almaniyanın **"Deutsche Welle"** saytında dərc olunmuş "Vens Azərbaycan və Ermənistanla aktiv şəkildə sövdələşmələr bağlayır" adlı yazıya əsasən, Vens Azərbaycanda bildirib ki, müqavilə iki ölkə arasında tərəfdaşlığı rəsmiləşdirəcək və ABŞ-Azərbaycan münasibətlərinin qalıcı olacağını çox aydın şəkildə göstərəcək. Qeyd olunur ki, Vensin səfəri ABŞ-nin Cənubi Qafqazda təsirini genişləndirməyə çalışdığı bir zamanda gerçəkləşir.

Həmçinin İtaliya, Yaponiya, Rumıniya, Monteneqro, İran, Qazaxıstan, Ukrayna, Gürcüstan, Çin, Polşa, Bolqarıstan, Avstriya, Latın Amerikası ölkələri, ərəb ölkələri mediası Vensin Cənubi Qafqaz səfəri, imzalanmış sənədlər və bu əlaqələrin regional əməkdaşlıq üçün açdığı imkanlar barədə yazıb.

❖ ❖ ❖

Qazaxıstan mediası ABŞ-nin vitse-prezidenti Cey. Di. Vensin Bakıya səfərini geniş şəkildə işıqlandırır. Bu ölkənin mətbuatında dərc olunan materiallarda Azərbaycan-Amerika əməkdaşlığının inkişaf perspektivlərinə diqqət yetirilir.

Qazaxıstanın **"Inform.kz", "Ulysmedia.kz", "Inbusiness.kz"** və "Qazaqstan.tv" media orqanları Bakıda aparılan danışıqlar və əldə edilən razılaşmalar barədə ətraflı məlumat verib.

Materiallarda diqqətə çatdırılır ki, Azərbaycan və Amerika Birləşmiş Ştatlarının iqtisadi və təhlükəsizlik sahəsində əməkdaşlığında yeni bir fəsil açılır.

Həmçinin səfər zamanı Azərbaycan Prezidenti İlham Əliyev və ABŞ-nin vitse-prezidenti Cey. Di. Vensin Strateji Tərəfdaşlıq Xartiyasını imzaladıqları vurğulanır.

Qeyd olunur ki, Strateji Tərəfdaşlıq Xartiyasına TRIPP (Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu) nəqliyyat dəhlizi, süni intellekt, rəqəmsal infrastruktur və təhlükəsizlik sahəsində əməkdaşlıq kimi məsələlər daxildir. Materiallarda həmçinin Azərbaycanın ərazi sularının qorunması üçün qayıqların planlaşdırılan tədarükü ilə bağlı məlumatlara xüsusi diqqət yetirilir.

❖ ❖ ❖

Fransanın informasiya portalları, televiziya və radioları Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Cey. Di. Vensın Bakıya səfərini, Prezident İlham Əliyevlə görüşünü işıqlandırıblar.

**"France", "Mediapart", "BFM TV", "Challenges", "L'Humanite", "Boursorama", "Boursier"** kimi informasiya portalları, radio və televiziyaları Cey. Di. Vensin Azərbaycana səfəri, Prezident İlham Əliyevlə görüşü, "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanma mərasimi və hər iki tərəfin mətbuata bəyanatından materiallar yayıblar.

Xəbərlərdə Azərbaycan və ABŞ-nin strateji tərəfdaş olduqları, Tramp administrasiyasının Azərbaycana münasibəti, eləcə də Strateji Tərəfdaşlıq Xartiyası barədə məlumat verilib. Həmçinin TRIPP layihəsi haqqında danışılıb.

# Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı quruculuq işləri davam edir

**Azərbaycan xalqının çoxəsrlik tarixində Vətən müharibəsində qazanılan Zəfər xüsusi yer tutur. Bu tarixi Qələbə hərbi-siyasi uğurumuz, milli qürurumuzun, dövlət iradəsinin və xalqımızın birliyinin təntənəsidir.**

Müharibədən sonra dövlətimizin qarşısında dayanan əsas vəzifələrdən biri işğaldan azad edilmiş ərazilərin bərpası və insanların doğma yurdlarına qayıdışının təmin edilməsi oldu. Prezident İlham Əliyevin xüsusi nəzarəti ilə Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı quruculuq və bərpa işlərinə start verildi. Qısa müddət ərzində bölgədə tamamilə yeni bir mənzərə formalaşmağa başladı.

5 ildən çoxdur ki, işğaldan azad olunmuş ərazilər böyük tikinti və yenidənqurma məkanına çevrilib. Dövlətimiz tərəfindən həyata keçirilən infrastruktur layihələri fasiləsiz və planlı şəkildə icra olunur. Əsas məqsəd keçmiş məcburi köçkünlərin təhlükəsiz və firavan şəraitdə doğma torpaqlarına qayıdışını təmin etməkdir. İndiyədək işğaldan azad olunmuş ərazilərin bərpasına büdcədən 25 milyard manatdan çox vəsait ayrılıb. 2026-cı il dövlət büdcəsində isə bu istiqamətə 3,5 milyard manat, yəni ümumi xərclərin 8,4 faizi nəzərdə tutulub.

İşğaldan azad olunmuş ərazilərin bərpası Azərbaycan dövlətinin uzunmüddətli inkişaf strategiyasının ayrılmaz hissəsidir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" uğurla icra edilir.

Proqramın ümumi icra faizi təqribən 79 faizdir. İşğaldan azad olunmuş ərazilərə Böyük qayıdışın davamlılığının təmin edilməsi məqsədilə Prezident İlham Əliyev 2025-ci il 30 may tarixində imzaladığı sərəncamla "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı" layihəsinin hazırlanmasını tapşırıb.

Hər gün Böyük qayıdışın uğurlu nəticələrinin şahidi oluruq. Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq və bərpa işləri zaman keçdikcə daha geniş vüsət alır, işğaldan azad edilmiş torpaqlarda həyat yenidən canlanır. Bu proses həm də insanların doğma yurdlarına qayıdışı ilə öz real nəticəsini göstərir.

Qarabağ və Şərqi Zəngəzurda bərpa və quruculuq prosesi planlı şəkildə həyata keçirilir. Yenidən qurulması üçün bütün şəhərlərin baş planları təsdiq olunub.

Qarabağ və Şərqi Zəngəzurda həm də möhtəşəm yol infrastrukturu qurulur. Beynəlxalq standartlara cavab verən avtomobil yolları, dəmir yolu xətləri, körpülər və tunellər inşa edilir. İndiyədək 40-dan artıq avtomobil yolu layihəsinin icrasına başlanılıb. Onlardan bir qismi tamamlanıb (Zəfər yolu, Tərtər-Çaylı-Suqovuşan-Talış, Füzuli-Hadrut yolları, Əhmədbəyli-Füzuli-Şuşa yolu və s.). Bu yollar regionun iqtisadi və sosial həyatına yeni nəfəs gətirir.



Qeyd edək ki, nəqliyyat sisteminin əsas sütunlarından biri hava yoludur. Azad edilmiş Füzuli, Zəngilan və Laçında beynəlxalq hava limanlarının tikilməsi "Böyük qayıdış" proqramının uğurla icra olunduğunun göstəricisidir. Laçın Hava Limanının istifadəyə verilməsi ilə ölkəmizdə beynəlxalq hava limanlarının sayı doqquza çatıb. Bu hava limanları regionu həm ölkədaxili, həm də beynəlxalq marşrutlarla birləşdirən strateji mərkəzə çevirir.

Bundan əlavə, dəmir yolu layihələri də xüsusi əhəmiyyət daşıyır. Horadiz-Ağbənd dəmir yolu xətti və digər layihələr bölgənin tranzit imkanlarını artırır. Bu xətlər Zəngəzur dəhlizi çərçivəsində regionun iqtisadi rolunu daha da gücləndirir.

Qarabağ və Şərqi Zəngəzur həm də yaşıl məkan kimi inkişaf edir. Bu bölgələr "yaşıl enerji" zonası olacaq. Son 5 il ərzində Qarabağda və Şərqi Zəngəzurda dövlət vəsaiti hesabına 40-a yaxın kiçik su-elektrik stansiyası inşa edilib. Onların potensialı 300 meqavatdan çoxdur. Azad edilmiş ərazilərin potensial su-elektrik stansiyalarının xəritəsi də tərtib edilib və təqribən 500 meqavat gücündə kiçik su-elektrik stansiyaları inşa olunacaq.

Qarabağ və Şərqi Zəngəzurda günəş və külək enerjisinin potensialı 10 GVt həcmində qiymətləndirilir. Artıq istehsal gücü 1100 MVt-a çatan layihələr icra olunur. COP29 çərçivəsində Cəbrayıl rayonunda 240 MVt gücündə Şəfəq Günəş-Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilib. Bu stansiya işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən ilk sənayemiqyaslı günəş enerjisi və ən böyük birbaşa xarici investisiya layihəsidir.

Qarabağın iqtisadiyyatı da sürətlə inkişaf edir. Belə ki, Ağdam Sənaye Parkı, Cəbrayıldakı "Araz Vadisi İqtisadi Zonası" və Laçında yaradılan Aqro və Sənaye Parkı Qarabağ və Şərqi Zəngəzurun iqtisadi potensialının hərəkətə gətirilməsinə böyük töhfə verir.

Bütün bu quruculuq işləri, sadəcə, infrastrukturun bərpası demək deyil. Bu proses həm də vətəndaşların məşğulluğunun təmin edilməsinə xidmət edir. Yeni iş yerləri açılır, sahibkarlıq fəaliyyəti üçün imkanlar genişlənir, sakinlərin sosial rifahı yüksəlir. Qarşıya qoyulan hədəflər və uğurla icra olunan layihələr nəticəsində keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışı üçün möhkəm zəmin yaradılır.

Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa siyasəti regionu müasir nəqliyyat, enerji və sənaye mərkəzinə çevirir. Bu torpaqlarda qurulan yollar, hava limanları, enerji layihələri Böyük qayıdışın dayanıqlı və strateji xarakter daşıdığını bir daha sübut edir.

İşğaldan azad olunan ərazilərdə yenidən məskunlaşma prosesi ardıcıl və uğurla həyata keçirilir. Bu günədək həmin ərazilərdə 30-dan çox yaşayış məntəqəsi yenidən qurulub. Hazırda bu bölgələrdə çalışanlar, eləcə də təhsil alanlar daxil olmaqla 73 mindən çox vətəndaş yaşayır. Bu ilin sonuna kimi işğaldan azad olunan ərazilərimizə köçürülən vətəndaşlarımızın sayının təxminən 130-140 minə çatdırılması planlaşdırılır.

Qarabağ və Şərqi Zəngəzurda dağıdılmış tarixi və mədəni irs nümunələrinin bərpası da prioritet istiqamətlərdəndir. Şuşada Yuxarı Gövhər ağa və Saatlı məscidləri, Mehmandarovların malikanə kompleksi və digər abidələr bərpa olunaraq tarixi görkəminə qaytarılıb. Həmçinin Ağdam şəhərində Cümə məscidinin restavrasiyası, İmarət kompleksi və digər tarixi obyektlərin bərpası şəhərin yeni baş planına uyğun şəkildə həyata keçirilir. Bütün bu işlər Qarabağın mədəni kimliyinin qorunmasına və gələcək nəsillərə ötürülməsinə xidmət edir.

Prezident İlham Əliyevin dediyi kimi: "Biz bu torpaqların sahibiyik, buraya qayıtmışıq və burada əbədi yaşayacağıq". Bu gün Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa-quruculuq işləri həmin fikrin real təcəssümüdür. Zəfərdən sonra başlayan bu proses yeni qələbələrin, yeni uğurların əsasını qoyur. Doğma yurdlarına qayıdan insanlar qurur, yaradır və bölgənin inkişafına öz töhfələrini verirlər. Qarabağ və Şərqi Zəngəzur bütün regionun inkişaf mərkəzinə çevrilməkdədir. Böyük qayıdış artıq reallıqdır və bu reallıq Azərbaycan dövlətinin gücünü, iradəsini və gələcəyə olan inamını bir daha nümayiş etdirir.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları

## Azərbaycanın yüksək nüfuzunun göstəricisi

**Azərbaycan və ABŞ arasında münasibətlər yeni mərhələyə daxil olaraq strateji əhəmiyyət daşımağa başlayıb. Bu münasibətlər qarşılıqlı maraqlara əsaslanan əməkdaşlığa və liderlər arasında formalaşmış siyasi etimada əsaslanır.**



Donald Trampın ABŞ prezidenti seçilməsindən sonra ölkələrimiz arasında münasibətləriin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu deyən Milli Məclisin deputatı Vüqar Rəhimzadə qeyd edib ki, ötən ilin avqust ayında Prezident İlham Əliyevin ABŞ-yə səfəri Azərbaycan-Amerika münasibətlərinin inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edib. İki ölkə arasında münasibətlər təkcə ənənəvi diplomatik əməkdaşlıq çərçivəsində inkişaf etməklə kifayətlənməyərək, keyfiyyətcə yeni - strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Fevralın 10-da Bakıda Prezident İlham Əliyev və ABŞ-nin vitse-prezidenti Ceyms Devid Vens tərəfindən hər iki ölkənin hökumətləri arasında Strateji Tərəfdaşlıq haqqında Xartiyanın imzalanması bunun təsdiqidir. "Son illərdə ABŞ siyasi dairələrində Azərbaycan və Prezident İlham Əliyev haqqında səslənən yüksək fikirlər təsadüfi deyil. Bu, Prezident İlham Əliyevin liderliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycanın artan geosiyasi çəkisi, enerji təhlükəsizliyində oynadığı rol və regional sabitliyə verdiyi töhfə ilə birbaşa bağlıdır. Vaşinqton üçün Cənubi Qafqaz strateji əhəmiyyət daşıyan bölgədir və bu regionda Azərbaycan kimi etibarlı tərəfdaş faktorunun mövcudluğu xüsusi önəm kəsb edir", - deyə o bildirib.

Deputat vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iri enerji layihələri Azərbaycanın beynəlxalq mövqeyini əhəmiyyətli dərəcədə gücləndirib. Bu gün dünyada artan qeyri-sabitlik fonunda ölkəmizin etibarlı qlobal aktor kimi artan rolu ABŞ siyasi dairələrində yüksək qiymətləndirilir. Prezident İlham Əliyevin uzunmüddətli və düşünülmüş enerji siyasəti, Azərbaycanın enerji təhlükəsizliyinə verdiyi strateji töhfə ölkəmizi Avrasiyanın enerji xəritəsində əsas oyunçulardan birinə çevirib.

V.Rəhimzadə bildirib ki, Azərbaycanın uğurlu xarici siyasət kursu dövlətimizin maraqlarına əsaslanan çoxvektorlu və balanslaşdırılmış strategiya üzərində qurulub: "Azərbaycan qlobal güclərlə münasibətlərini milli maraqlar əsasında inkişaf etdirir. ABŞ-nin siyasi elitası üçün məhz bu praqmatik və sabit mövqe önəmlidir. Azərbaycan regionda etibarlı tərəfdaş kimi qəbul edilir. Prezident İlham Əliyevin prinsipial mövqeyi və ardıcıl siyasəti ölkəmizin beynəlxalq nüfuzunu gücləndirib. ABŞ siyasi elitasında Prezident İlham Əliyev haqqında səslənən yüksək fikirlər Azərbaycanın artan beynəlxalq rolunun göstəricisidir. Enerji təhlükəsizliyi, regional sabitlik, balanslı xarici siyasət və iqtisadi inkişaf modeli ölkənin strateji əhəmiyyətini artırır".

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

## Azərbaycan-ABŞ əməkdaşlığının genişləndirilməsi üçün möhkəm zəmin yaradılıb

**Azərbaycanla ABŞ arasında Strateji Tərəfdaşlıq haqqında Xartiyanın imzalanması ikitərəfli münasibətlərin transformasiyasında mühüm mərhələ olmaqla yanaşı, Cənubi Qafqazda gedən daha dərin geosiyasi proseslərin də göstəricisidir. Burada söhbət sadəcə simvolik sənəddən və ya niyyət bəyanatından getmir, xartiya epizodik əməkdaşlıqdan strukturlaşdırılmış və uzunmüddətli tərəfdaşlıq modelinə keçidi rəsmiləşdirir.**

Milli Məclisin deputatı Sevinc Fətəliyeva qəzetimizə açıqlamasında bildirib ki, bu addımın əsas xüsusiyyəti Vaşinqtonun Bakını regional siyasətin obyekti kimi deyil, öz siyasi çəkisi və strateji baxışı olan müstəqil aktor kimi qəbul etməsidir. Bu, münasibətlərin məntiqini köklü şəkildə dəyişir. Azərbaycan tərəfdaşlıq formatına "kiçik iştirakçı" qismində deyil, enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri, regional sabitlik və postmünaqişə dövrünün bərpası kimi sahələrdə gündəlik formalaşdıra bilən dövlət kimi daxil olur. "Xartiya Cənubi Qafqazın yenidən formatlaşdığı bir mərhələdə ortaya çıxır. Ayrı-ayrı güc mərkəzlərinin dominantlığına əsaslanan köhnə təsir mexanizmləri tədricən effektivliyini itirir. Region çoxvektorlu əməkdaşlıq məkanına çevrilir və burada praqmatik tərəfdaşlıqlar, iqtisadi qarşılıqlı asılılıq və infrastruktur bağlantıları getdikcə daha böyük əhəmiyyət kəsb edir. Bu kontekstdə ABŞ-nin regionda fəallaşması qarşıdurma xarakteri daşımır - bu proses Azərbaycanın xarici əlaqələrinin şaxələndirilməsi strategiyasının tərkib hissəsidir", - deyə o bildirib.

Xartiyanın praktiki məzmununun qarşılıqlı fayda prinsipinə əsaslanan bir neçə istiqaməti əhatə etdiyini deyən deputat vurğulayıb ki, energetika əməkdaşlığın əsas sütunu olaraq qalır, lakin artıq söhbət təkcə ənənəvi resurslardan getmir. Diqqət "yaşıl enerji", texnoloji mübadilə və dayanıqlı inkişafa yönəlir. İqtisadi komponent özəl investisiyaların təşviqini, innovativ layihələrin inkişafını və ticarət əlaqələrinin genişləndirilməsini nəzərdə tutur. Təhlükəsizlik sahəsində isə sərt öhdəliklərdən yayınaraq koordinasiya və təcrübə mübadiləsinə üstünlük verilir ki, bu da etimadın mərhələli şəkildə möhkəmlənməsinə imkan yaradır.



S.Fətəliyeva qeyd edib ki, sənədin imzalanması Azərbaycanın beynəlxalq mövqelərini daha geniş mənada gücləndirir: "Bu addım Bakının Qərb, türk dünyası, ərəb ölkələri və Asiya tərəfdaşları ilə paralel şəkildə balanslaşdırılmış münasibətlər qurmaq qabiliyyətini nümayiş etdirir. Belə yanaşma çoxvektorlu diplomatiyaya sadiqliyi təsdiqləyir və Azərbaycanın müxtəlif geosiyasi məkanlar arasında əlaqələndirici rolunu möhkəmləndirir. Bu prosesin regional nəticələri də diqqətəlayiqdir. Qonşu ölkələr üçün ABŞ ilə əməkdaşlıq baxımından yeni orientirlər formalaşır, ənənəvi oyunçular isə daha mürəkkəb və çoxqütblü təsir konfiqurasiyasına uyğunlaşmaq zərurəti ilə üzləşirlər. Avropa İttifaqı da yeni reallıqla hesablaşmalı olur, bu reallıqda Cənubi Qafqazda yeni siyasi arxitekturanın formalaşmasında əsas xarici tərəfdaş rolunu məhz Vaşinqton oynayır".

Onun sözlərinə görə, nəticədə, Azərbaycanla ABŞ arasında Strateji Tərəfdaşlıq haqqında Xartiya təkcə iki ölkənin yaxınlaşmasını deyil, daha dərin strateji dönüşü əks etdirir, yəni bəyanatlar siyasətindən konkret mexanizmlər siyasətinə keçidi təmin edir. Bakı üçün bu, regional proseslərin aktiv iştirakçısı statusunun möhkəmlənməsi deməkdir, Vaşinqton üçün isə strateji əhəmiyyətli məkanda etibarlı tərəfdaşın əldə olunmasıdır. Ən başlıcası isə odur ki, sənəd praqmatizmə, qarşılıqlı hörmətə və uzunmüddətli maraqların düzgün anlaşılmasına əsaslanan əməkdaşlıq üçün möhkəm zəmin yaradır. Məhz bu prinsiplər bu gün yeni beynəlxalq reallığın əsas müəyyənedicilərinə çevrilir.

*Ə.QARDAŞXANOVA, "Azərbaycan"*

## Strateji Tərəfdaşlıq haqqında Xartiya əlaqələri yüksək səviyyəyə qaldıracaq

**Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Ceyms Devid Vensin Azərbaycana səfəri və iki ölkənin hökumətləri arasında Strateji Tərəfdaşlıq haqqında Xartiyanın imzalanması tarixi hadisələrdir. Dünyanın ən güclü dövləti olan ABŞ-nin Azərbaycanla siyasi, iqtisadi əlaqələrin qurulmasına böyük maraq göstərməsi ölkəmizin diplomatiyasının böyük uğurudur.**



Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Kamilə Əliyeva qəzetimizə açıqlamasında xatırlatdı ki, ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev və ABŞ Prezidenti Donald Tramp arasında imzalanmış, Birgə Bəyannaməyə əsasən, Strateji Tərəfdaşlıq haqqında Xartiyanın hazırlanması üçün İşçi Qrupu yaradılıb və 6 ay ərzində sənəd hazırlanıb. Dörd bölümdən ibarət Strateji Tərəfdaşlıq haqqında Xartiyada iki dövlət arasında bir çox sahələrdə, eləcə də enerji, ticarət və tranzit sahələrində əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulur. "Trans-Xəzər Nəqliyyat Dəhlizini əsas götürərək quru, dəniz və hava nəqliyyatı infrastrukturlarının inkişafı, ticarətin asanlaşdırılması, gömrük nəzarəti və digər sahələrdə əməkdaşlıq əlaqələrinin qurulması barədə tərəflər arasında razılıq əldə olunub. Eyni zamanda Beynəlxalq Sülh və Rifah Naminə Tramp marşrutunun (TRIPP) əhəmiyyəti qeyd edilir. İqtisadi sərmayələr, o cümlədən süni intellekt, təhlükəsizlik və enerji təhlükəsizliyi sahələrində də əməkdaşlığın yeni konturları hazırlanıb və əlaqələrin genişləndirilməsi nəzərdə tutulub", - deyə o bildirib.

Ekspert qeyd edib ki, sənəd imzalandıqdan sonra Prezident İlham Əliyev və vitse-prezident Ceyms Vens mətbuata bəyanatla çıxış edərək bir sıra mesajlar veriblər. Dövlətimizin başçısı çıxışında Azərbaycanla Ermənistan arasında sülhün yaranması prosesində ABŞ Prezidenti Trampın böyük rolu olduğunu vurğulayıb, eyni zamanda bu gün Azərbaycan və Amerika arasında imzalanmış Strateji Tərəfdaşlıq haqqında Xartiyanın iki dövlət arasında əlaqələri yüksək səviyyəyə çatdıracağını bildirib. Azərbaycanın regionda sülhün yaranmasına təşəbbüs göstərən bir dövlət olduğunu Prezident İlham Əliyev xüsusi vurğulayıb.

K.Əliyeva dedi ki, bu, Prezident İlham Əliyevin Azərbaycanla Ermənistan arasında sülhün əbədi bərqərar olunması istiqamətində böyük səy göstərdiyini bir daha sübut edir: "ABŞ Azərbaycanın sülhməramlı addımını dəstəkləyir. Prezident İlham Əliyevin atdığı bütün addımlar dövlətimizin və xalqımızın milli maraqlarına xidmət edir".

Ekspert bildirdi ki, ABŞ-nin vitse-prezidenti Ceyms Devid Vens də Vaşinqtonla Bakı arasında əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsinə böyük qiymət verib və Azərbaycanın yaxın Şərqdə dövlətlərarası münasibətlərin normallaşdırılmasında böyük töhfə verə biləcəyini xüsusi vurğulayıb.

*Əsmər QABİLQIZI, "Azərbaycan"*

## *Halit HAMZAOĞLU:* "Nəqliyyat dəhlizləri Cənubi Qafqazda sülhün və sabitliyin əsas mexanizmidir"

**Hazırda beynəlxalq münasibətlər sistemində qeyri-müəyyənliklərin və bunun fonunda geosiyasi təlatümlərin artdığı bir dövr yaşanır. Bu şəraitdə dövlətləri və xalqları bir-birinə bağlayan nəqliyyat dəhlizləri xarici siyasət strategiyalarının həyata keçirilməsində əsas alətlərdən birinə çevrilib. Nəqliyyat dəhlizləri geosiyasi qeyri-müəyyənlik mühitində sabitləşdirici amil kimi çıxış edir və strateji xətlərin davamlılığının təmin olunmasında mühüm rol oynayır.**

Bunu AZƏRTAC-a açıqlamasında beynəlxalq münasibətlər üzrə ekspert Halit Hamzaoğlu bildirib.

Onun sözlərinə görə, qeyri-müəyyənlik şəraitində proqnozlaşdırılan regional inkişaf üçün əlaqələndirmə mühüm imkanlar yaradır. Bu baxımdan Azərbaycanın ABŞ ilə münasibətlərində əldə etdiyi strateji dinamika həm regional, həm də qlobal səviyyədə yeni əməkdaşlıq mexanizmləri formalaşmasdırır və ABŞ vitse-prezidenti Vensin Bakıya tarixi səfəri Azərbaycan-ABŞ münasibətlərinin strateji məzmununu açıq şəkildə ortaya qoyur.

O bildirib ki, Trans-Xəzər Beynəlxalq Nəqliyyat xəttinin qovşağında yerləşən Azərbaycanın ABŞ ilə qarşılıqlı maraqlara əsaslanan münasibət modelini inkişaf etdirməsi regional əməkdaşlığa xüsusi töhfə verir.

"Bu kontekstdə Azərbaycan Türkiyənin prioritet hesab etdiyi Orta dəhliz layihəsində açar rol oynayır. Orta dəhliz Türkiyənin kommunikasiya sahəsində strateji baxışını tam şəkildə əks etdirir və türk dünyasının coğrafiyasını bir-birinə bağlayan mühüm xətt kimi çıxış edir. Orta dəhliz yalnız iqtisadi, ticarət və nəqliyyat baxımından deyil, eyni zamanda humanitar və mədəni əlaqələrin dərinləşdirilməsi baxımından da xüsusi əhəmiyyət kəsb edir. Xüsusilə Rusiya-Ukrayna müharibəsinin başlamasından sonra bu dəhlizin qlobal əhəmiyyəti daha da artıb. 2022-ci ildən sonrakı geosiyasi proseslər Orta dəhlizin strateji çəkisini daha da gücləndirib".

Ekspert qeyd edib ki, Şərq-Qərb kommunikasiyasında mühüm mövqeyə malik olan Azərbaycan Orta dəhlizdə strateji rol oynayır, nəqliyyat infrastrukturuna investisiyalar yatırır və regional əməkdaşlığı təşviq edir. Avqustun 8-də Vaşinqtonda ABŞ-nin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında əldə olunmuş razılaşma isə regional əməkdaşlıq üçün yeni zəmin formalaşdırır. Bu əməkdaşlıq mühiti Türkiyənin Cənubi Qafqazda sabitlik yaradılmasına yönəlmiş baxışı ilə üst-üstə düşür.



**Dəhlizlər Türkiyə və Azərbaycanın beynəlxalq mövqelərini möhkəmləndirir**

Halit Hamzaoğlunun sözlərinə görə, TRIPP layihəsinin funksionallıq qazanması Türkiyə, Azərbaycan və Ermənistan arasında əməkdaşlıq mexanizmlərinin inkişafından asılıdır. Türkiyənin çoxşaxəli nəqliyyat siyasətinin mühüm elementi olan Orta dəhliz ilə TRIPP layihəsi arasındakı qarşılıqlı əlaqə bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Ekspert vurğulayıb ki, bu iki layihə bir-birini tamamlayan xarakter daşımalıdır. Məhz bu tamamlayıcılıq Cənubi Qafqazda güclü sülh mühitinin formalaşmasına imkan verə bilər.

"Orta dəhliz sabit və proqnozlaşdırılan geo-iqtisadi şəbəkənin formalaşmasını təşviq edir və fasiləsiz əlaqə baxımından olduqca vacib rol oynayır. Türkiyə və Azərbaycan Zəngəzur dəhlizinə də eyni prioritetlər çərçivəsində yanaşır. Bu yanaşma türk dünyasının qlobal kommunikasiyasında müəyyənedici oxlardan birinə çevrilməsini mümkün edə bilər.

Ekspert əlavə edib ki, Orta dəhliz və Zəngəzur dəhlizi kimi tanınan nəqliyyat marşrutlarının bir-birini tamamlaması Türkiyə və Azərbaycanın beynəlxalq mövqelərini daha da möhkəmləndirir.

"Marşrutlararası tamamlayıcılıq regional sülh mexanizmlərinin funksionallıq qazanmasına, əməkdaşlığın isə davamlı sülhün təmininə yönəlməsinə şərait yaradır. Cənubi Qafqazda dayanıqlı sülhün təmin olunması baxımından iqtisadi inteqrasiya həyati əhəmiyyət daşıyır. Bu sabitliyin və uzunmüddətli sülhün təmin edilməsinə, eyni zamanda, strateji baxışların formalaşmasına imkan yaradır. İnteqrasiyanın əsas çərçivəsini isə nəqliyyat dəhlizləri təşkil edir. Müasir dövrdə nəqliyyata əsaslanan bağlantılar sülh quruculuğu funksiyası daşıyır. İqtisadi inteqrasiyanın katalizatoru olan nəqliyyat dəhlizləri Cənubi Qafqazda proqnozlaşdırılan siyasi mühitin formalaşmasını sürətləndirir və sülhün dayanıqlı xarakter almasına, yeni əməkdaşlıq modellərinin yaranmasına töhfə verir", - deyə türk ekspert əlavə edib.

## *Yuri BOÇAROV:* "Azərbaycanın çoxvektorlu siyasəti regionda sabitliyə xidmət edən uzunmüddətli platforma yaradır"

**"ABŞ və İsrail ilə münasibətlərin paralel inkişaf etdirilməsi Azərbaycanın beynəlxalq mövqelərini obyektiv şəkildə gücləndirərək ölkənin tranzit, enerji, süni intellekt və yüksək texnologiyalar sahələrində strateji çəkisini artırır. Burada söhbət əsasən hərbi deyil, iqtisadi və texnoloji müstəvidə gedən proseslərdən gedir".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında israilli politoloq Yuri Boçarov bildirib.

O qeyd edib ki, Azərbaycanın çoxvektorlu xarici siyasəti, xüsusilə ABŞ və İsrail ilə qurulan əməkdaşlıq modeli, uzunmüddətli perspektivdə Cənubi Qafqazda sabitliyin möhkəmlənməsinə töhfə verə bilər. Onun fikrincə, bu siyasət regionu geosiyasi qarşıdurma məkanı kimi deyil, qarşılıqlı faydaya əsaslanan praqmatik əməkdaşlıq sahəsi kimi formalaşdırmağa yönəlib.

Politoloqun sözlərinə görə, ABŞ ilə Azərbaycan arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası texnoloji, iqtisadi və təhlükəsizlik sahələrində, o cümlədən süni intellekt istiqamətində əməkdaşlığın institusional əsaslarını möhkəmləndirir: "Paralel olaraq, Azərbaycan ilə İsrail arasında rəqəmsal infrastruktur, innovasiya, kadr hazırlığı və tətbiqi texnoloji həllər sahəsində qurulan uzunmüddətli əməkdaşlıq da sistemli xarakter daşıyır. Bu cür əməkdaşlıq formatı təkcə ayrı-ayrı layihələrlə məhdudlaşmır, əksinə, yeni iş yerlərinin yaradılması, investisiyaların cəlb edilməsi və tranzit imkanlarının genişlənməsi hesabına iqtisadi maraqların uzlaşmasına xidmət edir. Bu isə regionda sabitliyə maraqlı tərəflərin sayını artırır".



Y.Boçarovun fikrincə, Azərbaycanın regional və beynəlxalq proseslərdə artan rolun Prezident İlham Əliyevin milli maraqlara əsaslanan, balanslı və uzunmüddətli strateji xəttinin məntiqi nəticəsidir. "Bu siyasətin əsas məqsədi hər hansı tərəfə qarşı yönəlmək deyil, Azərbaycanın öz inkişaf platformasını möhkəmləndirmək və ölkənin gələcək iqtisadi və texnoloji trayektoriyasını təmin etməkdir. Azərbaycanın həyata keçirdiyi layihələr güclü institusional çərçivə və siyasi iradə ilə dəstəkləndiyi üçün, xarici reaksiyalar prosesin mahiyyətini dəyişmir. Real faydaya, uzunmüddətli baxışa və davamlı siyasi iradəyə əsaslanan təşəbbüslər regional sabitlik və inkişaf üçün mühüm rol oynayır", - deyə politoloq vurğulayıb.

## *Mehmet Emir AKSOY:* "Azərbaycan Avrasiyada yeni strateji balansın mərkəzində dayanır"

**"Son günlər Cənubi Qafqaz və daha geniş Avrasiya coğrafiyası baxımından diqqətlə təhlil edilməli olan iki mühüm strateji hadisə ilə yadda qalıb. ABŞ-nin qısa zaman kəsiyində əvvəlcə İsraillə yüksək texnologiyalar və süni intellekt əsaslı strateji çərçivə formalaşdırması, ardınca isə Azərbaycanla Strateji Tərəfdaşlıq Xartiyasının imzalaması Vaşinqtonun regiona yanaşmasında yeni və kompleks mərhələyə keçdiyini göstərir".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında türk ekspert Mehmet Emir Aksoy bildirib.

Onun sözlərinə görə, bu iki addım ayrı-ayrılıqda mühüm əhəmiyyət daşıyır: "ABŞ-nin Avrasiya və Yaxın Şərqi əhatə edən yeni strateji balans mərkəzində sabit liderliyi, proqnozlaşdırılan xarici siyasəti və artan dövlət potensialı ilə Azərbaycan dayanır. Azərbaycanla imzalanan Strateji Tərəfdaşlıq Xartiyası Bakının yalnız enerji təchizatçısı deyil, eyni zamanda enerji, nəqliyyat, logistika və rəqəmsal infrastrukturu birləşdirən çoxşaxəli regional mərkəz kimi mövqeyinin beynəlxalq səviyyədə təsdiqi anlamına gəlir".

Mehmet Emir Aksoy bildirib ki, xüsusilə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin sənədin əsas dayaqlarından biri kimi önə çəkilməsi Azərbaycanın Avrasiya bağlantılarındakı açar rolunun beynəlxalq müstəvidə qəbul edildiyini göstərir.

"Qarşılıqlı əlaqə və çoxvektorlu xarici siyasət konsepsiyası bu gün artıq qlobal güclər tərəfindən də strateji reallıq kimi qəbul olunur. Prezident İlham Əliyev tərəfindən uzun illərdir ardıcıl şəkildə irəli sürülən bu yanaşma Azərbaycanın regional və beynəlxalq proseslərdə etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirib. Azərbaycanın əsas ərazisi ilə Naxçıvan arasında fasiləsiz əlaqənin beynəlxalq layihələr çərçivəsində nəzərdən keçirilməsi bunun praktiki müstəvidə təzahürüdür. Razılaşmada enerji təhlükəsizliyi, nəqliyyat və ticarətlə yanaşı, süni intellekt, rəqəmsal infrastruktur, məlumat mərkəzləri və kritik minerallar kimi sahələrə xüsusi yer ayrılması diqqət çəkir. Bu yanaşma Azərbaycanın klassik enerji diplomatiyasından kənara çıxaraq gələcəyin iqtisadi və texnoloji arxitekturasında da yer almaq niyyətini nümayiş etdirir. ABŞ-nin bu sahələrdə Azərbaycanı strateji tərəfdaş kimi dəyərləndirməsi Bakının beynəlxalq sistemdə artan çəkisinin məntiqi nəticəsidir. Eyni dövrdə ABŞ ilə İsrail arasında qurulan yüksək texnologiya və süni intellekt əsaslı əməkdaşlıq bu strateji çərçivənin tamamlayıcı elementidir".

Ekspert vurğulayıb ki, Vaşinqtonun İsraili texnologiya və innovasiya sahəsində öncül tərəfdaş kimi mövqeləndirməsi Azərbaycanla enerji və bağlantı mərkəzli tərəfdaşlıqla birlikdə ABŞ-nin regional strategiyasının bir-birini tamamlayan xətlər üzərində qurulduğunu göstərir. Bu ABŞ-nin Cənubi Qafqaz və Yaxın Şərq siyasətinin yalnız təhlükəsizlik müstəvisində deyil, iqtisadi inteqrasiya, infrastruktur yatırımları və texnoloji əməkdaşlıq üzərindən formalaşdırıldığını ortaya qoyur.

Mehmet Emir Aksoy bildirib ki, Azərbaycan bu prosesdə proqnozlaşdırılan siyasəti və güclü dövlətçilik ənənələri sayəsində regional sabitliyin əsas dayaqlarından biri kimi çıxış edir: "Son zamanlarda atılan bu addımlar Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən balanslı, çoxvektorlu və strateji xarici siyasətin beynəlxalq müstəvidə real qarşılıq tapdığını təsdiqləyir. Cənubi Qafqazda sabitliyin və əməkdaşlığın əsas açar ölkələrindən birinə çevrilən Azərbaycan təkcə bu günün deyil, yaxın perspektivdə formalaşacaq regional geosiyasi və iqtisadi arxitekturanın da əsas müəyyənedici aktorlarından biri olacaq", - deyə ekspert bildirib.

# Azərbaycanın xarici siyasətinin uğurları

**Cənubi Qafqazda güclər nisbəti yenidən formalaşır. ABŞ-nin vitse-prezidenti Ceyms Devid Vensin Azərbaycana tarixi səfəri və Prezident İlham Əliyevlə görüşü zamanı səsləndirdiyi mühüm fikirlər regionda yeni bir eranın başlanğıcı sayılır. Vens fevralın 10-da dövlət başçısı İlham Əliyevlə görüşündə diplomatiya tarixində az rast gəlinən önəmli bir etirafı dilə gətirdi. ABŞ-nin ikinci şəxsi köhnə rəhbərliyin siyasətini "sərsəmlik" adlandırdı və "biz bunu düzəltdik" mesajını verdi.**



## Bakı-Vaşinqton münasibətlərində yeni səhifə

### Tramp administrasiyası keçmişin yanlışlarını aradan qaldırdı

Əvvəlki hökumətin kobud xətalarını açıq şəkildə bəyan edən vitse-prezident sonuncu administrasiyanın bir çox səhvlərə yol verməsindən təəssüfləndiyini qeyd etdi: "Onların yol verdikləri səhvlərdən biri də Azərbaycana münasibətdə çox sərsəm siyasətin yürüdülməsi idi. Biz Prezidentin rəhbərliyi ilə bunu düzəltdik". Bu, həm də ABŞ-nin xarici siyasətində, xüsusən Azərbaycanla ikitərəfli münasibətlərdə baş verən ciddi diplomatik dəyişikliyin elanı, yeni kursun tamamilə fərqli, daha konstruktiv olacağının bəyanı idi. Azərbaycanın regiondakı əvəzolunmaz rolunu qəbul edən ABŞ administrasiyası keçmiş yanlışların üzərindən qırmızı xətt çəkdi.

Vensin keçmiş administrasiyanın Azərbaycana yönəlik aşkar qərəzini "sərsəmlik" adlandırması heç də təsadüfi deyildi. 2020-ci il 44 günlük Vətən müharibəsinin Azərbaycanın mütləq qələbəsi ilə başa çatması regionda tamamilə yeni geosiyasi konfiqurasiya formalaşdırdı. Lakin Bayden-Blinken administrasiyası dönəmində Vaşinqtonun münaqişə sonrası proseslərə aşkar formada qərəzli yanaşma sərgiləməsi ikitərəfli münasibətlərdə ciddi gərginliyə səbəb oldu. Ağ Ev münaqişənin tamamilə həll olunmadığını iddia edərək, fəaliyyəti faktiki iflic olmuş ATƏT-in Minsk qrupunu yenidən canlandırmağa cəhd göstərdi. Həmin vaxt Ağ Ev Ermənistanın mövqelərini üstün tutan, balansı İrəvanın xeyrinə pozan davranış nümayiş etdirdi. 2022-ci ilin avqustunda şərti sərhədlər boyu və Qarabağda baş verən hərbi toqquşmalar zamanı Dövlət Departamenti Azərbaycanı hədəf alan birtərəfli bəyanatlarla çıxış etdi.

Konqresdə də bənzər ritorika müşahidə olundu. Senatın Xarici Əlaqələr Komitəsinin rəhbərliyi Azərbaycanın hərbi addımlarını kəskin şəkildə pisləyən bəyanatlar yaydı. 2022-ci ilin sentyabrında ABŞ Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin İrəvana səfəri bu qərəzli yanaşmanın kulminasiya nöqtəsi oldu. Bakı tam haqlı olaraq Vaşinqtonu neytrallıq statusunu itirməkdə ittiham edirdi.

Bayden-Blinken cütlüyünün həyata keçirdiyi kursun kökündə daxili siyasi məqamlar da yer alırdı. Demokratlar Partiyasının xarici siyasətində erməni diasporunun və lobbi qruplarının təsir imkanları xeyli artmışdı. Məhz bu qüvvələr onilliklər ərzində "907-ci düzəliş" adlı diskriminativ sanksiyanın qüvvədə qalması üçün ciddi fəliyyət göstərir, Vaşinqton-Bakı münasibətlərinin normallaşmasına imkan vermirdilər.

Azərbaycan Prezidenti İlham Əliyev ötən il bir neçə dəfə bu məsələyə diqqət çəkmişdi. Dövlətimizin başçısı Bayden-Blinken dövründə ABŞ-nin Azərbaycana qarşı qərəzli olduğunu vurğulamış, bunun nəticəsində ikitərəfli əlaqələrin böhrana sürükləndiyini söyləmişdi. Prezident "907-ci düzəliş"in yenidən bərpasını məhz elə Bayden-Blinken administrasiyasının nankorluğunun təzahürü kimi dəyərləndirmişdi.

2025-ci ildə Donald Trampın yenidən ABŞ prezidenti seçilməsi Vaşinqton-Bakı əlaqələrində həlledici dönüş nöqtəsinə çevrildi. Tramp administrasiyası hələ ilk rəhbərlik dönəmində (2017-2021) Azərbaycanla daha realist və qarşılıqlı mənfəətlərə söykənən siyasət yeritdi. Onun yenidən iqtidara gəlişindən sonra iki dövlət arasında normallaşma meyilləri sürətləndi. 2025-ci ilin avqustunda Prezident İlham Əliyevin Vaşinqton səfəri və Ağ Evdə Donald Tramp ilə səmimi görüşü ikitərəfli münasibətlərdə yeni mərhələnin rəsmi başlanğıcı kimi xarakterizə olundu. Vaşinqton görüşündə liderlər bir sıra mühüm sənədlərə imza atdılar. Tramp görüş əsnasında "907-ci düzəliş"in tətbiqinin dondurulması haqqında rəsmi fərman imzaladı.

Vaşinqtonda mühüm anlaşmalardan biri də Strateji Tərəfdaşlıq Xartiyasının imzalanması üçün işçi qrupların təsis edilməsi idi. İşçi qruplar ötən altı ay ərzində xartiyanın mətni üzərində işlədilər və prioritet istiqamətləri dəqiqləşdirdilər. Nəhayət, vitse-prezident Ceyms Devid Vensin Bakıya rəsmi səfəri çərçivəsində, fevralın 10-da Azərbaycanla ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyası da imzalandı. Yeni Strateji Tərəfdaşlıq Xartiyası iki dövlət arasında uzunmüddətli iş birliyinin "yol xəritəsi olacaq və dialoqun institusionallaşmasını təmin edəcək. Sənəd həm geosiyasi, həm iqtisadi, həm də təhlükəsizlik müstəvisində uzunmüddətli tərəfdaşlığın çərçivəsini müəyyənləşdirir. Xartiyanın məzmunu ABŞ-nin Azərbaycanla münasibətləri sistemli və çoxşaxəli şəkildə təşkil etmək niyyətində olduğunu ortaya qoyur. Bu sənəd iki ölkənin münasibətlərini formal diplomatiyadan strateji tərəfdaşlıq müstəvisinə daşıyır.

Köhnə administrasiyanın tətbiq etdiyi məhdudiyyətlər və qərəzli yanaşma ABŞ-Azərbaycan arasında münasibətlərə kölgə salmaqla bərabər, Vaşinqtonun regiondakı manevr imkanlarını da daraltmışdı. Hazırda ABŞ-Azərbaycan münasibətləri tamamilə yeni mərhələdə güclü təməl üzərində irəliləyir. Vitse-prezident Ceyms Devid Vensin Bakıya səfəri ABŞ-nin regiona verdiyi önəmin göstəricisi olmaqla paralel, ikitərəfli əlaqələrin strateji müttəfiqlik mərhələsinə keçidini də rəsmiləşdirdi. Bununla həm də Ağ Ev bölgədə sülh və sabitliyin, iqtisadi əməkdaşlığın əsas tərəfdaşlarından birinə çevrilmək imkanı qazandı.

Azərbaycan-ABŞ münasibətlərində yeni parlaq səhifənin açılması həm regional sabitlik, həm də iqtisadi əməkdaşlıq baxımından çox önəmlidir. Hər iki ölkə qarşılıqlı faydaya söykənən strateji tərəfdaşlığın vacibliyini dərk edir. ABŞ fərqindədir ki, Azərbaycan Cənubi Qafqazın iqtisadi mərkəzidir və Avropanın enerji diversifikasiyasında əsas oyunçudur. Nəticə etibarilə, Bakı və Vaşinqton arasındakı münasibətlər artıq sadəcə enerji ehtiyatları və ya təhlükəsizlik maraqları naminə deyil, bərabərhüquqlu və strateji hədəflər üzərində bərqərar olur.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

## Azərbaycan-ABŞ münasibətləri strateji tərəfdaşlıq müstəvisinə keçib

**Azərbaycan Prezidenti İlham Əliyev ilə Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti arasında baş tutan görüş və səsləndirilən birgə bəyanatlar Azərbaycanın xarici siyasətində mühüm və yeni bir müsbət mərhələnin başlanğıcı kimi qiymətləndirilməlidir. Bu görüş sadəcə protokol xarakteri daşımadı, əksinə, Azərbaycan-ABŞ münasibətlərinin keyfiyyətcə yeni, daha dərin və strateji mərhələyə daxil olduğunu nümayiş etdirdi. ABŞ kimi qlobal siyasi və iqtisadi gücün Azərbaycanla münasibətləri məhz bu kontekstdə qiymətləndirməsi ölkəmizin beynəlxalq nüfuzunun və artan geosiyasi əhəmiyyətinin bariz göstəricisidir.**



Son illər Azərbaycan beynəlxalq münasibətlər sistemində müstəqil, balanslaşdırılmış və praqmatik xarici siyasət modeli ilə seçilir. Dövlətimiz heç bir güc mərkəzindən asılı olmadan, milli maraqları əsas götürərək həm Qərb, həm də Şərq istiqamətində paralel və bərabərhüquqlu münasibətlər qurur. Məhz bu yanaşma Azərbaycanın etibarlı tərəfdaş kimi qəbul olunmasına və ABŞ ilə münasibətlərin yeni mərhələyə keçməsinə zəmin yaradıb. Prezident İlham Əliyevin münasibətlərin "tamamilə yeni mərhələyə" daxil olduğunu vurğulaması Azərbaycanın apardığı düşünülmüş diplomatiyanın nəticəsidir.

Görüş zamanı iki ölkə arasında imzalanan Strateji Tərəfdaşlıq Xartiyası və bu xartiya ilə bağlı səsləndirilən fikirlər Azərbaycan-ABŞ münasibətlərinin daha sistemli və uzunmüddətli əsaslar üzərində inkişaf etdiriləcəyini göstərir. Bu sənəd Azərbaycanın təhlükəsizlik maraqlarının möhkəmləndirilməsi, iqtisadi əlaqələrin genişləndirilməsi və texnoloji əməkdaşlığın dərinləşdirilməsi baxımından mühüm imkanlar açır. Xüsusilə ABŞ investisiyalarının və qabaqcıl texnologiyalarının Azərbaycan iqtisadiyyatına cəlb olunması qeyri-neft sektorunun inkişafına və iqtisadi dayanıqlığın artırılmasına xidmət edir.

Azərbaycanın enerji təhlükəsizliyi sahəsində oynadığı mühüm rol artıq beynəlxalq səviyyədə geniş şəkildə qəbul olunur. "Cənub qaz dəhlizi" kimi strateji layihələr Avropanın enerji təhlükəsizliyinə real töhfələr verib və Azərbaycanın etibarlı enerji tərəfdaşı statusunu möhkəmləndirib. ABŞ ilə münasibətlərin yeni mərhələyə daxil olması bu rolun daha da gücləndiyini göstərir, çünki enerji təhlükəsizliyi bu gün təkcə iqtisadi deyil, eyni zamanda ciddi geosiyasi əhəmiyyət daşıyan məsələdir və Azərbaycan bu sahədə etibarlı və məsuliyyətli tərəfdaş kimi çıxış edir.

Eyni zamanda Azərbaycanın nəqliyyat və logistika imkanları ölkəmizin geostrateji mövqeyini daha da gücləndirir. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri, Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Azərbaycanın regionun əsas tranzit mərkəzlərindən birinə çevrildiyini göstərir. ABŞ ilə əməkdaşlığın genişlənməsi bu sahədə də yeni perspektivlər açaraq Azərbaycanın qlobal ticarət marşrutlarında rolunu daha da artırır.

ABŞ tərəfinin Azərbaycan-Ermənistan sülh prosesi ilə bağlı səsləndirdiyi mövqe də xüsusi əhəmiyyət kəsb edir və bu, regionda sülh gündəliyinin əsas müəllifinin məhz Azərbaycan olduğunu bir daha təsdiqləyir. 44 günlük Vətən müharibəsindən sonra yaranmış yeni reallıqlar məhz Azərbaycanın güclü siyasi iradəsi və diplomatik təşəbbüsləri nəticəsində sülh müstəvisinə daşınıb. Azərbaycanın beynəlxalq hüquqa əsaslanan, suverenlik və ərazi bütövlüyü prinsiplərini önə çəkən sülh modeli artıq beynəlxalq tərəfdaşlar tərəfindən dəstəklənir.

Bütün bu proseslər fonunda Azərbaycanın beynəlxalq imici daha da möhkəmlənir. Ölkəmiz sabitlik yaradan, sözünə və imzasına hörmət edən və uzunmüddətli əməkdaşlığa sadiq tərəfdaş kimi qəbul olunur. Beynəlxalq münasibətlər sistemində etibarlılıq ən qiymətli amillərdən biri hesab olunur və Azərbaycan bu etibarı illər ərzində formalaşdırıb. ABŞ ilə münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi də məhz bu etibarın nəticəsidir.

Prezident İlham Əliyev ilə ABŞ-nin vitse-prezidenti arasında keçirilən görüş, iki ölkə arasında imzalanan Strateji Tərəfdaşlıq Xartiyası və səsləndirilən bəyanatlar Azərbaycanın milli maraqlarına tam uyğun gələn xarici siyasət kursunun növbəti uğurlu təzahürüdür. Bu münasibətlərin yeni mərhələyə daxil olması Azərbaycanın beynəlxalq siyasi çəkisinin artmasına, təhlükəsizlik mühitinin möhkəmlənməsinə, iqtisadi və texnoloji imkanlarının genişlənməsinə xidmət edir və ölkəmizin regionda və dünyada mövqelərini daha da gücləndirir.

*Vasif QAFAROV,*
*Milli Məclisin deputatı*

## 42 kilometrlik TRIPP 4200 kilometrlik Orta dəhlizin əsas halqasına çevrilir

### Azərbaycanla ABŞ arasında imzalanan xartiyada logistika sahəsində əməkdaşlığın önəmli yer tutmasının bir səbəbi də budur

**Müasir dünyada qlobal ticarətin genişlənməsində nəqliyyat-logistika sistemi önəmli rol oynayır. O üzdən beynəlxalq səviyyədə ticarət yollarına nəzarət qlobal güclər üçün xüsusi əhəmiyyət kəsb edir. Səbəbi də budur ki, sürətli istehsal və sürətli satış müasir dünya iqtisadiyyatının mühüm elementidir.**

Məlum olduğu kimi, dünyada baş verən münaqişələr və geosiyasi qarşıdurmalar səbəbindən ənənəvi ticarət marşrutlarında müəyyən problemlər yaranıb. İndiki halda Orta dəhliz ən münasib alternativdir, üstəlik də təhlükəsizlik və səmərəlilik baxımından əlverişlidir. O da məlumdur ki, Orta dəhlizə nəzarət uğrunda qlobal güclər arasında ciddi rəqabət gedir. Ermənistanla Azərbaycanın Zəngəzur dəhlizinin (TRIPP) açılması barədə razılığa gəlməsinin gecikməsi də bu layihəyə qarşı çıxan güclərin Ermənistana təzyiq göstəməsi ilə bağlı olub.

Nəhayət, ABŞ bu layihənin gerçəkləşməsi üçün Ermənistanı himayə etdi. Bundan sonra ötən ilin avqustanda Vaşinqtonda Amerikanın dəstəyi ilə iki ölkə arasında Zəngəzur dəhlizinin (TRIPP) fəaliyyətə başlaması barədə sənəd imzalandı. Amerika bu layihənin arxasında durmasını hər vəchlə nümayiş etdirir. Təsadüfi deyil ki, "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın 1-ci bölümündə əməkdaşlığın önəmli sahələrdən biri kimi Orta dəhlizdə və "Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşutu"nun (TRIPP) əhəmiyyəti vurğulanır. Sənəddə yazılıb: "Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları Orta dəhlizin inkişafına xüsusi diqqət ayıraraq enerji, nəqliyyat və rəqəmsal infrastruktur sektorlarında, o cümlədən TRIPP və digər layihələrin inkişaf etdirilməsi vasitəsilə iqtisadi artımı və regional bağlantıları təşviq etmək üçün əməkdaşlığı genişləndirmək niyyətindədirlər".




İldə 25 milyon ton yükün Orta dəhlizlə çatdırılması hədəf kimi götürülüb. Bu məqsədə nail olmaq üçün region ölkələri əməkdaşlığı genişləndirməli, digər müvafiq addımlar atmalıdır. Xüsusən marşrutun texniki standartlarının artırılması, sənədləşmə proseslərinin rəqəmsallaşdırılması və vahid tarifin bütün tərəflərin qəbul etməsi vacibdir.

Xəbər verildiyi kimi, fevralın 9-da Daşkənddə Azərbaycan, Özbəkistan və Gürcüstan arasında Orta dəhlizin inkişafı üzrə əməkdaşlığın perspektivləri müzakirə olunub. Həmin gün ADY-nin sədri Rövşən Rüstəmovla "Özbəkistan Dəmir Yolları" SC-nin idarə heyətinin sədri Zufar Narzullayev və "Gürcüstan Dəmir Yolları" SC-nin baş direktoru Laşa Abaşidze arasında görüş keçirilib. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər, üç ölkə arasında dəmir yolu sahəsində iş birliyi, o cümlədən Orta dəhlizlə Mərkəzi Asiyadan Avropa istiqamətində yükdaşımaların daha səmərəli təşkili üzrə əməkdaşlığın perspektivləri müzakirə edilib. Tərəflər həmçinin bu dəhlizlə yükdaşımaların daha da artırılması və yeni yüklərin cəlb olunması üçün rəqəmsal həllərin tətbiqinin genişləndirilməsinin vacibliyini vurğulayıblar.

Azərbaycan, Gürcüstan, Özbəkistanla yanaşı, Türkmənistan da Orta dəhliz üzrə əməkdaşlığı genişləndirməyə maraq göstərir. Bu il fevralın 10-da Aşqabadda "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) sədri Rövşən Rüstəmov, Türkmənistanın dəmir yolu nəqliyyatı naziri Mammed Akmammedov, "Özbəkistan Dəmir Yolları" SC-nin idarə heyətinin sədri Zufar Narzullayev və "Gürcüstan Dəmir Yolları" SC-nin baş direktoru Laşa Abaşidze arasında dördtərəfli görüş keçirilib. Görüşdə tərəflər qarşılıqlı maraq kəsb edən məsələləri, o cümlədən dəmir yolu sahəsində, eləcə də regionun əsas tranzit marşrutlarından olan Orta dəhliz üzrə əməkdaşlığın genişləndirilməsi imkanlarını nəzərdən keçiriblər. Bununla yanaşı, Orta dəhlizin rəqabət qabiliyyətinin yüksəldilməsi, bu marşrut üzrə daşımaların həcminin artırılması barədə fikir mübadiləsi aparılıb, əməliyyatların rəqəmsallaşdırılmasının yük nəqlinin daha operativ həyata keçirilməsi baxımından əhəmiyyəti vurğulanıb, ötən ilin avqustunda Türkmənbaşı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Türkmənistanın Dəmir Yolu Nəqliyyatı Nazirliyi və Özbəkistan Respublikasının Nəqliyyat Nazirliyi arasında nəqliyyat-logistika əməkdaşlığı sahəsində Anlaşma Memorandumu"nun əməkdaşlığın genişləndirilməsinə mühüm töhfə verəcəyi qeyd olunub.

Dördtərəfli görüşün yekunu olaraq Orta dəhliz üzrə rəqəmsallaşma və yükdaşımaların inkişafı, dəhlizin diaqnostikası kimi istiqamətləri əhatə edən protokol imzalanıb.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# REGİONLAR

# İlk regional inkişaf dövlət proqramının təsdiq olunmasından 22 il keçir

## Bu illər ərzində bölgələrimiz geridə qalmış əyalətdən inkişaf edən regionlara çevrilib

**Prezident İlham Əliyevin Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına yönəldilən I Dövlət Proqramını fərmanla təsdiq etməsindən 22 il keçir. Bu proqram 2004-2008-ci illəri əhatə edirdi.**

Beş il davam edən proqram Azərbaycanın regionlarında infrastrukturun yenilənməsi, yoxsulluğun azaldılması və yeni iş yerlərinin yaradılması üçün əsaslı baza rolunu oynadı. Proqram Bakı ilə regionlar arasında disbalansı aradan qaldıraraq yerli sahibkarlığın inkişafına təkan verdi və kommunal-sosial xidmətlərin keyfiyyətini yüksəltdi.

Ölkəmizdə infrastrukturun müasirləşdirilməsi - yol, elektrik, qaz və su təchizatı sistemlərinin yenidən qurulması məhz bu proqramla başlandı. Proqramın icra olunduğu dövrdə iqtisadi fəallıq artdı. Regionlarda emal müəssisələrinin yaradılması və kənd təsərrüfatının inkişafı stimullaşdırıldı. Yeni iş yerləri yaradıldı, bu da məşğulluğun səviyyəsini artırdı. Məktəblər, xəstəxanalar və mədəniyyət obyektlərinin tikilməsi və ya təmiri ilə yaşayış səviyyəsi yaxşılaşdırıldı.

Bir sözlə, bu proqramın uğurlu icrası regionların ölkə iqtisadiyyatındakı rolunu artıraraq dayanıqlı inkişaf üçün möhkəm təməl yaratdı.

Regionların sosial-iqtisadi inkişafına yönəldilən növbəti proqramlar 2009-2013-cü, 2014-2018-ci, 2019-2023-cü illəri əhatə etdi. Təkcə ilk üç proqramın icra olunduğu 2004-2018-ci illərdə ölkədə ümumi daxili məhsul 3,3, o cümlədən qeyri-neft sektoru üzrə 2,8, sənaye üzrə 2,6, kənd təsərrüfatı üzrə 1,7 dəfə artdı. Sözügedən müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə açıldı, işsizlik 5, yoxsulluq səviyyəsi isə 5,1 faizə endi. Dövlət proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin yaratdı.

2019-cu ilin əvvəlindən icrasına başlanan sonuncu proqram ölkənin regionlarının, o cümlədən kənd yerlərinin sosial-iqtisadi inkişafı sahəsində görülmüş işləri növbəti illərdə də davam etdirmək, eləcə də infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, bölgələrdə yaşayan əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədini daşıyırdı. Odur ki, bu proqram da regionların tarazlı inkişafının təmin edilməsinə, yeni iş yerlərinin yaradılması və əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi sahəsində görülən işlərə yeni bir təkan verdi. Proqramın əhatə etdiyi dövr ərzində Bakı ilə yanaşı, Gəncə, Sumqayıt və digər şəhərlərdə, Abşeron, Ağcabədi, Ağsu, İsmayıllı, Oğuz, Qobustan, Şabran, Şəki, Göygöl, Tərtər, Xızı və başqa bölgələrdə yüzlərlə müəssisənin təməli qoyuldu və açılış mərasimi keçirildi.











2020-ci ildə Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı böyük qələbə ilə görülən işlərin miqyası daha da genişləndi. Düşmən tapdağından azad edilmiş ərazilərimizdə bərpa və tikinti-quruculuq işləri geniş vüsət aldı. İşlər elə bir start götürdü ki, 2023-cü ildə, yəni qələbədən cəmi üç il keçmiş artıq Zəngilanın Ağalı kəndi, Tərtərin Talış kəndi, Laçın, Füzuli özünün illərlə doğma yurd üçün həsrət çəkən yüzlərlə sakinini qoynuna aldı. Həmin vaxtdan başlanan köç karvanları indi artıq aydan-aya deyil, gündən-günə çoxalır.

Sonuncu proqramın təkcə bir ilində ölkənin regionlarında həyata keçirilmiş layihələrin bir hissəsini sadalamaqla görülmüş işlərin miqyasını təsəvvürə gətirə bilərik. Belə ki, yalnız 2022-ci ildə Ağdam Sənaye Parkında 12 rezident qeydiyyatdan keçdi. 2023-cü il yanvarın 1-dək Sumqayıt Kimya Sənaye Parkında qeydiyyatdan keçmiş rezidentlərin sayı 32-yə çatdı. Mingəçevir Sənaye Parkında "Mingəçevir Tekstil" MMC-nin iplik istehsalı üzrə iki müəssisəsi fəaliyyətini davam etdirdi, istehsal olunan məhsulların satışı həyata keçirildi. Pirallahı Sənaye Parkında müəssisələrin təşkili işləri, Balaxanı Sənaye Parkının 25 rezidentindən 17-si tərəfindən istehsal fəaliyyəti, digər rezidentlər tərəfindən isə istehsal sahələrinin tikintisi davam etdirildi.

Həmin il ərzində 49 sahibkarlıq subyektinə 50 investisiya təşviqi sənədi təqdim olundu. Aqrar sektorun inkişafında mühüm əhəmiyyət kəsb edən aqroparkların və müasir iri fermer təsərrüfatlarının yaradılması istiqamətində ardıcıl işlər aparıldı. Bu dövrdə artıq aqroparkların 34-ü bitkiçilik, 14-ü bitkiçilik və heyvandarlıq, 1-i heyvandarlıq, 2-si isə emal sənayesi üzrə ixtisaslaşmışdı. Onlardan 44-ü artıq fəaliyyətə başlamışdı.

"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən istifadə, yaşıllaşdırma, meşəliklərin salınması istiqamətində də genişmiqyaslı işlər görüldü. 2022-ci ildə proqram çərçivəsində regionlarda meşə fondu ərazilərində 1,5 milyondan çox ağac əkildi, 1373,9 hektar sahədə meşəsalma və meşəbərpa işləri yerinə yetirildi. Qeyri-meşə fondu torpaqlarında yaşıllıqların salınması, bərpası, becərilməsi istiqamətində müvafiq işlər görüldü.

Ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayan nəqliyyat sektorunda avtomobil yolları çəkildi və yenidən quruldu, körpülər salındı. Avşar-Salmanbəyli-Aşağı Avşar-Xocavənd avtomobil yolu, Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yolunun Oğuz-Şəki hissəsi, Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun Şükürbəyli-Cəbrayıl hissəsi... Bunlar yenidənqurmadan sonra açılışı olan yollardan yalnız bir neçəsi idi. 2021-ci ildə açılan Füzuli Beynəlxalq Hava Limanından sonra Zəngilan Beynəlxalq Hava Limanı da istifadəyə verildi.

Sözügedən dövlət proqramlarının həyata keçirildiyi 20 ildə onlarla elektrik stansiyasının və yarımstansiyasının tikilib fəaliyyətə başlaması ilə ölkə başdan-başa nura qərq oldu. Bunların arasında işğaldan azad edilmiş ərazilərimizdə yaradılmış generasiya gücləri xüsusi əhəmiyyət kəsb etdi.

Sözügedən proqramların həyata keçirildiyi iki onillik ərzində ölkəmiz Cənubi Qafqazın iqtisadiyyatında 64 faizə malik güclü iqtisadiyyat formalaşdırdı. Kənd təsərrüfatı sektoru 2,1, nəqliyyat sektoru 4,1, turizm və ictimai iaşə sektoru 17,5, informasiya və rabitə sahəsi 20,9 dəfə artdı.

Azərbaycan Avropanın enerji xəritəsini dəyişdirən neft, qaz və ixrac layihələri həyata keçirdi. 2006-cı ildə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi. Bu artıq beş ildən çoxdur ki, Avropa "Cənub qaz dəhlizi" ilə Azərbaycan qazı alır. Yeri gəlmişkən, qeyd edək ki, indi artıq 16 ölkə Azərbaycan qazının idxalçısıdır.

2004-cü ildən başlayaraq, ölkəmiz hər il ən azı 1000 kilometr yeni yol çəkib və əsaslı təmir edib. Bu gün şimaldan cənuba, şərqdən qərbə uzanan nəqliyyat dəhlizləri də Azərbaycandan keçir. Yeni, müasir yollar bizi Qarabağa və Şərqi Zəngəzura aparır.

Görülən bütün işlər ölkə əhalisinin dolanışığında, güzəranında öz əksini tapıb. Əməkhaqqı, pensiyalar, müavinətlər dəfələrlə artırılıb.

Bir nüansı da vurğulayaq ki, dördüncü proqram qəbul edilərkən torpaqlarımız hələ işğal altında idi. Qələbədən sonra ölkəmiz regionların inkişafı işlərini daha geniş bir coğrafiyada apardı. Beləliklə, qarşıya yeni vəzifələr qoyuldu, yeni proqramlar qəbul edildi və bunların hamısı öz torpaqlarını azad etmiş və suverenliyini tam bərpa etmiş Azərbaycanın daha da inkişafına təkan verir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Daha bir aqropark fəaliyyətə başlayır

## "İvanovka Aqropark"a qeydiyyat şəhadətnaməsi təqdim edilib

**Kənd Təsərrüfatı Nazirliyi tabeliyində Aqrar Tədqiqatlar Mərkəzi tərəfindən yeni yaradılan daha bir aqroparka qeydiyyat şəhadətnaməsi təqdim olunub.**

İsmayıllı rayonunun İvanovka kəndində yerləşən "İvanovka Aqropark"a rezidentin qeydiyyat şəhadətnaməsinin təqdimetmə mərasimində çıxış edən Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Rəşad Hüseynov son dövrlərdə aqroparklarla bağlı görülən işlər barədə məlumat verib.

ATM direktoru qeyd edib ki, dövlət başçısı İlham Əliyevin "Aqroparkların fəaliyyətinin təşkili, idarə olunması və inkişafı sahəsində əlavə tədbirlər və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamında dəyişiklik edilməsi haqqında" 14 aprel 2025-ci il tarixli fərmanı ilə bu sahədə mühüm dəyişikliklər edilib. Belə ki, aqroparklara münasibətdə Kənd Təsərrüfatı Nazirliyi "səlahiyyətli orqan", Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Aqrar Tədqiqatlar Mərkəzi publik hüquqi şəxsi isə "idarəedici təşkilat" kimi müəyyənləşdirilib. Bundan sonra aqroparklarla bağlı bir sıra normativ hüquqi sənədlər hazırlanaraq təsdiqlənib. Hazırda isə aqroparkların potensialı üzrə diaqnostikalar yekunlaşmaq üzrədir.



"İvanovka Aqropark" haqqında məlumat verən ATM rəhbəri bildirib ki, bu aqropark özəl aqroparkdır və innovativ texnologiyalar əsasında əkinçilik və bağçılıq üzrə ixtisaslaşması nəzərdə tutulur.

Tədbirdə çıxış edən "İvanovka Aqropark"ın direktoru Ramin Əlifov aqroparkın yaradılmasında göstərilən dövlət dəstəyinə və şəraitə görə dövlət başçısına, aidiyyəti qurumlara minnətdarlığını bildirib. O qeyd edib ki, əsasən, əkinçilik və bağçılıq üzrə ixtisaslaşacaq təsərrüfat kompleksinin ümumi ərazisi 7600 hektar, layihə dəyəri 25,1 milyon manat təşkil edir. Aqroparkda 4 tarla sxemi ilə il ərzində 500 ha ərzaqlıq buğda, 250 ha dən üçün qarğıdalı, 250 ha günəbaxan, 250 ha isə təkrar əkin olaraq silosluq qarğıdalının becərilməsi planlaşdırılır. Eyni zamanda 1750 ha dəmyə sahədə arpa, 1500 ha sahədə buğda və 100 ha sahədə yonca bitkisinin becərilməsi, 100 ha sahədə damlama suvarma sistemi altında süfrə və texniki üzüm sortlarının becərilməsi nəzərdə tutulur.

Tədbirin sonunda ATM direktoru Rəşad Hüseynov rezidentin qeydiyyat şəhadətnaməsini "İvanovka Aqropark"ın direktoru Ramin Əlifova təqdim edib.

*"Azərbaycan"*

# 20 ölkəni təmsil edən əcnəbi tələbələr ADAU-nun qonağı olmuşlar

**Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramı çərçivəsində təhsil alan və 20 ölkəni təmsil edən əcnəbi tələbələr Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) olmuşlar.**

Səfər zamanı əcnəbi tələbələr Gəncə Memorial Kompleksini ziyarət etmişlər. Burada qonaqlara bildirilmişdir ki, Prezident İlham Əliyevin 2025-ci ildə açılışını etdiyi kompleks İkinci Qarabağ müharibəsi zamanı Ermənistanın raket hücumlarının qurbanı olmuş mülki insanların xatirəsini əbədiləşdirmək və müharibənin acı reallıqlarını gələcək nəsillərə çatdırmaq məqsədilə inşa edilmişdir.

Sonra əcnəbi tələbələr Azərbaycan Dövlət Aqrar Universitetinin maddi-texniki bazası, tədris mühiti və elmi-tədqiqat imkanları ilə yaxından tanış olmuşlar. Qonaqlar universitetin onlayn televiziyası ADAU TV-nin studiyası, İnnovasiya Mərkəzi və müasir laboratoriyalarına da baş çəkmişlər. Onlarla görüşən ADAU-nun rektoru Zəfər Qurbanov ölkəmizin kənd təsərrüfatı mütəxəssisi hazırlayan yeganə dövlət ali təhsil müəssisəsi olan universitetin beynəlxalq əməkdaşlığa, akademik mübadiləyə və mədəni müxtəlifliyə xüsusi önəm verdiyini diqqətə çatdırmışdır. ADNSU-nun əcnəbi tələbələrlə iş şöbəsinin müdiri Səbinə Əliyeva əcnəbi tələbələr adından səmimi qarşılandıqları üçün təşəkkürünü bildirmişdir.



Görüşdə əcnəbi tələbələrin region universitetləri ilə tanışlığının əhəmiyyəti, onların akademik və sosial inteqrasiyası, eləcə də ali təhsil müəssisələri arasında beynəlmiləlləşmə istiqamətində əməkdaşlıq imkanları müzakirə olunmuşdur.

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*

# Hacıqabulda müasir ət kəsimi məntəqəsi istifadəyə verilib

**Hacıqabulda sanitariya-gigiyena normalarına, texniki tələblərə və müasir standartlara cavab verən ət kəsimi məntəqəsi açılıb.**

Yeni orta tipli məntəqənin ət kəsim gücü günlük 30 baş qaramal və 80-100 baş arası davardır. Müəssisə əhalinin sanitariya-gigiyena tələblərinə uyğun şəraitdə ət məhsullarına çıxışını təmin etmək, qanunsuz və nəzarətsiz kəsim hallarının qarşısını almaq üçün inşa olunub. Müasir avadanlıqlarla təchiz olunan məntəqədə həm heyvanların sağlamlıq vəziyyətinin yoxlanılması, həm də kəsim prosesinin texnoloji qaydalara uyğun aparılması üçün bütün zəruri şərait yaradılıb.



*S.CAVADOV,*
*"Azərbaycan"*

# Lerikdə qarın hündürlüyü 25 santimetrə çatıb

**Lerikdə qarın hündürlüyü 25 santimetrə çatıb, bəzi ərazilərdə elektrik enerjisinin verilişində fasilələr yaranıb.**

Rayon fövqəladə hallar komissiyasının sədri Habil Məlikov qeyd edib ki, Lənkəran-Lerik avtomobil yolu nəqliyyatın hərəkəti üçün açıqdır. Yağıntının intensivliyini nəzərə alaraq 52 saylı Yol İstismar İdarəsinin ağır texnikaları əraziyə cəlb olunub.

Eyni zamanda bəzi yaşayış məntəqələrində elektrik enerjisinin verilişi bərpa edilib. Aidiyyəti qurumların əməkdaşları nasazlıqların aradan qaldırılması üçün tədbirlər görürlər.



# Taxıl, üzüm, kartof

## Tovuz kəndlisinin əsas qazanc mənbəyidir

**Ölkənin qərb bölgəsində yerləşən böyük rayonlardan biri də Tovuzdur. Gözəl təbiəti, zəngin yeraltı və yerüstü sərvətləri olan rayonun insanları olduqca işgüzardır.**

Tovuzda kənd təsərrüfatının bütün sahələrinin inkişafı istiqamətində əməli addımlar atılır. Bunun nəticəsidir ki, keçən il təsərrüfat sahibləri 131211 hektar əkinəyararlı torpaq sahəsindən maksimum istifadə edərək bol məhsul yetişdirmişlər. Əvvəlki illərdə olduğu kimi, ən çox diqqət taxıl istehsalına yönəldilmişdir. Ümumilikdə 11318 hektarda taxıl əkilmişdir ki, onun da 9313 hektarı payızlıq buğda, 2005 hektarı payızlıq arpa olmuşdur. Fermerlər 1318 hektar sahədə taxıl biçini apararaq zəmilərdən 46302 ton məhsul götürmüşlər. Onlar 9313 hektar sahənin hər hektarından 41,7 sentner olmaqla 38802 ton buğda, 2005 hektar sahənin hər hektarından 37,4 sentner olmaqla 7500 ton arpa biçmişlər.

Taxılçılar cari ilin məhsulu üçün də səylə çalışırlar. Cari ilin məhsulu üçün 14325 hektara payızlıq taxıl səpilmişdir. Onun 12177 hektarı payızlıq buğda, 2148 hektarı payızlıq arpadır. Bu günə qədər 8148 hektarda suvarma aparılmışdır.

Rayonda iqtisadi cəhətdən gəlirli olan üzümçülüyün də inkişafına diqqətlə yanaşılır. Hazırda Tovuzda 1185 hektar üzüm bağı mövcuddur və bunun 1099,5 hektarı barverən, 85,5 hektarı gənc bağlardır. Bağların 775 hektarında süfrə, 410 hektarında texniki üzüm sortları yetişdirilir. Söz düşmüşkən qeyd edək ki, keçən il barverən sahələrin hər hektarından 285,5 sentner olmaqla ümumilikdə 31395 ton məhsul toplanmışdır. Bu günlər bağbanların işi daha çoxdur. Onlar sahələrdə yeni bağların salınması, qış budaması, xəstəlik və zərərvericilərə qarşı mübarizə, cərgə aralarının şumlanması və digər aqrotexniki işlər aparırlar.







Tovuzda 2365,7 hektar sahədə meyvə və giləmeyvə də yetişdirilir. Onlardan 1718 hektarı barverən, 647,7 hektarı bar verməyəndir. Ötən il barverən sahələrin hər hektarından 176,4 sentner olmaqla 30300,7 ton məhsul yığılmışdır. Bu günlər sahələrdə yeni bağların salınması, budama, cərgə aralarının şumlanması və digər aqrotexniki işlər aparılır.

Tovuzlular kartofçuluqda da yüksək göstəricilərə nail olurlar. 2025-ci ildə rayonda 4492 hektarda kartof əkilmiş, hər hektardan 304,6 sentner olmaqla 136803,1 ton məhsul yığılmışdır. Hazırda fermerlər kartof və digər tərəvəz bitkiləri əkiləcək sahələri şumlayır, bəzi ərazilərə kartof toxumu səpilir. İndiyədək 150 hektar sahədə səpin aparılmışdır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*





# Vətən deyəndə...





● Şəhidlər ölməz, Vətən bölünməz



# Vətən sevgisi ilə yazılan Zəfər tariximiz

**Nəsildən-nəslə ötürülən, müqəddəs əmanətə çevrilən müqəddəs duyğudur Vətən sevgisi… Vətən onu sevən, onu qoruyan, onun uğrunda canından keçməyə hər an hazır olan insanlarla qüdrətli və sarsılmaz olur. Azərbaycan xalqının tarixində qəhrəmanlıq, vətənpərvərlik və fədakarlıq anlayışları hər zaman ali dəyər kimi qəbul edilib. Bu dəyərlərin ən uca zirvəsində isə şəhidlik dayanır. Şəhidlik - Vətən, torpaq və bayraq uğrunda canını fəda etməyin ən ali məqamıdır.**

Azərbaycanın yaxın tarixi, xüsusilə Qarabağ və Şərqi Zəngəzur uğrunda gedən mübarizə, xalqımızın əyilməz ruhunun, sarsılmaz iradəsinin və vətən sevgisinin bariz nümunəsidir.

Uzun illər Ermənistanın işğalı altında qalan ərazilərimiz, erməni vandalları tərəfindən talanan, dağıdılan, yerlə yeksan edilən şəhər və kəndlərimiz, viran qoyulan abidələrimiz xalqımızın qəlbində sağalmaz yaraya çevrilmişdi. Ancaq bu yara bizi mənən yıxa, zəiflədə bilmədi, əksinə, daha da gücləndirdi, birləşdirdi və böyük Zəfərə apardı.

### İşğal edilən torpaqlarımız - nisgil dolu illərimiz...

1990-cı illərin əvvəllərində Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayonu işğal edildi. Minlərlə soydaşımız şəhid oldu, on minlərlə insan yaralandı, bir milyondan artıq vətəndaşımız doğma yurd-yuvasından didərgin düşdü. İşğalçı ermənilərin Xocalıda, Malıbəylidə, Quşçularda, Başlıbeldə, Ağdabanda və digər ərazilərimizdə törətdikləri soyqırımları, qətliamlar bu işğalın ən dəhşətli, ən qanlı səhifələri oldu.

Qarabağın incisi Şuşa, füsunkar təbiətli Kəlbəcər, Laçın, Füzuli, Ağdam, Cəbrayıl, Ağdərə… düşmən tapdağı altında idi. Lakin Azərbaycan xalqı üçün Qarabağ və Şərqi Zəngəzur ərazilərinin Ermənistanın işğalına məruz qalması yalnız torpaqlarının itirilməsi deyildi. Bu, həm də tarixi irsimizə, mədəniyyətimizə, dini abidələrimizə qarşı vandalizm idi. Məscidlər təhqir edilir, qəbiristanlıqlar dağıdılır, evlər yandırılırdı. Bu ədalətsizliklərə dözmək mümkün deyildi.

Odur ki, Azərbaycan xalqı heç zaman işğalla barışmadı. Hər bir azərbaycanlının qəlbində Qarabağ, Şərqi Zəngəzur nisgili vardı. İşğal illərində böyüyüb boya başa çatan uşaqlarımız Şuşanın, Xankəndinin, Kəlbəcərin və digər ərazilərimizin adlarını təkcə məktəblərdə dərs kitablarından deyil, ata-babalarının həsrət dolu söhbətlərindən eşidirdilər.

### 44 günlük Vətən müharibəsi - tarixi dönüş nöqtəsi

Ordumuz isə ildən-ilə güclənirdi. Dövlətin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində Azərbaycan Ordusu regionun ən güclü ordularından birinə çevrildi. Müasir silahlarla təchiz olunmuş, yüksək döyüş ruhuna malik, peşəkar hərbçilərdən ibarət ordu formalaşdı. Bu ordu yalnız silahla deyil, ürəklə döyüşməyə, Vətən torpaqlarını Ermənistanın işğalından azad etməyə hazır idi.

2020-ci il sentyabrın 27-si Azərbaycan tarixində ən unudulmaz günlərdən birinə çevrildi. Ermənistanın növbəti hərbi təxribatına cavab olaraq başlayan Vətən müharibəsi 44 gün davam etdi və şanlı Qələbə ilə nəticələndi. Bu müharibə təkcə hərbi əməliyyat deyildi, bu, xalqın ləyaqət mübarizəsi idi.

Azərbaycanın igid əsgər və zabitləri döyüşlərdə qəhrəmancasına vuruşur, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və başqa ərazilərimizi addım-addım düşmənin işğalından azad edirdilər. İgidlərimiz hər qarış torpaq uğrunda ağır döyüşlərdən keçirdilər.

Vətən müharibəsində dağlıq ərazilərdə, sərt iqlim şəraitində aparılan əməliyyatlar dünya hərb tarixində yeni səhifə açdı. Xüsusilə, Şuşa uğrunda döyüşlər qəhrəmanlıq salnaməsinin zirvəsi oldu. Əsgərlərimiz sıldırım qayaları aşaraq, əlbəyaxa döyüşlər apararaq Şuşanı azad etdilər. 8 Noyabr - Zəfər Günü xalqımızın yaddaşına əbədi həkk olundu.

Bu qələbə nəticəsində Qarabağ və Şərqi Zəngəzurun böyük hissəsi işğaldan azad edildi. Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu. 2023-cü ilin sentyabrında aparılan birgünlük antiterror əməliyyatı nəticəsində isə Azərbaycanın ərazi bütövlüyü tam bərpa edildi.

### Şəhidlər - Zəfərin əbədi qəhrəmanları

Bu tarixi qələbələr Azərbaycanın minlərlə igid oğlunun canı, qanı bahasına qazanıldı. Onlar Vətəni öz canlarından üstün tutdular. Hər biri bir ailənin övladı, ata-analarının ümid yeri idilər. Lakin onlar şəxsi həyatlarını deyil, xalqın gələcəyini seçdilər.

Şəhidlərimizin hər birinin həyatı, qəhrəmanlığı bir dastandır. Kimi yaralı halda döyüşü davam etdirdi, kimi son gülləsinə qədər vuruşdu, kimisə silahdaşlarını xilas edərkən canından keçdi. Onların son sözləri çox vaxt "Vətən sağ olsun!" oldu. Bu sözlər Azərbaycan əsgərinin mənəvi gücünü, vətənə bağlılığını ifadə edir.

Şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın xatirəsi xalqımızın qəlbində əbədi yaşayır. Onların adları küçələrə, məktəblərə verilir, xatirə lövhələri vurulur, abidələri ucaldılır. Lakin ən böyük abidə azad edilmiş torpaqlarda dalğalanan üçrəngli bayrağımızdır.

İşğaldan azad olunmuş ərazilərdə bu gün genişmiqyaslı bərpa və quruculuq işləri aparılır. Dağıdılmış şəhərlər yenidən qurulur, yollar çəkilir, hava limanları tikilir, "ağıllı kənd" və "ağıllı şəhər" layihələri həyata keçirilir. Qarabağ və Şərqi Zəngəzur torpaqlarına həyat qayıdır.

Şuşa yenidən mədəniyyət paytaxtına çevrilib. Kəlbəcər, Laçın, Zəngilan yenidən öz sahiblərini qarşılayır. Köçkünlər mərhələli şəkildə doğma yurdlarına qayıdırlar. Bu qayıdış həm də tarixi ədalətin bərpasıdır.

Qarabağda və Şərqi Zəngəzurda hər tikilən ev, hər salınan yol, hər açılan məktəb şəhidlərimizin həyata keçən arzularıdır.

Dövlət tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə xüsusi diqqət və qayğı göstərilir. Onların sosial rifahının yaxşılaşdırılması, mənzil və məşğulluq problemlərinin həlli istiqamətində mühüm addımlar atılır. Lakin ən böyük təsəlli xalqın tükənməz sevgisi, hörməti, ehtiramıdır.

Cəmiyyət olaraq hər birimizin borcu şəhid ailələrinə mənəvi dayaq olmaq, qazilərimizə ehtiram göstərməkdir. Çünki bu gün azad səma altında torpaq nisgili çəkmədən yaşayırıqsa, bunu onların fədakarlığına borcluyuq.

### Gənc nəslə örnək

Vətən sevgisi sözlə deyil, əməllə sübut olunur. Şəhidlərimiz bunu öz canlarını fəda edərək göstərdilər. Onların şücaəti, sədaqəti və iradəsi yeni nəslin tərbiyəsində mühüm rol oynayır. Bu insanların həyat yolu gənclər üçün ən böyük vətənpərvərlik məktəbidir.

Bu gün Azərbaycan gənci qalib xalqın nümayəndəsidir. Onun üzərinə düşən vəzifə bu Zəfəri qorumaq, ölkənin inkişafına töhfə vermək, milli-mənəvi dəyərlərə sahib çıxmaqdır. Çünki torpağı qorumaq təkcə silahla deyil, elm, bilik və zəhmətlə də mümkündür.

Zaman keçir, illər ötür, lakin şəhidlər unudulmur. Onların adları tarixə yazılır, xatirəsi ürəklərdə yaşayır. Hər dəfə azad Qarabağa, Şərqi Zəngəzura gedəndə ucalarda dalğalanan üç rəngli, ay-ulduzlu bayrağımızı görəndə, həmin ərazilərimizdə bərpaolunan kəndlərə, qəsəbələrə, şəhərlərə baxanda böyük Zəfərimizin hansı fədakarlıq bahasına qazanıldığını xatırlayırıq.

Şəhidlər ölməz, Vətən bölünməz! Bu ifadə artıq təkcə şüar deyil, gerçəklikdir. Çünki şəhidlərimizin qanı ilə suvarılmış torpaqlarımız əbədi olaraq azaddır.

Qarabağ və Şərqi Zəngəzurun azad olunması Azərbaycan tarixinin ən şanlı səhifələrindəndir. Bu Qələbə xalqın birliyinin, güclü dövlətin və rəşadətli ordunun nəticəsidir. Lakin bu Zəfərin baş qəhrəmanları şəhidlərimizdir. Onlar Vətənin azadlığı uğrunda canlarını fəda edərək adlarını əbədiyyətə yazıblar.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Tarix yazan oğullar

# 10 gün döyüşdü, özünə əbədiyyət qazandı

**Oğul var evdən, oğul da var eldən gedər. Baş leytenant Telman Ələkbərov eldən gedən oğullardandır. Gənc zabit torpaqlarımızın azadlığı uğrunda alovlanan döyüşlərdə böyük hünərlə vuruşub, verilən tapşırıqları cəsarətlə yerinə yetirib. Yurdumuza hücum çəkən erməni işğalçılarının qarşısının alınmasında igidlik göstərib, son nəfəsinədək hərbi anda sadiq qalıb. Ölümün gözünə dik baxaraq şəhid olub, amma tutduğu döyüş mövqeyindən bir addım da olsun geri çəkilməyib.**




Baş leytenant Telman Ələkbərov 1991-ci il martın 30-da Bakıda dünyaya göz açıb. 1997-ci ildə 215 nömrəli tam orta məktəbin birinci sinfinə gedib. 2003-cü ilə qədər həmin məktəbdə oxuyub. 2003-cü ildən isə təhsilini Olimpiya İdman Liseyində davam etdirib.

2009-cu ildə Telman həqiqi hərbi xidmətə çağırılıb. İlk günlərdən başlayaraq, hərbi biliklərə, silahla davranmağa dərindən yiyələnib. Əsgəri xidmətini cəbhə bölgəsində yerləşən hərbi hissədə yerinə yetirib. Əldə silah torpaqlarımızın keşiyində dayanıb, yurdumuzu işğalçılardan qoruyub.

2011-ci ildə hərbi xidmətdən qayıtdıqdan sonra Telman Ələkbərov ali təhsil almağı qarşısına məqsəd qoyub, imtahanlara hazırlaşıb. Arzusuna 2013-cü ildə`çatıb. Həmin il Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına qəbul olub. Qiyabi oxuduğuna görə əmək fəaliyyətinə başlayıb. 2012-2018-ci illərdə "Azərişıq" ASC-də və "Azərsu" ASC-də mühafizə xidmətində işləyib. 2018-ci ildə ali təhsilini bitirdikdən sonra zabit kimi ordu sıralarında xidmət etmək qərarına gəlib. Arzusuna çatmaq üçün 2019-cu ildə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində təşkil edilən ehtiyat zabit hazırlığı kursunda oxuyub. Motoatıcı taqım komandiri ixtisası üzrə biliklərə yiyələnib. Kursu uğurla başa vuraraq leytenant rütbəsi alıb. Taqım komandiri kimi cəbhə bölgəsində yerləşən hərbi hissədə xidmət etməyə başlayıb. Kursda mənimsədiyi bilikləri təlim-məşqlər zamanı ordu sıralarında ilk addımlarını atan gənc əsgərlərə öyrədib.

Gənc zabit Telman üzərinə düşən vəzifələri bacarıqla yerinə yetirir, bir-birindən ürəkaçan uğurlar qazanırdı. Onun xidməti komandanlıq tərəfindən həmişə yüksək qiymətləndirilirdi. Xidməti vəzifəsini layiqincə yerinə yetirdiyinə görə hərbi hissə komandiri tərəfindən dəfələrlə fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılırdı.



Amma ən böyük arzusu Qarabağı erməni işğalçılarından azad etmək idi. Ağdam istiqamətində xidmət etdiyinə görə baş leytenant Telman Ələkbərov ön mövqelərdən düşmən tərəfə baxanda erməni işğalçılarının vəhşicəsinə darmadağın etdiyi yaşayış məntəqələrini görürdü. Bu dəhşətli mənzərələrə ürək ağrısı ilə baxırdı.

27 sentyabr 2020-ci ildə gənc zabitin gözlədiyi gün gəlib çatdı. Həmin gün erməni işğalçılarının təxribatı nəticəsində Qarabağın azadlığı uğrunda müharibə başladı. Ürəyi erməni işğalçılarına qarşı nifrətlə, qisasla döyünən baş leytenant komandiri olduğu şəxsi heyətlə birlikdə torpaqlarımızın müdafiəsinə atıldı. Telman 44 günlük Vətən müharibəsində həmişə öndə vuruşurdu. Hər addımda da əsgərlərini qorumağa çalışırdı. Lakin düşmən məğlub olub geri çəkilsə də, bəzən ayaq saxlayıb müqavimət göstərir, yeni qurduğu mövqelərdə möhkəmlənməyə çalışırdı. Telmangil isə daim irəli can atır, düşmənin planlarını alt-üst edirdi.

Vətən müharibəsinin onuncu günü idi. Baş leytenant döyüşlərdə cəsarətlə vuruşurdu. Uğurla başa çatan döyüşlər nəticəsində ərazilərimiz addım-addım erməni işğalçılarından azad olunurdu. İrəli atılan hər addım onları Şuşaya, Xankəndiyə, Xocalıya, başqa şəhər və kəndlərə aparırdı. Təəssüflər olsun ki, Telmanın həm döyüş, həm də ömür yolu yarımçıq qaldı. 7 oktyabr 2020-ci ildə düşmən gülləsinə tuş gələrək şəhid oldu. Arzularla, istəklərlə dolub-daşan ürəyi əbədi dayandı.

Doğmalarının, yaxınlarının iştirakı ilə şəhid baş leytenant Hərbi Memorial Məzarlıqda torpağa tapşırıldı. Məzarının üstünə əklillər qoyuldu, gül dəstələri düzüldü.

Şəhidin anası Səmayə Ələkbərova göz yaşları içində övladı haqqında söz açaraq deyir ki, Telman mərd, cəsur oğul idi: "Qarabağın uzun illər erməni işğalında qalması onu çox narahat edirdi. Həmişə deyirdi ki, ana, hər dəfə Şəhidlər xiyabanına gedəndə göz yaşlarımı saxlaya bilmirəm. Biz nəyin bahasına olursa olsun erməni işğalçılarından şəhidlərin qisasını almalıyıq. Qarabağ bizimdir, bizim olaraq da qalacaq. Düşmənləri əbədi-əzəli torpaqlarımızdan qovub çıxarmalıyıq. Oğlum dediyini elədi, Qarabağ uğrunda döyüşdü. Təəssüflər olsun ki, torpaqlarımızın azad olduğu Şuşada, Xocalıda, Xankəndidə və Qarabağın başqa şəhər və kəndlərində üçrəngli bayrağımızın dalğalandığı günü görmədi. Amma bu gün oğlumun ruhu şaddır. Övlad itirmək ağır, dözülməz dərddir. Yeganə təsəllimiz odur ki, onlar yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə şəhid olublar".

Göstərdiyi igidliyə görə Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə baş leytenant Ələkbərov Telman İqdam oğlu ölümündən sonra "Rəşadət" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", Ağdamın azad olunmasına görə" medallarına layiq görülüb.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# "World Defence Show 2026" sərgisi çərçivəsində fəal müzakirələr aparılır



**Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad şəhərində keçirilən "World Defence Show 2026" sərgisi davam edir.**

Tədbirdə iştirak edən Azərbaycanın müdafiə sənayesi naziri Vüqar Mustafayev Səudiyyə Ərəbistanı Hərbi Sənaye Baş İdarəsinin sədri Əhməd bin Əbdüləziz əl-Ohali və müdafiə nazirinin icra işləri üzrə müavini Xalid bin Hüseyn Əl-Biyari, Özbəkistanın Müdafiə Nazirliyi yanında Müdafiə Sənayesi Agentliyinin direktoru Mansurjon İbodullayev, Pakistan Müdafiə İstehsalatı Nazirliyinin katibi Məhəmməd Çıraq Hayder, həmçinin Amerika Birləşmiş Ştatlarının "General Dynamics", "Teledyne-FLIR" və "Ansys" şirkətlərinin rəhbər şəxsləri ilə görüşüb.

Bu barədə AZƏRTAC-a Müdafiə Sənayesi Nazirliyindən məlumat verilib.

Bildirilib ki, görüşlərdə müdafiə sənayesi sahəsində əməkdaşlıq əlaqələri nəzərdən keçirilib və inkişaf perspektivləri müzakirə edilib.

Danışıqlar zamanı müasir dövrdə müdafiə sənayesinin təkcə istehsal gücü ilə deyil, eyni zamanda elmi əsaslar, innovativ texnologiyalar və çevik idarəetmə modelləri üzərində formalaşdığı vurğulanıb, sənaye ilə elm arasında əlaqələrin gücləndirilməsinin strateji əhəmiyyət daşıdığı qeyd olunub. Texnoloji yeniliklərin izlənilməsi, qabaqcıl təcrübələrin öyrənilməsi və uyğunlaşdırılması bu sahənin dinamik inkişafı üçün vacib istiqamətlər kimi dəyərləndirilib. Eyni zamanda beynəlxalq sərgilərin və forumların bu prosesdə mühüm rol oynadığı bildirilib.

Müzakirələr zamanı təcrübə mübadiləsinin institusional əsaslar üzərində qurulmasının əhəmiyyətinə toxunulub.

Tərəflər qarşılıqlı ünsiyyətin davam etdirilməsinin vacibliyini vurğulayıblar.



# "AzerGold" QSC-nin təsis edilməsindən 11 il ötür

**11 fevral 2015-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "AzerGold" QSC-nin təsis edilməsi ölkəmizin dağ-mədən sənayesində yeni inkişaf mərhələsinin əsasını qoyub.**




Bu qərar filiz yataqlarının kəşfi və tədqiqi, qiymətli metalların hasilatı, emalı və satışının vahid dəyər zənciri üzrə təşkili, eləcə də Azərbaycan mədənçiliyinin institusional, texnoloji və idarəetmə baxımından müasirləşdirilməsi istiqamətində mühüm nəticələr verib.

Dövlət başçısının təşəbbüsü ilə biznes mühitinin təkmilləşdirilməsi, ixracyönlü sahələrin stimullaşdırılması və yerli istehsalın təşviqi məqsədilə həyata keçirilən ardıcıl islahatlar "AzerGold" QSC-nin fəaliyyətinin davamlı şəkildə genişlənməsi üçün əlverişli zəmin yaradıb.

5 iyul 2016-cı il tarixində dövlət qeydiyyatına alınaraq, fəaliyyətə başlayan "AzerGold" QSC bir sıra mühüm istehsal və infrastruktur layihələrini uğurla reallaşdıraraq ölkənin qeyri-neft sektorunun inkişafına, ixrac potensialının genişlənməsinə və regionlarda sosial-iqtisadi canlanmaya əhəmiyyətli töhfələr verib. Onillik fəaliyyəti dövründə 2 yeni qızıl yatağı kəşf edən, 4 qızıl mədənini və 1 regional sənaye kompleksini istismara verən cəmiyyət qeyri-neft sektorunun aparıcı dövlət şirkətlərindən biri kimi yerli və beynəlxalq bazarlarda ümumilikdə 563 min unsiya qızıl və 989 min unsiya gümüş satışı həyata keçirərək ölkə iqtisadiyyatına 1,9 milyard manatdan çox vəsait cəlb edib, 214 milyon manat həcmində vergi, 37 milyon manat həcmində sosial ödəniş öhdəliyini həyata keçirib.

"AzerGold" QSC-nin fəaliyyəti yalnız birbaşa iqtisadi gəlirlərin formalaşdırılması ilə məhdudlaşmayaraq regionların inkişafına, yüksəkixtisaslı insan kapitalının yetişdirilməsinə və məşğulluğun artırılmasına da mühüm töhfələr verib. Şirkətin fəaliyyəti nəticəsində ümumilikdə 2494 nəfər daimi işlə təmin olunub, xüsusilə ucqar kəndləri təmsil edən yerli mədənçi kadrların hazırlanması istiqamətində əhəmiyyətli nailiyyətlər qazanıb. Yeni mədən layihələrinin icrası ilə daimi iş yerlərinin sayının bir neçə dəfə artırılması, ixtisaslı kadrların hazırlanması prosesinin daha da genişlənləndirilməsi nəzərdə tutulur.

Hazırda dəmir filizi yataqlarının istismarını həyata keçirən "Daşkəsən Dəmir Filizi" Məhdud Məsuliyyətli Cəmiyyəti, onun törəmə müəssisəsi olan "Azerbaijan Metal Company" MMC, eləcə də ölkədə sənaye əhəmiyyətli partlayıcı maddələrin istehsalı üzrə ixtisaslaşmış yeganə şirkət olan "AzerBlast" MMC-ni öz fəaliyyəti ətrafında birləşdirən "AzerGold" QSC dağ-mədən sahəsində inteqrəolunmuş fəaliyyət modelini uğurla tətbiq edir.

"AzerGold" QSC sosial məsuliyyət, icmalarla əməkdaşlıq və ətraf mühitin mühafizəsi sahələrində həyata keçirdiyi məqsədyönlü tədbirlərlə dövlətin sosial-iqtisadi və ekoloji siyasətinin icrasına mühüm töhfələr verir və bu istiqamətdə fəaliyyətini ardıcıl şəkildə genişləndirir.

Qarşıdakı mərhələdə "AzerGold" QSC innovativ yanaşmaların və müasir texnologiyaların tətbiqini, beynəlxalq əməkdaşlığın genişləndirilməsi yolu ilə milli mədən sənayesinin rəqabət qabiliyyətinin artırılmasını, ölkəmizin perspektivli mineral-xammal potensialının müəyyənləşdirilməsini, həmçinin qısa və orta müddətli dövrdə bir neçə əlvan metal filizi mədəninin istismara verilməsi ilə ölkə iqtisadiyyatının dayanıqlı inkişafına daha böyük töhfələr verməyi hədəfləyir.

## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!**

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

**Azercell abunəçilərinin nəzərinə!**

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 13.02.2026-cı il tarixində gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində və əməliyyatların həyata keçməsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra xidmətlərdən tam normal əsaslarla istifadə imkanı təmin ediləcəkdir.

# Miqrendən necə qurtulmaq olar

**Miqren dünyada bir milyarddan çox insanın həyatına təsir edən və çox zaman sadəcə şiddətli baş ağrısı kimi qəbul edilən ciddi nevroloji xəstəlikdir. Bu narahatlıq yalnız ağrı ilə məhdudlaşmır, beyində baş verən mürəkkəb bioloji proseslər, sinir sistemindəki həssaslıq və ətraf mühit faktorları bu xəstəliyin əsasını təşkil edir. Miqren insanların gündəlik həyat keyfiyyətini, iş qabiliyyətini və sosial münasibətlərini ciddi şəkildə zəiflədən əsas sağlamlıq problemlərindən biri hesab olunur.**





Miqren tutmaları, adətən, döyünən xarakterli başağrısı ilə başlayır. Bu ağrılar bir neçə saatdan bir neçə günə qədər davam edə, ürəkbulanma, qusma, işığa və səsə qarşı yüksək həssaslıq, başgicəllənmə və diqqət pozğunluğu ilə müşayiət oluna bilər. Bəzi xəstələrdə tutmadan əvvəl və ya tutma zamanı görmə pozğunluqları, gözdə işıq çaxmaları, dalğalanmalar və ya görmə sahəsində qaranlıq nöqtələr meydana çıxır. Miqren əlamətləri hamıda eyni formada özünü göstərmir və bu da xəstəliyin müalicəsini çətinləşdirir.

Bu xəstəlikdə genetik meyillilik mühüm rol oynanır. Statistik göstəricilərə görə, miqren xəstələrinin təxminən 75 faizi qadınlardır. Uşaqlarda da rast gəlinən bu xəstəlik bəzən klassik başağrısı şəklində deyil, şiddətli qarın ağrısı və ürəkbulanma ilə özünü göstərir. Miqren ay ərzində 15 dəfədən az baş verərsə, epizodik, 15 dəfədən çox olarsa, xroniki kimi təsnif edilir.

Mütəxəssislər bildirirlər ki, miqrenin müalicəsinin bu qədər çətin olmasının əsas səbəbi onun insandan insana çox fərqli olmasıdır. Bəzi xəstələr sadə ağrıkəsicilərlə rahatlıq tapsa da, digərləri hətta miqren üçün xüsusi hazırlanmış dərmanlara belə reaksiya vermirlər. Üstəlik, ağrıkəsicilərin tez-tez və nəzarətsiz istifadəsi "dərmanların həddindən artıq istifadəsi nəticəsində yaranan başağrısı" adlanan vəziyyətə səbəb olaraq miqreni daha da ağırlaşdırır.

Son illərdə aparılan araşdırmalar iqlim dəyişikliyinin də miqren tutmalarına təsir etdiyini göstərir. Temperaturun yüksəlməsi, qəfil hava dəyişiklikləri, atmosfer təzyiqinin dalğalanması və hava çirkliliyi miqren üçün şərait yaradır. Nevroloqlar bildirirlər ki, iqlim dəyişikliyi miqrenə birbaşa səbəb olmasa da, bu xəstəliyə meyilli insanlarda tutmaların daha tez və daha ağır şəkildə baş verməsinə şərait yaradır. Miqren halları son 30 ildə say baxımından ciddi artım göstərməsə də, onun məhsuldarlığa və gündəlik həyata təsiri əhəmiyyətli dərəcədə yüksəlib. Araşdırmalar göstərir ki, 2005-2018-ci illər arasında miqren səbəbindən yaranan iş qabiliyyəti itkisi təxminən iki dəfə artıb. Bu, miqrenin təkcə tibbi deyil, eyni zamanda sosial və iqtisadi problem olduğunu da ortaya qoyur.

Miqren tədqiqatlarında dönüş nöqtələrindən biri 1990-cı illərdə CGRP-nin (Kalsitonin Gen Əlaqəli Peptid) kəşfi oldu. Miqren və klaster baş ağrıları zamanı səviyyəsi yüksələn bu maddə neyrogen iltihab yaradaraq damarların şişməsinə və şiddətli ağrılara səbəb olur. Bu kəşf miqrenin bioloji mexanizmlərini anlamaqda mühüm rol oynadı və yeni müalicə üsullarına yol açdı.

Hazırda bazarda CGRP-ni birbaşa bloklayan və ya onun sinir hüceyrələrinə təsirinə maneə törədən səkkiz fərqli dərman mövcuddur. Tədqiqatlar bu dərmanları qəbul edən xəstələrin əhəmiyyətli bir hissəsində miqren tutmalarının tezliyinin ciddi şəkildə azaldığını göstərir. Lakin bu müalicə də universal deyil. Bəzi xəstələr, xüsusilə vestibulyar miqrendən əziyyət çəkənlər, CGRP müalicəsindən yalnız qısa müddətli fayda görürlər. Bu xəstələr boyunlarının yan tərəfinə yerləşdirilən kiçik neyromodulyasiya cihazından istifadə edirlər. Bu cihaz sinirləri elektrik impulsları ilə stimullaşdıraraq miqren tutmalarının qarşısını nisbətən alır.

Əvvəllər yalnız estetik məqsədlərlə istifadə edilən botoks da son illərdə miqren müalicəsində təsirli vasitə kimi ön plana çıxıb. Baş və boyun nahiyəsinə edilən çoxsaylı botoks inyeksiyaları bəzi xroniki miqren xəstələrində tutmaların tezliyini 50 faizdən çox azalda bilir. Tədqiqatlar göstərir ki, bu üsul təkcə əzələləri rahatlatmır, eyni zamanda sinir uclarından CGRP-nin sərbəst buraxılmasını da azaldır. Lakin bu müalicənin mütləq şəkildə miqren üzrə ixtisaslaşmış həkimlər tərəfindən aparılması tövsiyə olunur.

Dərmanlara cavab verməyən və ya hamiləlik kimi səbəblərlə dərman qəbul edə bilməyən xəstələr üçün mexaniki və elektrik əsaslı müalicə üsulları getdikcə daha çox istifadə olunur. Boyun, alın və ya qol nahiyəsindən sinirləri stimullaşdıran cihazlar beynin ağrı yollarını yenidən tənzimləməyi hədəfləyir. Bundan əlavə, burun daxilinə yerləşdirilən titrəyən şar tipli cihazlar üzərində də tədqiqatlar aparılır. Bu metodun trigeminal sinirə və beynin arxa hissəsindəki neyron şəbəkələrinə dolayı təsir göstərərək ağrını azaltdığı düşünülür, lakin mexanizm hələ tam aydınlaşdırılmayıb.

Mütəxəssislər miqren müalicəsində həyat tərzi faktorlarının rolunu xüsusilə vurğulayırlar. Yuxu rejiminin qorunması, balanslı qidalanma, müntəzəm fiziki aktivlik, meditasiya, fizioterapiya, stresin idarə olunması və psixoloji dəstək müalicənin vacib hissəsini təşkil edir. Mütəxəssislərin fikrincə, miqren müalicəsinin "qızıl dövrü" hələ tam çatmayıb. Lakin dərmanlardan tutmuş neyromodulyasiya cihazlarına, botoksdan həyat tərzi dəyişikliklərinə qədər seçimlərin sürətlə artması milyonlarla insan üçün daha idarəolunan bir gələcəyin mümkün olduğunu göstərir. Miqren artıq sadəcə dözməli olduğumuz ağrı deyil, doğru yanaşma ilə nəzarət altına alına bilən mürəkkəb, lakin idarəolunan bir xəstəlikdir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Aİ sığınacaq axtaranların təhlükəsiz üçüncü ölkələrə köçürülməsinə icazə verib

**Qanunvericilikdə Avropa Parlamenti tərəfindən edilən dəyişiklik Avropa İttifaqı (Aİ) üzv dövlətlərinə sığınacaq axtaranların heç bir əlaqəsi olmayan ölkələrə köçürülməsinə imkan verəcək.**



Sığınacaq verilməsi qaydalarına daxil olan yenilənmiş "təhlükəsiz üçüncü ölkə" konsepsiyası ərizəçi ilə təyinat ölkəsi arasında əlaqə tələbini aradan qaldırır. Milli hakimiyyət orqanları artıq insanları heç vaxt ziyarət etmədikləri ölkələrə köçürə biləcəklər. Bu, Britaniya hökumətinin Ruanda ilə həyata keçirməyə çalışdığı modelə bənzər şəkildə Aİ üzv dövlətləri ilə xarici hökumətlər arasında maliyyələşdirmə əvəzində miqrantları qəbul edəcək razılaşmaların yolunu açır. Lakin Böyük Britaniya Ali Məhkəməsi bu layihəni bloklayıb, hazırkı hökumət isə ondan tamamilə imtina edib.

Aİ qaydalarına görə, əgər müvafiq razılaşma varsa və ölkə təhlükəsiz hesab olunursa, yəni müdafiə axtaran şəxslə orada beynəlxalq standartlar çərçivəsində rəftar ediləcəksə, miqrantlar dünyanın demək olar ki, istənilən ölkəsinə köçürülə bilər. Bu təminatlar sığınacaq axtaranların təqiblərdən və ciddi zərərdən qorunmasını, geri qaytarılmama prinsipinə hörməti, Cenevrə Qaçqınlar Konvensiyası çərçivəsində effektiv müdafiə almaq imkanı və yaşayış hüquqlarından əlavə təhsil və iş icazələri nəzərdə tutulan sığınacaq sisteminə çıxışı əhatə edir. Yeni qaydalar ərizələri baxılarkən Aİ ölkələrində qalacaq müşayiət olunmayan yetkinlik yaşına çatmayanlara şamil edilməyəcək.

"Bu səsvermə Aİ üzv dövlətlərinə üçüncü ölkələrlə əməkdaşlıqdan əvvəlkindən fərqli şəkildə istifadə etməyə imkan verəcək", - deyə məsələ üzrə məruzəçi olan Avropa Parlamentinin alman üzvü Lena Düpon bildirib. O, bu dəyişikliyin beynəlxalq hüquqa uyğun olduğunu və Avropa ölkələrində uzun sığınacaq müraciəti proseslərinin qarşısını alacağını deyib.

Amma dəyişikliyə səsvermə Ursula fon der Lyayenin Avropa Komissiyasını dəstəkləyən parlament alyansını parçalayıb və bu, qanunvericilik orqanının demək olar ki, bütün miqrasiya ilə bağlı sənədlərində təkrarlanan bir haldır. Vətəndaş cəmiyyəti təşkilatları da oxşar narahatlıqlarını ifadə ediblər. Qaçqınlar və Sürgünlər üzrə Avropa Şurası (ECRE) sığınacaq axtaranların üçüncü ölkələrdə adekvat müdafiə perspektivlərinin şübhəli olduğunu və yeni qanunvericiliyin həssas qruplar üçün riskləri artırdığını bildirir. ECRE həmçinin yeni tənzimləmə ilə təmin edilən apellyasiyaların avtomatik dayandırılmasının ləğvini tənqid edərək bildirir ki, bu, məhkəmənin qanunun düzgün tətbiq edilib-edilmədiyini nəzərdən keçirməzdən əvvəl insanların Aİ-dən kənara köçürülməsinə səbəb ola bilər.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Hava əsasən yağmursuz keçəcək

**Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb.**



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gecə bəzi şəhərətrafı ərazilərdə az çiskinli olacağı ehtimalı var. Cənub-qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-2, gündüz 6-9 dərəcə isti olacağı bildirilir. Atmosfer təzyiqi 760 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 60-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz olacaq. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 7-12 dərəcə isti, dağlarda gecə 5-10, yüksək dağlıq ərazilərdə 10-15, gündüz 0-5 dərəcə şaxta olacağı bildirilir. Gecə və səhər bəzi dağlıq və dağətəyi rayonlarda yolların buz bağlayacağı ehtimalı var.

## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası sədrinin müavini Rövzət Qasımova əzizi

**VƏLİ QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov Milli Məclisin deputatı Günay Ağamalıya atası

**FƏZAİL AGAMALININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsaglığı verir.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3204
Sifariş 204

Qiyməti 60 qəpik